SARI AŞIQ

# GÜL DƏFTƏRİ

İkinci nəşr

Kitabda Sarı Aşığın müxtəlif mənbələrdən götürülmüş 1000-ə yaxın bayatısı, 8 şeiri, tapmaca və bağlamaları, haqqında rəvayətlər yer almışdır. Tərtibçi istifadə etdiyi qaynaqlara tənqidi yanaşmış, çoxsaylı deyim və sözlərə, dini-mifoloji məfhumlara, xüsusi adlara aydınlıq gətirməyə çalışmış, cinasları düzgün və anlaşıqlı şəkildə təqdim etmişdir. Sarı Aşığın irsi kitabda oxuculara tam şəkildə çatdırılır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Toplayanı və tərtib edəni: **İlham Qəhrəman**

Redaktor: **Məsiağa Məhəmmədi**
*filologiya üzrə fəlsəfə doktoru*

Korrektor: **Nigar İlhamqızı**
*filoloq*

**Sarı Aşıq. GÜL DƏFTƏRİ**
Bakı, QANUN nəşriyyatı, 2018, 280 səh., 1000 tiraj
Çapa imzalanmışdır: 05.04.2018

QANUN nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-517-7

© QANUN nəşriyyatı, 2018
© İlham Qəhrəman, 2018

*Salman Mümtazın xatirəsinə*

# ÜRƏK QOYULAN KİTAB

Aşıq Ələsgər deyəndə Göyçə, Göyçə deyəndə Aşıq Ələsgər, Nizami deyəndə Gəncə, Gəncə deyəndə Nizami, Mövlana deyəndə Konya, Konya deyəndə Mövlana yada düşür. Amma, Sarı Aşıq deyəndə, Laçın, Laçın deyəndə Sarı Aşıq yada düşmür. Bu kitab həmin tarixi və ədəbi ədalətsizliyi aradan qaldırmağa xidmət edir.

İndiyə kimi ədəbiyyat araşdırmaçıları Sarı Aşığın haradan olması sualına cavab axtararkən bunun üçün onun yer və tayfa adları çəkilən bayatılarına istinad ediblər. Onu aşağıdakı bayatısına görə,

*Aşıq Qaramannıdı,*
*Xalın qara mannıdı.*
*Yaxşının tənəsindən,*
*Dağda qar amannıdı.*

Türkiyənin Qaraman elindən hesab edənlər var. Bu fikrə Bəhlul Bəhcətin “Sarı Aşığın bayatıları” kitabındakı (Bakı, “Səda”, 2006) “Bayatı şairi “Aşiqin” tərcümeyi-halı” yazısında da rast gəldik. Müəllif yazır ki, “Rum səlcuqları dövlətinin inqirazı nəticəsində Anadoluda kiçik bir dövlət təşəkkül etmişdi. Bu dövlətin mərkəzi Konya şəhəri olub, o zamankı adı ilə Qa-

raman vilayəti və ya Qaraman eli deyə adlanırdı”. Daha sonra müəllif “Qaraman oğulları” deyilən bu dövlətin Osmanlı dövləti tərəfindən məhv edildiyini və ... “oradakı müəyyən cərəyanlara mənsub olan təriqətçilər öz yurdlarını tərk edib başqa yerlərə hicrət edirlərdi” (yenə orada – İ.Q.) – deyə qeyd edir. Bəhlul Bəhcət belə hicrət edənlərin bir dəstəsində Sarıca Nəbinin – yəni Sarı Aşığın Qarabağa gəlişini göstərir. Yazının bizim üçün maraqlı olan hissəsini bütövlükdə burada veririk:

“Bu dəstə o zaman Səfəvi şahlarına tabe olan “Qarabağ” vilayətinə gəlmişdi. Bu vaxtlar ikinci Şah Abbasın hökmranlığı dövrü idi. Təriqətçilikdən zühura gəlmiş olan Səfəvi şahlarının bu mühacirlərə himayə edəcəkləri yəqin idi”. Bildiyimiz kimi, doğum və ölüm tarixi dəqiq bəlli olmayan Sarı Aşığın bir sıra yazılı ədəbiyyatda 16-cı əsrin sonları və 17-ci əsrin əvvəlləri arasında yaşadığı qeyd edilir. İkinci Şah Abbas isə mənbələrə görə 1633-cü ildə doğulmuş, 1642-ci ildən 1666-cı ilə qədər – yəni ölümünə qədər hakimiyyətdə olmuşdur. Belə olduğu halda 1642-ci ilə qədər ədəbiyyat tarixçiləri tərəfindən öldüyü güman edilən (17-ci əsrin əvvəlləri–İ.Q.) Aşıq Bəhlul Bəhcətin dediyi dəstədə necə gələ bilərdi. O biri yandan Qaraman oğulları dövləti 1250-ci ildən 1487-ci ilə qədər tarix səhnəsində olmuşdur. Sarı Aşıq isə təxminən yüz il ondan sonranın ədəbi hadisəsidir. Göründüyü kimi, Bəhlul Bəhcətin Salman Mümtaz haqqında dediyi – “Bayatı şairi Aşıq hər kəsdən çox Salman Mümtaz tərəfindən **qat-qarış** bir hala salınmışdır” – fikrini onun özünə də aid etmək olar.

Başqa bayatısına görə isə Aşığı:

*Mən Aşıq, ağ zindəyəm,*
*Aləmin ağzindəyəm.*
*Yurdum Qaradağlıdır,*
*Məzməzək ağzındəyəm.*

Qaradağdan (Cənubi Azərbaycandan) olduğunu iddia edirlər. Hərçənd bu bayatının üçüncü misrasının mənbələrdə *"Əslim Qarabağlıdı"* versiyası da ("Azərbaycan klassik ədəbiyyatı kitabxanası", Bakı, "Elm" nəşriyyatı, 1988, altıncı cild, səh.363) məlumdur. Burada onu da qeyd edək ki, Laçında Güləbird kəndinin yaxınlığında Qaradağlı kəndi olmuş və xarabalıqları qalmışdır. Sarı Aşıq cinas ustadı kimi tanınır və hansı sözdən cinas yaratmaq mümkünsə, onlardan istifadə edib. Bu fikri həm onun bizə gəlib çatan şeirlərinə, həm də bayatılarına (yuxarıda misal gətirilən hər iki bayatı cinas qafiyəlidir) şamil etmək mümkündür. Əgər Aşığın haradan olduğunu bayatıları ilə müəyyən etmək düzgün olsaydı, onda, aşağıdakı bayatısına görə

*Mən Aşığam, yəməni,*
*Sərraf tanır yəməni.*
*Pərişanlıq halında,*
*Ya zülfün gör, ya məni.*

Aşığı Yəməndən (bayatının birinci misrasının mənası Yəməndən olan adam deməkdir), digər bayatısına görə isə Təklə tayfasından hesab etmək olar.

*Mən Aşıq, Təklədənəm,*
*Tək evi təklədənəm.*
*Tərlanın cürəsiyəm*
*Sonalar təklədənəm.*

Əlbəttə, belə yanaşma səhvdir. Yuxarıda dediyimiz kimi Aşıq cinasa yatan yer və tayfa adlarından bayatılarında ustalıqla istifadə edib. Bununla onun haradan olduğunu müəyyənləşdirmək düzgün olmazdı. Bizə görə Aşıq Həkəri çayı boyunca yerləşən

kəndlərin birindəndir. Bunu kitabda yer alan rəvayətlər də təsdiq edir (rəvayətdə Aşığın Maqsudludan olduğu bildirilir). Eyni zamanda Aşığın şeirlərinin diliylə – yəni şivəsiylə – bu gün Laçının Bağırbəyli camaatının və eləcə də Laçın şəhərindən Qubadlıya qədər ərazidə – Həkəri çayının sol sahilində yerləşən kəndlərin camaatının danışdığı şivə *(“Yol düşdü bu sərayə”, “Mən Aşıq, kəs ərayı”, “Yaz gələ qar açılə”, “Səndən dərman gəlməsə, Məndən dərd azalımı?!”)* arasında çox yaxınlıq var və bu da onun Zəngəzurdan olduğunun sübutudur. Aşıq aşağıdakı bayatısıyla özünün ünvanını dəqiq göstərir:

*Mən Aşıq, ağ zindəyəm,*
*Aləmin ağzindəyəm.*
*Əslim Qarabağlıdır,*
*Məzməzək ağzındəyəm.*

Yəni, Qarabağın Məzməzək kəndi tərəfdə məni xəbər alsanız yerimi sizə göstərərlər.

Ədəbiyyat hər şeydən əvvəl, dilə xidmət faktorudur. Kim ki ana dilinə dərindən bələd olub o dərinlikdən bəhrələnərək əsərlər yazırsa, onun xalqına, ana dilinə xidməti əvəzsizdir. Bu meyarla yanaşsaq, Azərbaycan söz mülkünün, söz səltənətinin padşahı Füzulidirsə, sözsüz ki, o səltənətin vəziri Sarı Aşıqdı.

Qədim memarlar məscid minarələrini necə dəqiqliklə tikib bu gün bizi heyrətləndirirsə, Aşıq da bayatılarında həmin memar dəqiqliyiylə bayatılar yazıb. Katiblər tərəfindən bu günümüzə dürüst çatdırılan bayatılarının hamısında Aşıq minarə işi görmüş, demək olar ki, bütün yaradıcılığı boyunca oradan aşağı enməmişdir.

Sarı Aşığın bayatıları spirt lampasından alınan alov kimi təmizdir. Onun bayatılarıyla Yapon hokkuları kimi dünyanı fəth etmək olardı. Əgər insan hisslərini rənglə bir-birindən ayırmaq mümkün olsaydı, onda aşağıdakı bayatıda insan hisslərinin (oxu-rənglərin) bir-birinə necə qarışdığını gözlə görə bilərdik:

*Sədaqi tər, oxu tər,*
*Sədaq saxlar oxu tər.*
*Atma, müjgan oxunu,*
*Qəm tünlükdür, ox itər.*

Bu bayatıda aşiqin öz canı hayına qalması hissiylə (qəm tünlükdü – bu bir rəng), məşuqunun canı hayına qalması (məşuqun oxu itə bilər – bu da ikinci rəng) hissi gözlənilmədən bir-birinə qarışır. Və dərhal oxucunu heyrət hissi bürüyür. Aşığı oxuduqca doğma dilə heyran olursan, ona yenidən vurulursan. Çünki Aşıq dilimizin hər qatında və hər rəngində qələm çalıb. Bu bayatıları oxuyanda adama elə gəlir ki, Aşıq dili yəhərli-yüyənli kəhər at kimi sağa-sola səyridir. O, dili nar kimi sıxıb şirəsini çıxardan "zalım" şairlərimizdəndir. Əgər mən rəssam olsaydım, Sarı Aşığın şəklini mücərrəd olsa da, tabloya belə köçürərdim – yüzlərlə rəngin bir yerdə düyün vurulması.

Aşığın hədəsi də gözəldir:

*Durnanın təki yerdə,*
*Boynunu bükü yerdə.*
*Ölsün qurtarsın Aşıq,*
*Qalsın qəm yükü yerdə.*

Mən ölməyə hazıram amma, çiynimdəki qəm yükünü götürən olacaqmı?!

Dörd misralıq bayatının verdiyi imkan daxilində sevgidə belə təftiş aparmaq hər oğula qismət olan iş deyil:

*Bu bağın bax isi var,*
*Qönçəsi, nərkisi var.*
*Gül dəftərin tökübdür,*
*Bülbülün baqisi var.*

Bu bayatıdan alınan informasiyanı dilimizə çevirsək belə bir mənzərə alınır. Gül sevgilisinin davranışı haqqında qeydlər apardığı dəftərini açıb xeyli vaxtı ondan aralı gəzən bülbülə deyir ki, filan vaxt filan gülə qondun, filan vaxt filan gülə… İndi mənə hesabat – cavab ver.

Vaxtilə S.Mümtazın tərtib etdiyi kitabdakı bayatıları oxuduqca Aşığın dilinə və sözü yerli-yerində işlətmək qüdrətinə heyrət etdim. Təxminən buna bənzər hissləri Samət Əlizadənin hazırladığı "Oğuznamə" (Bakı. Yazıçı, 1987) kitabını oxuyarkən keçirmişdim. Hər iki kitabın bir üstünlüyü var – az söz işlətməklə böyük məna vermək.

Sarı Aşığın bayatı və şeirlərindəki yer adlarını xəritədə axtarsaq böyük bir ərazini əhatə etdiyinin şahidi olarıq. Çin, Hindistan, Şərqi Türkistan, Ərəbistan, İran, Turan və bir çox yerlərin adına onun şeirlərində rast gəlmək olar. Aşıq o yerlərin adını bayatılarında bildiyi üçün söz gəlişi çəkmir. O yerlər tarixdə necə tanınırsa, o şəkildə oxucuya məlumat verir. Məsələn: *Paşa gəzər Bağdadı* – deyəndə oxucuya aydın olur ki, bayatı yazılan dövrdə Bağdadda türk paşası hakim idi. Zaman və məkan məvhumu burada öz yerini tutur. Başqa bir misal: *Qurban Minayə gələ*. Müsəlmanların Mina dağına qurban aparmaları haqqında məlumat bu misrada özünü göstərir. Bu mənada "Yetər" şeirinin axırıncı beytində konkret tarixi hadisədən bəhs edilir:

*Xeybərin üstünə xişmə varanda,*
*Zülfiqar əsərsə, hərayə yetər.*

Burada erkən İslam tarixinin mühüm döyüşlərindən birinə işarə olunur. 628-ci ildə Mədinə yaxınlığındakı Xeybər qalasına hücum etmiş müsəlman ordusu sonda Həzrət Əlinin köməyi ilə qalanı fəth etmişdir.

Eyni zamanda Aşıq oxucusunu Kərkükdən (Məndil), Qəzvindən, Zəngandan tutmuş Qazağa, Balakənə, Şəkiyə, Qəbələyə, Şirvana kimi o tay-bu tay Azərbaycanda qarış-qarış gəzdirir. Doğma yurdu Zəngəzurun (Qarabağın) isə bir çox kəndlərinin adını bayatılarında çəkir. Hətta, bayatılarda Qarabağda o vaxt mövcud olan, bu gün adları qalmayan Duyran və Dızaq kimi kəndlər var ki, biz o kəndlərin adlarına "Qarabağnamələr"də (Bakı, Yazıçı, 1989) rast gəlirik.

Aşıq yaradıcılığıyla dərindən tanış olan oxucuda belə bir qənaət hasil olur – o, öz dövrünün oxumuş, savadlı şəxsiyyətlərindən biri olub. Aşağıdakı bayatısı onun təsəvvüfü (sufizmi) dərindən bildiyinə sübutdur:

*Qarşıda səndə sən bil,*
*Sən oxu səndə sən bil.*
*Gedər oldum, sevdiyim,*
*Can qaldı səndə, sən bil.*

Sarı Aşığın şeir və bayatılarında müsəlman dünyasının böyük sufi alimi Mənsur Həllacın adından bir obraz kimi istifadə etməsi də Sufizmi dərindən bilməsinin bir daha təsdiqidir:

*Əsillər əsil andı,*
*Əfilər asi ilandı.*

*Həllacındır bu Aşıq,*
*Telindən asılandır.*

… və yaxud "Gəlmədin" şeirində

*Sənsiz mənim ağlamaqdı munisim,*
*Mənsur kimi qaldım darda gəlmədin.*

Kitabda yer alan tapmacaların bir qisminin cavabı bilinmir. Bir qisminin isə cavabını "Yaxşı və Aşıq" dastanından ("Azərbaycan xalq dastanları", Bakı,Yazıçı, 1983) götürmüşük. Cavabı dastandan götürülən tapmacalar bunlardı: №1; №2; №4; №7. Ümumilikdə dastanda Aşığın 5 tapmaca-bağlamasından istifadə edilib. Bir tapmacanın cavabı dastanda səhvdir. Tərtib etdiyimiz kitabda 5№-ə altında verilən tapmaca belədir:

*Mən Aşığam, əmər hey,*
*İncə beldə kəmər hey.*
*Göydə bir madyan gördüm,*
*Altda qulun əmər hey.*

Dastanda deyilir ki, bir gəlin Aşıqdan itən atını xəbər alır, Aşıq da ona yuxarıdakı tapmacayla cavab verir. Guya gəlin də meşənin arasında olan göy otlağa gedib atını qulunuyla tapır. Əslində isə tapmaca oxucuya başqa mətləb qandırır. "Laçın folkloru" kitabını yazarkən anamdan bir tapmaca eşitdim. Tapmaca belədi:

*Həmər ha həmər,*
*Şah belində kəmər,*
*Ayaqları yerdə,*
*Göydə qulun əmər.*

Bu tapmacanın cavabını anam belə dedi – *Göy qurşağı, yağış, şimşək, torpaq* ("Laçın folkloru" Bakı, Adiloğlu nəşriyyatı, 2009, səh.187). Göründüyü kimi hər iki tapmaca cüzi fərqlə bir-birinin təkrarıdı. Deməк, Aşıq eldə olan tapmacanı bağlama-bayatı şəklinə salıb. Daha dastandakı bəsit cavab Aşığın ustalığıyla düz gəlməzdi. Bundan başqa 3 №-li tapmacanın açması bizim tərəfimizdən tapılıb. 7 №-li tapmaca-bayatı cavabıyla birlikdə kitabdakı "Rəvayətlər"dən götürülüb. Beləliklə kitabda yer alan 14 tapmacanın yeddisinin açması var. Axtarışlarımıza (hətta Təbriz aşıqlarına da müraciət etdik) baxmayaraq yerdə qalan 7 tapmaca kitabda "Cavabsız tapmacalar" kimi yer aldı. Ümid edirik ki, gələcəkdə bu tapmacaların açması həm ədəbiyyat, həm də İslamı dərindən bilən ilahiyyat alimlərimiz tərəfindən tapılacaqdır. Bizim qənaətimizə görə cavabsız tapmacalar daha çox dinlə bağlıdır. Onu da qeyd edək ki, 14 № altında cavabı bilinməyən tapmaca Bəhlul Bəhcətin haqqında danışdığımız kitabından götürülüb.

Bir qədər də mənbələr haqqında. 2010-cu ildə Tehrana getmişdim. Dostlardan biri dedi ki, Kərəcdə (Tehranın 60 kilometrliyində şəhər) kitabım çap olunur. Gedək bir nəşriyyatın rəhbəriylə görüşək. Təklif ürəyimdən oldu, çünki həmin mətbəə ("Pınar" yayım evi) 2009-cu ildə mənim "Əsir dağlar" adlı şeirlər kitabımı çap etmişdi. Mətbəədə kitablar arasında ərəb əlifbasıyla Azərbaycan dilində çap olunan "Sarı Aşıq" kitabı gözümə dəydi. Kitabı əlimə götürüb maraqla vərəqlədiyimi görən mətbəənin sahibəsi, şairə Şərifə Cəfəri dedi, İlham bəy, o kitabı sənə hədiyyə edirəm. O anda elə bil, Şərifə xanım mənə bir at bağışladı. Çox sevindim. Məlum oldu ki, kitab 2007-ci ildə Təbrizdə "Əxtər" nəşriyyatında çap olunub. Kitabdakı bayatıları toplayıb araya-ərsəyə gətirən isə "Alışıq" təxəllüslü Məhəmməd İbadi Qaraxanlıdır. Mən o vaxta kimi Sarı Aşığın kitabını ancaq S.Mümtazın 1935-ci ildə çap olunmuş kitabı əsasında tərtib et-

mişdim. Təbrizdə çap olan kitabı oxuyanda gördüm ki, o kitabda yer almış 180-ə yaxın bayatı 1935-ci ildə Bakıda nəşr olunmuş kitabda yoxdur. Kitabı yenidən işlədim. Bu zaman daha çox mənbəyə müraciət etdim. Hansı ki, hər bir mənbə haqqında kitabın "Qaynaqlar" bölməsində məlumat yer alıb.

Bu kitabın hazırlanmasında istifadə olunan mənbələrin əldə olunma ardıcıllığı belədir:

1. "Sarı Aşıq və boyatıları", Bakı, "Azərnəşr", 1935, tərtibçi Salman Mümtaz;

2. "Azərbaycan ədəbiyyatının qaynaqları", Bakı, "Yazıçı", 1986, müəllifi Salman Mümtaz;

3. "Azərbaycan xalq dastanları", Bakı, "Yazıçı", 1983;

4. "Zəngəzur", Bakı, "Nurlar", 2005, müəllifi Musa Urud;

5. "Sarı Aşıq", Toplayan Məhəmməd İbadi Qaraxanlı (Alışıq), Təbriz, "Əxtər" nəşriyyatı, 1386 (2007);

6. "Azərbaycan Aşıq şeirindən seçmələr", Bakı, "Şərq-Qərb", 2005;

7. "Sarı Aşığın bayatıları", Bakı, "Səda", 2006, toplayanı Bəhlul Bəhcət;

Burada onu bildirməliyəm ki, bu kitabda toplanan bayatılar əldə olunan mənbələrin ardıcıllığı üzrə yer alıb. Tutaq ki, Təbrizdə nəşr olunan kitabdan Salman Mümtazın kitabında olmayan bayatılar götürülüb. Eləcə də Bəhlul Bəhcətin kitabında çap olunan 349 bayatıdan bu kitabda 129-u yer alıb. Yerdə qalan bayatıları ondan əvvəlki mənbələrdən əldə etdiyimizə görə təbii ki, kitabda verə bilməzdik. Kitabda Bəhlul Bəhcətin kitabından götürdüyümüz 3 bayatının məna anlaşıqlığında çətinlik çəksək də onları da kitaba saldıq. Həmin bayatılar 124-15; 595-23 və 609-3 №-lər ilə kitabda qeyd edilmişdir.

Salman Mümtazın "Sarı Aşıq və boyatıları" kitabı ilə tanış olanlar bilir ki, kitabda "Mürəbbə və təcnislər" bölməsində Aşı-

ğa məxsus 6 (altı) qoşma və 1 (bir) təcnis var. Biz mənbələrə baxarkən, Aşığın bir şeirinin də izinə düşdük. Belə ki, Paşa Əfəndiyevin "Azərbaycan şifahi xalq ədəbiyyatı" (Bakı, "Maarif" nəşriyyatı, 1984) kitabındakı "Sarı Aşıq" məqaləsində (səh.191) Aşığın bir şeirindən bir bənd misal gətirilir. Bəndi oxuyanda məlum oldu ki, bu şeir Aşığın bizə məlum olmayan şeiridi. Həmin bəndin üzərinə işarə qoyulub və səhifənin ayağında mənbə göstərilib: S.Mümtaz. El şairləri, Azərnəşr, 1935, səh, 446. Bu yolla "Əyandı qərəz" şeiri Aşığın "Gül dəftəri" kitabında öz yerini aldı.

Toplayıb tərtib etdiyim bu kitabda mən daha çox cinasların qurulmasına diqqət vermişəm.

S.Mümtazın tərtib etdiyi kitabın bir üstünlüyü ondan ibarətdir ki, o bayatıları birinci misranın son hərfinə görə əlifba sırası ilə düzmüş və onları nömrələmişdir. Burada qeyd edək ki, sonrakı nəşrlərdə bu uğurlu qayda gözlənilməmişdir. Biz kitabda bu prinsipi qoruduq.

S.Mümtazın tərtib etdiyi kitabda bayatıların bəziləri eyni ilə bir-birinin təkrarı (məs; 228 və 268; 293 və 346), bəziləri isə sözlərin bu və ya digər şəkildə qismən dəyişdirilməsi şəklində bir-birinin təkrarıdır (məs; 86, 145, 158, 241, 244, 246, 250 və s.).

Burada onu da qeyd edək ki, S.Mümtaz körpəlikdən Azərbaycanı tərk etdiyindən müəyyən mənada canlı xalq danışıq dilindən uzaq düşməyi səbəbincə bəzi bayatılarda cinası qurmaqda çətinlik çəkmiş, amma, səsləri olduğu kimi saxlamışdır. Onu da nəzərə almaq lazımdır ki, ərəb əlifbasında hərflər iki cür və dörd cür yazılmaqla iki qrupa bölündüyündən cinası təşkil edən sözün və ya sözlərin tərkibində iki cür yazılan hərf olduqda (yəni həmin hərflərdən sonra gələn hərflər onlarla birləşə bilmir) söz istər-istəməz əlifbanın qanununa görə qırılır. Cinasa nabələd

adamın bu zaman çətinlik çəkməsi bizə görə təbiidir. Ancaq bir qədər diqqətlə nəzərdən keçirdikdə öz ana dilimizdə olan cinasla yazılan bayatıları dərhal qurmaq olur. Misal üçün həmin kitabda 153-cü nömrə ilə verilmiş bayatıya fikir verək:

*Mən Aşıq, bağça pəri,*
*Bağbandı bağça pəri,*
*Qaşın bağ, gözün bağban,*
*Kipriyin bağça Pəri.*

Əslində isə bayatı belədir:

*Mən Aşıq, bağça Pəri,*
*Bağbandı bağça pəri,*
*Qaşın bağ, gözün bağban,*
*Kipriyin bağ çəpəri.*

Aşığın müəyyən mənada bizim üçün çətin anlaşılan bayatıları əsasən ərəb-fars tərkibli sözlər ilə qurulan cinas bayatılarıdır. Onların isə bir çoxunu "Ərəb və fars sözləri lüğəti" (Bakı. Yazıçı, 1985) kitabına baxmaqla sözlərin bayatıdakı fikrə, məzmuna xidmət edən variantını saxlamaqla biz Aşıq bayatılarının ilkinliyini qorumuş olarıq. Əksinə, hər hansı bir sözü dəyişsək və ya adi vergülü yersiz tərpətsək xəta etmiş olarıq. Bu cəhətdən "Cinaslar" (Bakı. Yazıçı, 1985) kitabına nəzər salanda görürük ki, Sarı Aşığın bu kitaba salınmış 56 bayatısında cinasların demək olar ki, bir çoxu səhv qurulub. Fikrimizə söykək üçün S.Mümtazın tərtib etdiyi kitabdan 76 nömrəli bayatıya baxaq:

*Aşığam, bir dəmarə,*
*Neştər vur bir dəmarə,*

*Məni zülfün vurubdur,*
*Vurdurma bir də marə.*

"Cinaslar" kitabında həmin bayatının birinci misrası belədir:

*"Aşığı bir dəm ara,..."*

Deməliyik ki, hər iki kitabda bayatının birinci misrası səhvdir. Misra belə olmalıdır:

*Aşığam, bir dəm arə...*

Yuxarıda adı çəkilən lüğətdə "dəm" sözünün bir neçə mənası var ki, bunlardan da biri ərəbcə qan deməkdir. **Aşıq deyir ki, qanıma baxmaq üçün damarıma neştər vursan görəcəksən ki, məni zülfün vurubdur, daha ilana vurdurmağa ehtiyac yoxdur.** İzahatımız kiməsə baş ağrısı kimi görünə bilər. Ancaq, Aşığın bayatılarının hər biri söz xəzinəmizdə əvəzsiz inci olduğundan onlarla necə gəldi davranmaq olmaz. Hər iki kitabdakı səhvlər arasındakı fərqə baxaq: S.Mümtaz cinası – "dəm" və "arə"-ni bir yerdə yazsa da, misraya heç nə əlavə etməyib, nə də heç nə əskiltməyib, yəni səs qorunub. Ancaq "Cinaslar" kitabındakı "Aşığı" sözü misranın mənasını tamamilə özgələşdirir, kitabın özündəki qaydədən "...forma ilə məzmun vəhdəti..." (Cinaslar, səh.5) uzaqlaşır. Bundan başqa, Sarı Aşığın bayatıları bəzi kitablara folklor nümunəsi kimi daxil edilmişdir. "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" (Bakı. "Elm" nəşriyyatı, 1988) kitabında folklor nümunəsi kimi verilmiş bayatıların (səh. 480-489) təxminən 10-u cüzi dəyişikliklərlə Aşığa məxsusdur ki, ayıq oxucu bunu dərhal hiss edir. Burada onu da qeyd edim ki, Aşığın bir

çox bayatıları mahnı mətni kimi müğənnilər tərəfindən oxunsa da, onun adının müəllif kimi çəkilməməsi adama yer eyləyir.

Kitabda əski imlamızla getmiş bir çox sözləri müasir imlamızla əvəzlədik. Məsələn: kibi-kimi; aşıqam-aşığam; yoq-yox; gönül-könül; oqur-oxur; səbah-sabah; baqmaq-baxmaq və s. Bununla bərabər Aşıq o sözlərlə ki, cinas yaradıb və o sözlər əski imlamızdadır biz o sözlərə toxunmadıq.

Əziz oxucu, mən bu kitaba ürək qoydum. Təxminən 15 il ərzində zaman-zaman bu kitaba döndüm. İstədim ki, Sarı Aşığın adına layiq bir kitab araya-ərsəyə gətirim. Eyni zamanda çalışdım ki, müxtəlif kitablara səpələnmiş Sarı Aşıq yaradıcılığını bir kitaba yığım. Sarı Aşıq sələfdir, bu kitab bizim xələflik borcumuzdur. Əgər bir iş görə bildiksə, bu Haqq Aşığının halal haqqıdır. Oxuyub zövq almaq da sizin oxucu haqqınızdır.

**İlham Qəhrəman**

# *MÜRƏBBƏ VƏ TƏCNİSLƏR*

## A YAXŞI

Şikar[1] edib tutdum bir şahi tərlan
Sən etdin əqlimi zayıl, a Yaxşı.
Səni sevən keçər canü-sərindən,
Olur camalına mayıl, a Yaxşı.

Söhbətində olan istər sazını,
Mən çəkərəm hər dəm sənin nazını,
Şəmsü-qəmər[2] kimi görkəz yüzüni,
Gün kimi aləmə yayıl, a Yaxşı.

Qara qaşın oxdur, kiprigin almaz,
Haramdan oxlasan yaram sağalmaz,
Gedər bu gözəllik sənə də qalmaz,
Əgərçi sərxoşsan ayıl, a Yaxşı.

Məni sənə Aşıq etdi yaradan,
Səg[3] rəqibi Haqq götürsün aradan,
İstəyirsən bir xəbər tut Sarıdan,
Yollarında mənəm sayıl,[4] a Yaxşı.

---

[1] ov
[2] ay və gün
[3] it
[4] dilənçi

## GƏLMƏDİN

Vədə verib mənə, gəlləm demişdin
Gözüm qaldı intizarda gəlmədin,
Sənsiz mənim ağlamaqdı munisim,[5]
Mənsur kimi qaldım darda, gəlmədin.

Əydi qəddim firqətinin məlalı,[6]
Necə xəm[7] eyləmiş qaşın hilalı,
Saldı məni damə[8] zülfün xəyalı,
Məni qoydun əşkibarda,[9] gəlmədin.

Mən elə Aşığam, ey vədə xilaf,
Nizəyi-ahımdan çərx olar şikaf,[10]
Belə olur, ay bimürvət, nainsaf,
Getdi əldən ixtiyar da, gəlmədin.

---

[5] burada həyanım

[6] ayrılıq sıxıntısı

[7] bükülmüş, əyilmiş

[8] tor, tələ, cələ

[9] gözyaşı axıdan

[10] yarıq, çat, çatlaq

## GÖRSƏYDİM

Gedərdi sinəmdən bu daği-həsrət,
Əgər sənin camalını görsəydim,
Əyilibən qəddim dönməzdi yaya,
İki əbru[11] hilalını görsəydim.

Hicranın əlindən yetmişəm cana,
Nə deyim dərdimi? Gəlməz bəyana!
Baxmanam cənnətdə hurü-qılmana,
Bircə ləhzə visalını görsəydim.

Dolanım başına qibləyi-hacət,[12]
Qurban olum sənə, ey sərvü qamət,
Qumru kimi bağlayardım itaət,
Sənin nəzik nəhalını[13] görsəydim.

Kəbəyi-kuyundur Aşığa merac,
Dərgahi-vəslinə tapılmaz əlac,
Səhrayi-Xütəndən[14] alırdım xərac,
Süzgün çəşmi-qəzalını[15] görsəydim.

---

[11] qaş

[12] ehtiyac zamanı sığınılan yer və ya adam, ümid yeri

[13] fidan, körpə ağac

[14] Şərqi Türküstan

[15] ceyran, ahu

## GÖZLƏRİN

Əyibdi qəddimi qaşların tağı,
Qəsd eləyib şirin cana gözlərin.
Bu qədər şux baxıb Aşıq öldürmə,
Heyifdi batmasın qana gözlərin.

Camalın şöləsi günəşdən əla,
Səni görən necə olmaz mübtəla,
Qəmzeyi-cəlladın,[16] xədəngin[17] bəla,
Rəhm eləməz heç insana gözlərin.

Gözəllikdə sənsən bu gün yeganə,
Canım qurban olsun sən növcəvanə,
Yıxar Aşıq evin, eylər viranə,
Dolananda hər bir yana gözlərin.

---

[16] öldürücü qəmzən

[17] ox

## VAR

Gəldi qasid, dedi mən biqərarə,
Şuxi-dilrübanın iztirabı var.
Şöləyi-mah Sürəyyadan keçibdi,
Gecə nə aramı, nə də xabı[18] var.

Bu xəbər ki, yetdi mən dili-zarə,
Xalqdan mən özümü çəkdim kənarə,
Ağlayıb yalvardım pərvərdigarə,
Dərdimin nə həddi, nə hesabı var.

Nə xoş çəkib səni nəqqaşi-əzəl,
Qəza şövkətinə verməsin xələl,
Gözəllikdə sənsən şəxsi-bibədəl,[19]
Hərçəndi fələkin afitabı[20] var.

Xəm qılıb qamətin fələk aşikar,
Röyət-cəmalına[21] çəkər intizar.
Dolanır başına hər leylü-nahar,[22]
Əlində təsəddüq[23] mahitabı var.

Aşıq, sirrin xalqa bir dastan oldu,
Günbəgün əhvalın pərişan oldu,
Sağlığına içdiklərin qan oldu,
Nə qədər saqinin meyi-nabi[24] var.

---

[18] yuxu

[19] əvəzi olmayan

[20] günəş

[21] burada: gözəl üzünü görmək üçün fələyin beli bükülmüşdür

[22] gecə-gündüz

[23] sədəqə, qurbanlıq

[24] təmiz şərab

## YETİŞDİ

Bir namə yazmışdı gözəllər şahı,
Gəldi mən tək mübtəlaya yetişdi,
Guşəyi-külahım[25] fəxri-namədən,
Çərxə dəyib Məsihaya yetişdi.

Şəhbazi[26]- aləmsən istərəm səni,
Allahı sevərsən unutma məni,
Guya ki, Yusifin gül pirəhəni,[27]
Gəldi Yəqub binəvaya yetişdi.

Sən qərib Aşığın qibləgahısan,
Məlahət mülkünün padışahısan,
Aşiqi-sadiqin sən pənahısan,
Səadətin Sürəyyaya[28] yetişdi.

---

[25] papağımın ucu, küncü

[26] tərlan, şahin (qızılquş)

[27] köynək

[28] yeddiqardaş, Ülkər (ulduz)

## YETƏR

*(təcnis)*

Sallanıban Yaxşı çıxdı qəsrdən,[29]
Hüsnünün zəkatı[30] hər Ayə yetər.
Cəbrayil gətirdi ərşdən[31] nidanı,
Mürsəl Məhəmmədə hər ayə yetər.

De, saqi, məclisə de, məzəm dürdi,[32]
De, xəstədi, şəfa demə zəm[33] dərdi,
Təbib bilir dərdim deməzəm dərdi,
Sən dərman dediyin hərayə yetər.

Tifl[34] ağlar şir[35] üçün viran[36] əməndə,
Həyy[37] olur ləbindən viran[38] əməndə,
Abadan səndədir, viranə məndə,
Bayqular çığrışır hərayə yetər.

---

[29] saray, köşk

[30] kasıblara verilən dini vergi

[31] göy, səma

[32] şərab, torta

[33] soyuqluq

[34] uşaq, cocuq

[35] süd

[36] tələsik, acgözlüklə

[37] diri, canlı

[38] məhv olmuş, ölmüş

Mən o yarın fitnə-alını billəm,
Yaşıl üstən geyən alını billəm,
Allahü-Mühəmməd-Alını billəm,
Daim müşkül günü hərayə yetər.

Aşıq, məhşər[39] oldu xişmə[40] varanda,
Hər gəlib keçənlər xişmə[41] varanda,
Xeybərin[42] üstünə xişmə[43] varanda,
Zülfiqar[44] əsərsə, hərayə yetər.

---

[39] çaxnaşma, mərəkə, vəlvələ

[40] acıq, qəzəb, hiddət

[41] xışmalamaq, ovuclamaq

[42] Ərəbistanda qala

[43] burada: hücum

[44] İmam Əlinin məşhur qılıncı

## ƏYANDI QƏRƏZ

*(təcnis)*

Gözüm görcək səni istər kam ala,
Bürqəin[45] üzündən dağıdır Yaxşı.
Fələk qoymaz kimsə yetsin kamala,
Baxma, bu kəcrəvin dağıdır Yaxşı,
Ərzi-halım sənə əyandı qərəz.

Aşiq olub məşuqinə yanannar,[46]
Yaxmagilən dərdi-dilim yanan nar,[47]
Dedi nədir sədrin[48] üstə yanan nar,
Dedim sən gözəlin dağıdır, Yaxşı,
İçərəm inanmaz əyandı qərəz.

Ariflər mənini gördü dərində,[49]
Xəstə olan şəfa bular dərində,[50]
Nazlı canan məni gördü dərində,[51]
Dedi getməgilən dağıdır, Yaxşı,
Bildin ki, istəməz əyandı, qərəz.

---

[45] bürqə – üz örtüyü, rübənd, niqab

[46] aşıq olub məşuquna yananlar

[47] nar – od, atəş

[48] sədr – döş, sinə, ürək, qəlb, könül

[49] dərinlik mənasında

[50] tər mənasında

[51] qapı mənasında

Çeşmim yaşın sonalara göl deyim,
Bicəhət mən nazlı yara gül deyim,[52]
Mən istərdim pünhan yerdə gül deyim,
Ol nədir dişintək dağıdır, Yaxşı,[53]
"Lam"ü "bey"[54] altından əyandı, qərəz.

Şad olubdur bilib aləm güldigin,
Camalın görməyə aləm gəldigin,[55]
Düş avanda açıl əlim gəldigin,[56]
Olmaz bu mislintək dağıdır, Yaxşı,
Halallıq seyrinə əyandı qərəz.

---

[52] bicəhət – səbəbsiz, bihudə; misranın mənası güldən gözəl olduğu halda, yara necə gül deyim

[53] necə dürdi dişlərin dağıtmaqdadır

[54] "lam"ü bey" – ləb, dodaq

[55] Camalın görməyə aləm gəlir

[56] S.Mümtaz misranı belə şərh edir – Əlim-gəl-digin. Əvanda düşüb açıl. Ey Əlim, gəl ki, bu dügün – dügin açılsın. Əlim gəlməyir, əqlim gətirməyir, əlim gəlmədi təbiri indi də vardır

# *BAYATILAR*

## --A--

1
Mən Aşıq, gözəl alma,
Yeməyə gözəl alma,
Çirkin al, əsil olsun,
Bədəsil gözəl, alma.

2
Mən Aşığam, yaz ağla,
Həm qış ağla, yaz ağla,
Bir-bir deyim dərdimi,
Sən kağıza yaz, ağla.

3
Mən Aşıq, gözdə qara,
Sürmədən göz də qara,
Yar yolun gözləməkdən,
Qalmadı gözdə qara.

4
Buxarıya od qala,
Odun gətir, od qala,
Elə yandır Aşığı,
Məhşərəcən od qala.

5
Mən Aşıq, gül məkanda,
Gül bitmiş gülməkanda,
Səni gördüm mən güldüm,
Mən handa, gülmək handa?

6
Aşıq, naçar ağlama,
Gündür keçər, ağlama,
Qapın bağlayan fələk,
Bir gün açar, ağlama.

7
Mən Aşıq, öz aramda,
Yazaram öz aramda,
Bir xəlvətcə sözüm var,
Sən ilən öz aramda.

8
Mən Aşıq, daş bulağa,
Sən də gəl, baş bulağa,
İkimiz həmdəm olaq,
Tökək qan-yaş bulağa.

9
Aşıq, qarabaqara,
Xalın qarabaqara,
Yarın itirmiş Aşıq,
Gəzər qarabaqara.

10
Mən Aşıq, elə ağla,
Yağış tək elə ağla,
Dərdlilər yanına get,
De, dərdin elə, ağla.

11
Mən Aşığam, solumda,
Sağımda yox, solumda,
Hər bəlalar çəkmişdim,
Bu da varmış yolumda.

12
Mən Aşıq, yar arxına,
Su gəlir yar arxına,
Nəzikdir barmaqların,
Qorxuram yarar xına.

13
Evləri ali şanda,
Şam yanar alışanda,
Kəbəni görər Aşıq,
Göz-gözə alışanda.

14
Mən Aşıq, gün aşanda,
Dikəlmiş gün aşanda,
Aşıq ki, rəy danışmaz,
Sən handa, günəş handa?!

15
Mən Aşığam, nə qayda,
Nə gələ, nə qayıda.
Könül, Allah kərimdir,
Qalmısan nə qayda.

16
Mən Aşıq, Bağdad ara,
Tök zülfün bağda dara,
Vəfalı yardan ötrü,
Rumu gəz, Bağdad ara.

17
Mən Aşığam, o yaza,
Bulud neylər o yaza?!
Bir molla gərəkdi ki,
Mən dedikcə o yaza.

18
Mən Aşıq, qəlbi nara,
Ay doğar qəlbi nara,
Dil ilən dost olanın,
İş ilən qəlbin ara.

19
Mən Aşığam, dağlara,
Duman çökmüş dağlara,
Dərdin Məcnun eləyib,
Məni salmış dağlara.

20
Mən Aşıq, bir canana,
Bircə gül, bircə nana,
Hər canana can vermə,
Versən ver bir canana.

21
Mən Aşıq, bax səmaya, *
Nər* kükrər baxsa maya.*
Zərrəcə üzün görsəm,
Namərdəm baxsam Aya.

22
Mən Aşıq, oda para,
Ay doğdu o da para,
Varmı bir odu sönmüş,
Canımdan od apara.

23
Mən Aşığam, dünyaya,
Oxun atdı dün yaya,
Qədrini bil cananın,
Bir də gəlməz dünyaya.

24
Mən Aşıq, Bağdad ara,
Zülfünü bağda dara,
Bülbülü güldən ötrü,
Çəkdilər bağda dara.

25
Aşığam, mən səyyada,
Torun qurmuş sayada. *(kölgədə)*
Gözdə, könüldə sənsən,
Düşərmi, kimsə yada.

---

* Qeyd: bu işarə ilə verilmiş sözlər üçün «Sözlüyə» bax

26
Mən Aşıq, maral yana,
Sən də gəl, Maralyana.
Necəsən bir ah çəkim,
Dağlarda maral yana.

27
Mən Aşığam, Gülxara,
Çiçəyin gülü xara.
Cəfanı bülbül çəkdi,
Tapşırdı gülü xara.

28
Mən Aşıq, məmə qana,
Yol düşdü Məməqana,
Sinən üstə kəs başım,
Qoy batsın məmə qana.

29
Mən Aşığam, Salyana,
Dara, zülfün sal yana,
Necəsən bir ah çəkim,
Kür quruya, sal yana.

30
Mən Aşığam, didara,*
Yu zülfünü, di dara
Həsrət qalan gözlərim,
Didar baxsa, didara.

31
Mən Aşığam, dil yara,
Bayqu meyli dil yara,
Ağlamaqdan gözlərim,
Sızlamaqdan dil yara.

32
Mən Aşığam, Xalxala,
Tər buxaqda xal-xala.
Can verib dost qazandım,
Qoyarammı xalx ala?!

33
Mən Aşıq, sal masada,*
Xoya var, Salmasa da.
Pünhan ağla, gözlərim,
Aləmə salma, səda.

34
Ay qaldı bu sabaha,
Sonralar bus, abi, ha,
Aşıq canan yanında,
Can ucuz, busə baha.

35
Aşığam, ol diyara,
Bayqu tək oldu yara,
Ağla, həsrət gözlərim,
Əl yetməz oldu yara.

36
Mən Aşıq, üzüm qara,
Yeməyə üzüm qara,
İstərəm yara varam,
Əlim boş, üzüm qara.

37
Mən Aşığam, az ala,
Qəddim döndü a zala.*
Görsəm günəş cəmalın,
Bəlkə, dərdim azala.

38
Aşıq dağ arasında,
Duman dağ arasında.
Şam kimi şölə çəkdim,
Yandım dağ arasında.

39
Aşığam, yaxşı qala,
Ocağı yaxşı qala.
İstərəm bu dünyada,
Pis ölə, Yaxşı qala.

40
Aşığın canı yara,
Qıyaram canı yara.
Tutun qoyun qəfəsə,
Göndərin canı yara.

41
Mən Aşıq, yaman bəla,
Qoy gəlsin yaman bəla.
Rəvadı Yaxşı ölə,
Yerində Yaman qala?!

42
Mən Aşıq, dal* dasına,*
Gün vurar daldasına.
Namərd aslan da olsa,
Sığınma daldasına.

43
Aşığam qızıl cığa,
Şəkiyə, Qızılcığa.
Bir tərlan itirmişəm,
Başında qızıl cığa.

44
Nal tökdürər dağ ata,
Hökmürandı dağ ata.
Aşıq Yaxşı yolunda,
Dırnaq ilən dağ ata.

45
Mən Aşığam, yaz bağda,
Al qələmi yaz bağda.
Yara mehman olaydım,
Qış otaqda, yaz bağda.

46
Mən Aşıq, gül alanda,
Gül bitər gülalanda.
Yarım yadıma düşər,
Əlimə gül alanda.

47
Gün düşüb dağda qara,
Ahımdan dağ da qara.
Yaxşın görünmür, Aşıq,
Hey axtar, dağ-dağ ara.

48
Mən Aşıq, bağrı qara,
Bir quş var bağrıqara.
Lalə ki al geyinib,
Onun da bağrı qara.

49
Mən Aşıq, yaxşı yara,
Yaxşıya yaxşı yara.
Yaxşı qəmzəsi vurmuş,
Sinəmə yaxşı yara.

50
Mən Aşığam, bu daşa,
Könül qəmlə budaşa.
Elə vur ki, Yamanı,
Kəlləsindən bud aşa.

51
Yaz gəldi, gəl bu dağa,
Bülbüləm gül budağa.
Qovar yorğun Aşığı
Yaxşının kəlbi* dağa.

52
Kəl qaşqa, kəlbin ala,
İyimi kəlbin ala.
Aşıq, naşıdır, nalbənd,
Dayanmır kəl bu nala.

53
Aşıq deyər yaz ağla,
Ya bayquşla, ya zağla.*
Bir-bir deyim dərdimi,
Sən kağıza yaz ağla.

54
Aşıq deyər yar qana,
Saldı məni yar qana.
Laçın qovmuş sonayam,
Sığınmışam yarqana.

55
Mən Aşıq, gülüstana,
Yar gəlir gülüstana.
Qorxuram yağış yağa,
Qoynunda gül islana.

56
Aşıq der – dəmdə maya,
Oxuram dəm-dəm ayə.
Hüsnün yada düşəndə,
Baxıram dəm-dəm Aya.

57
Qarşıda sincə maya,
Sincə nər, sincə maya.
Yar üçün kimsə, Aşıq,
Qoymadı səncə maya.

58
Mən Aşıq, nər divana,
Məndilə, nərdivana.
Əyyar* maya gözləri
Çəkdirər nər divana.

59
Aşıq burda az qala,
Buxarını az qala.
Şövqün üzümə düşdü,
Yıxılmışdım az qala.

60
Aşıq, dur ayaq ara,
Dan üzü Ay ağara.
Gördü Yaxşı camalın,
Düşübdür Aya qara.

61
Aşığın günü qara,
Qış saldı günü qara.
Yaxşıya günüdür qəm,
Yaxşı ağ, günü qara.

61-1
Həmdəmi yaxşı sına,
Qıyma ki, yaxşı sına.
Min bir yaxşı tay olmaz,
Aşığın Yaxşısına.

61-2
Aşığam, yaxşı yara,
Yar vurar yaxşı yara.
Zəncir salın boynuma,
Aparın Yaxşı yara.

61-3
Mən Aşıq, yaxşılığa,
Düşməsin Yaxşı lığa.
Güldə gül camalı var,
Yaxşıda yaxşı liqa.*

61-4
Ha saysana, saysana, *(say saymaq)*
Ömür yetdi saysana *(səksən yaş)*
Əcəli gözlər Aşıq,
Ha saysana-saysana. *(səksənmək, qorxmaq)*

61-5
Yol düşdü Bürün dağa,
Duman, gəl, bürün dağa,
Yaxşısın itirmiş Aşıq,
Salıbdır bir ün dağa.

61-6
At məni Gündağına,
Rəqibi gündə qına,
Yaxşı gəlsə Aşığın
Doğacaq gün dağına.

61-7
Dağların başı qara,
Döşü göy, başı qara.
Yardan üzüldün, Aşıq,
Yaş töküb başı qara.

61-8
Aşığam, yar yanınca,
Bayqular yar yanınca.
Kölgə misallı könlüm
Sürünür yar yanınca.

61-9
Qatarın gözəl, maya,
Gözəl nər, gözəl maya.
Bir ləhzə istər Aşıq
Yüzündən göz almaya. *(üzündən)*

61-10
Dirinin gözü Maza,*
Qane ol, gözüm, aza.
Qorxuram müjgan çalam
Yüzündən gözüm aza.

61-11
Aşığam, hamu qana, *(hamı anlaya)*
Sən də gəl ha Muqana.
Şanə bir muy üzmüşdür,
Düşübdür hamu qana.

61-12
Aşığam, Maralyana,
Arazdan Maralyana.
Şama* bir od düşübdü,
Qorxuram maral yana.

61-13
Yol düşdü Gorusa,
Üçtəpədən Gorusa.
Aşiqə cənnət olar
Dəm xanası gor isə.

61-14
Aşığam, barın caya,
Bağbana, Barıncaya.
Aləm Təbrizə möhtac,
Təbriz də Barıncaya.

61-15
Aşığam, Qarqucağa,
El düşə Qarqucağa.
Dolanım yar dövrünə *(dövrəsinə, başına)*
Necə ki, qarqu cağa. *(qarğu çəpəri yada sal)*

61-16
Aşığam, Mincivana,
Sən də gəl Mincivana.
Yüz ilin köhnə yarın
Verməm min cavana.

61-17
Yolumuz Çaxma qıya,
Su gedər Çaxma qıya.
Gözlərin doymaz, Aşıq,
İraqdan baxma qıya.

61-18
Aşığam, bəndə dada,
Ləbindən bəndə dada.
Allah, özün dada yet
Yetərmi bəndə dada?!

61-19
Aşığam, sevdasına,
Sinənin sevdasına.
Sən ki cəllad degilsən,
Qəbzən suda isinə.

61-20
Aşığam, bu damaqda,
Bu dildə, bu damaqda.
Nər maya sövdasında,
Lök qanqal budamaqda.

61-21
Çəpgənin* gülü xara,
Gey darayı* gülü xara,
Bülbülə xəbər ver, Aşıq,
Verdilər gülü xara.

61-22
Mən Aşığam, qar qara, *(mağara qaradı)*
Tərtərə, ha Qarqara.
Tez yetiş, Ağa Balım,
Can yetib ha qarqara.

61-23
Aşığam, yüz qaraya,
Ağ verməz yüz qaraya. *(ağ qaraya üz verməz)*
Könül Yaxşıdan dönməz,
Xalq əgər yüz qaraya. *(xalq yüz qara deyə)*

## --B--

62
Mən Aşığam, yar alıb,
Kəs bağrımı yaralıb,
Əzrayıl, alma canım,
Bir canım var yar alıb.

## --C--

62-1
Mən Aşığam, Tək ağac,
Avçı getdə, təkə, qaç.
Qapunda kəlbin ollam,
Bənə dəgsin tək ağac. *(itin olmağa razıyam təki sənin ağacın mənə dəysin)*

## -D-

63
Mən Aşığam, ay mədəd,
Ülkər mədəd, Ay mədəd,
Dan ulduzu baş verir,
Ayrılıqdı, ay mədəd.

64
Mən Aşığam, mənə zad,*
İştah gəldi mənə zad,
Zərrəcə üzün görsəm,
Ollam qəmdən mən azad.

65
Aşıq deyər nədən dad,
Mürğ ağzında nə dən dad.
Şütür* öz barın* çəkər,
Zəng* eyləyər nədən dad?!

**--Ə--**

66
Mən Aşıq, gözlərinə,
Sürmə çək gözlərinə,
Özüm özünə qurban,
Gözlərim gözlərinə.

67
Evlər düşdü ya belə, *(dikə)*
Tök zülfünü ya belə, *(kürəyə)*
Aşığın sevdiyisən,
Ya bəzən gəl, ya belə.

68
Aşığam, təkcə-təkcə,
Xalların təkcə-təkcə,
Nə ola yarı görüm,
Danışaq təkcə-təkcə.

69
Mən Aşıq, gəyən* gecə,
Gül boynun əyən gecə,
Cəsəddə can titrəyər,
Əl-ələ dəyən gecə.

70
Mən Aşıq, bu vətəndə,
Gözüm yoldan ötəndə,
Qəriblik yaman dərddi
Baş yastığa yetəndə.

71
Mən Aşıq, bir də, bir də,
Bir iş var tək səbirdə,
Öləndə birdən ölək,
Quylanaq bir qəbirdə.

72
Mən Aşıq, qəlbi yerdə,
Su durmaz qəlbi yerdə,
Gedirsən ağlım çaşar,
Rəhm eylə, qal bu yerdə.

73
Mən Aşığam, yüz dərdə,
Yüz dərmana, yüz dərdə,
Şəklin yadıma düşdü,
Gözüm qaldı yüz dərdə.*

74
Mən Aşıq, gecə məndə,
Dərd məndə, gecə məndə,
Uşaq tək ağlar Aşıq,
Ləbindən gec əməndə.

75
Aşıq Minayə gələ,
Qurban Minayə gələ,
Sənsiz qərarım gəlməz,
Göydən min ayə gələ.

76
Bir Bərdədir, yüz Gəncə,
Üzgün canım üzgəncə,
Şahmar ilən baş-başa,
Aşıq qoymuş üz gəncə.*

77
Mən Aşıq, gül üzünə,
Şeh düşmüş gül üzünə,
Sonam bağçadan gəlir,
Sancıbdır gül üzünə.

78
Mən Aşıq, uzun dərə,
Getdikcə uzun dərə.
İstərəm bir bağ salım,
Yar gələ üzüm dərə.

79
Mən Aşıq, narın* dərə,
Getdikcə narın* dərə,
İstərəm bir bağ salam,
Yar gələ, narın dərə.

80
Aşığam, yara mən də,
Sızıldar yara məndə,
Ölü olsam diriləm,
Ləbindən, yar, əməndə.

81
Mən Aşıq, qala yerdə,
Bürc yerdə, qala yerdə.
Qorxuram qərib öləm,
Cinazəm qala yerdə.

82
Mən Aşıq, tikən gülə,
Sarmaşmış tikən gülə,
Çoxları göz tikibdir,
Mən gözüm tikən gülə.

83
Aşıq, var kimsəsizə,
Gör gəldi kim səsizə?!
Nə göydə mələk bənzər,
Nə yerdə kimsə sizə.

84
Mən Aşıq, qana, dilə,
Çək boynum qənadilə,*
Xəyalım gəzən yeri,
Quş gəzməz qanad ilə.

85
Mən Aşıq, aylan günə, *(ayla günə)*
Gün dağa yaylan günə,
Səni görüb məst oldum,
Yazıq mən aylan günə.

86
Mən Aşıq, tikə-tikə,
Kəs bağrım tikə-tikə,
Öləndə yar ağlasın,
Kəfənim tikə-tikə.

87
Mən Aşıq, ay aydinə,
Üz çəkər Ay aydinə,
Gündə sən söylədiyin,
Qayiləm ay-ay dinə.

88
Mən Aşıq, gülə gülə, *(gülmək gülə)*
Gül əkdim gülə gülə, *(gülə gülmək)*
Evimi düşmən yıxdı,
Üzümə gülə-gülə.

89
Mən Aşıq, bağça nanə,
Bağ nanə, bağça nanə,
Həsrət qalma, gözlərim,
Doyunca bax canana.

90
Aşıq, bağ işim sənə,
Düşüb bax, işim sənə.
Yalvarmaqdan bəs nədir,
Məzlum baxışım sənə?!

91
Mən Aşıq, el gələnə,
Alnında tel gələnə,
Burda bir bağ salaram,
Yar gələ kölgələnə.

92
Aşıq Minayə gələ,
Qurban Minayə gələ,
Əlim səndən üzmərəm,
Göydən min ayə gələ.

93
Mən Aşıq, bu dar gündə,
Qəm məni budar gündə,
Könlüm istər yarımı,
Gələydi bu dar gündə.

94
Aşığam, min əngələ,
Rəqib, düş min əngələ,
Mənim müşkül işimə,
Düldülü* minən gələ.

95
Aşığam, yara təndə,
Sızıldar yara təndə,
Ölü olsam dirilləm,
Ləbindən, yar, öpəndə.

96
Mən Aşıq, busə rayə,*
Yol düşdü bu sərayə.
Doğdu günəş cəmalın,
Nur düşüb bu sərayə.

97
Aşıq, yar aşdı yenə,
Xalın yaraşdı yenə,
Evin nur ilən doldu,
Qapın yar açdı yenə.

98
Atlandıq yar yayına,
Rəqibi yar yayına, *(yayla yarmaq)*
Məhşəridir Aşığın,
Gözündən yar yayına.

99
Mən Aşığam, yar gündə,
Doğra, bağrım, yar, gündə,
Qoygilən xəstə düşüm,
Gəlsin-getsin yar gündə.

100
Aşığam, bir dəm* arə,
Neştər vur bir dəmarə,
Məni zülfün vurubdur,
Vurdurma, bir də marə.*

101
Minmisən təpəl atə,
At yetməz təpəl atə,
Zülfün ilən Aşığı,
Dəstələ təp əlatə.

102
Mən Aşıq, bu dəmaxdə,
Qəm məni budəmaxdə,
Heç kafir də görməsin,
Leylisin bu dəmaxdə.

103
Mən Aşıq, çimən yerdə,
Su durar çimən yerdə,
Yara qurban olaydım,
Soyunub çimən yerdə.

104
Aşığam, dərdiməndə,
Hicranın dərdi məndə.
Yüz nadan qurban olsun,
Bir dənə dərdiməndə.

105
Mən Aşıq, tikə-tikə,
Al qəlbim tikə-tikə.
Mən səndən dönəmmərəm,
Doğransam tikə-tikə.

106
Mən Aşığam, girəvə,
Aç qapını gir, əvə.
Qovun, qarpız verməsəm,
Başım qoyum girəvə. *(girova)*

107
Aşıq, qan ara yerdə,
Qəssab qanıra yerdə. *(kəsəndə heyvanın başını qanırmaq)*
Sındırdı könlümü yar,
Batdı qan ara yerdə.

108
Durnanın təki yerdə,
Boynunu bükü yerdə.
Ölsün qurtarsın Aşıq,
Qalsın qəm yükü yerdə.

109
Aşığam, yaxam əldə,
Öyrənir, ya xam əldə.
Tutdum hicran yaxasın,
Gördüm öz yaxam əldə.

110
Aşığam, dərdiməndə,
Aləmin dərdi məndə.
Göstərdim eşq odunu,
Ağlatdım dərdi mən də.

111
Qoç döyüşə tək-təkə,
Həyan olsun tək təkə.
Həmdəmsiz Aşıq kimi,
Dağda mələr tək təkə.

112
Mən Aşıq, Keçibelə,
Kəmərin keçib ələ.
Nə çox gül, nə çox ağla,
Günlərin keçi belə.

113
Ha çiskin, ha çən gələ,
Kəs bağrım ha çəngələ.
Baş yastıqda, göz yolda,
Aşığım haçan gələ.

114
Mən Aşıq, şirin gələ,
Yaylaqdan şirin* gələ.
Fərhad qayalar çapar,
Gözləyər Şirin gələ.

115
Bostanı gündə ləklə,
Gün çıxsın gündə ləklə.
Aşıq, hicran yoxuşun
Çıxdıqca gündə ləhlə.

116
Qara qış, qara çilə,
Yaz gələ qar açılə.
İstəsən yol açılsın,
Göz yaşım qara çilə.

117
Mən Aşıq, günü-günə,
Gün verməz günü günə.
Keçən günə gün çatmaz,
Bağlasan günü günə.

118
Mən Aşıq, sinə, sinə,
Səyyad, gəz sinə-sinə,
Məcnun könül bənd olub
Leylinin sinəsinə.

119
Evləri təndir üstə,
Könül ver tən, dürüstə.
Aləm getsin, Aşığım,
Tək dayan, tən dur üstə.

120
Tərtərcən gərək incə,
Şah tut ək gər* əkincə.
Dərmansız dərddən, Aşıq,
Gəl, götür, gərəkincə.

121
Un gətir gündüz ələ,
Ay gələ gün düzələ.
Gecə gördüyüm yuxu
Düşəydi gündüz ələ.

122
Yol düşdü Gəndəbilə,
Tehrana, Gəndəbilə.
Bikamal deyil Aşıq,
Əcəli gendə bilə.

123
Gilənar yaxşı gilə,
Kök atıb Yaxşıgilə.
Aşıq gözübağlı da
Tuş gedər Yaxşıgilə.

124
Mən Aşıq, əsirgəmə,
Səməndim* əsir gəmə.
Qapına qəmə gəldim,
Sailəm, əsirgəmə.

124-1
Mən Aşığam Gülgəzə,
Sona gərək göl gəzə.
Qoy bağı bülbül gəzsin,
Ayağı yox gül gəzə.

124-2
Aşığam, çəmən yerdə,
Gül yerdə, çəmən yerdə,
Yüz min laçın dövr eylər,
Bir sona çimən yerdə.

124-3
Qatarın gözəl, Minə,
Çək gəlsin gözəl minə.
Hər elmə yetdin, Aşıq,
Yetmədin göz elminə.

124-4
Yol düşdü Suçiminə,
Dəhnəyə, Suçiminə.
Məhşəridir Aşığın,
Günahım nə, suçum nə?!

124-5
Aşığam, bu tor üzə,
Sonalar bu tor üzə. *(bu tövr, bu cür)*
Mən suçlu, yar qəzəbnak,
Çıxaram bu tor üzə. *(bir təhər)*

124-6
Qarşımızda Nəvayə,
Vayə* sizdən Nəvayə.
Qədir bilən tap, Aşıq,
Nə dərdə düş, nə vayə.

124-7
Aşığam gəlməz ayə,
Diridən gəl Məzayə.
Rəsuldan sonra hərgiz
Kimsəyə gəlməz ayə.

124-8
Aşığam, budur İncə,
Sərrafsan budur incə.
Min namərd ölsə yekdir
Bir yaxşı büdürüncə. *(büdrəyincə)*

124-9
Oba dağa, ya düzə,
Açа zülfün, ya düzə.
Yüzünə bağban Aşıq
Gülün qoymaz yad üzə.

124-10
Aşıq, hər ayə səndə,
Zülfün hər ay əsəndə.*
Sən müshəf* camallısan,
Vardır hər ayə səndə.

124-11
Aşığam, gələn yelə,
Aç zülfün gələn yelə.
Can qurban eylə, canım,
Canandan gələn yelə.

124-12
Aşığam, sinə-sinə,
Dostlardı sinə-sinə.
Canana can vermişəm
Gərdənim sına-sına.

124-13
Mən Aşıq, ətək ələ,
Almısan ətək ələ.
Bu tərlan o quş deyil,
Ünləsən ətə gələ.

124-14
Aşığam, o güneyə,
Quzeydən o güneyə.
Məni ki səndən etdi
Nə deyim o gün ayə?!

124-15
Aşığam o Göynüyə,
Gün düşmüş o göynüyə,
Yar yar ilə görüşəndə
Bayramın o gün eylər.

## --Ğ--

125
Mən Aşıq, qalınca bağ,
Bar verməz qalınca bağ,
Viranə qalsa yekdir,
Düşmənə qalınca bağ.

126
Qarşımızda o dızağ, *(qorxaq)*
O Duyrandı, o Dızağ,
Səməndər xoyli* Aşıqdan,
Heç vaxt olmaz od uzaq.

127
Qəlyanın sarıqabağ, *(sarı rəngli)*
Yeməyə sarı qabağ, *(boranı, balqabaq)*
Mən hicran xəstəsiyəm,
Sinəmdə sarığa bax.

## --H--

128
Gözəl Allah, gül Allah,
Qul bəndənə gül, Allah.
Mən ki, Haqq Aşığıyam,
La İlahə İlallah!

129
Bu nədir aman, Allah!
Qandırmı daman, Allah?!
Yaxşıya yaxşı yazar,
Yamana yaman Allah.

**--X--**

130
Mən Aşıq, boynuburux,
Maralın boynu burux.
Yüz il qapında durram,
Sərgərdan, boynuburux.

131
Bir at mindim başı yox,
Bir çay keçdim daşı yox.
Burda bir qərib ölmüş,
Yanında qardaşı yox.

132
Nədəndir bu qaş-qabax,
Telindəki müşkə bax.
Aşıq dərddən oxuyur
Görən deyir, eşqə bax.

133
Mən Aşığam, yasa bax,
Yenə batdı yasa bax.
Öldürər dərdin məni,
Ya bu gündə, ya sabah.

## --I--

134
Aşıq oy-oy ilandı,
Yaram oy-oyulandı,
Zülfün gördüm səksəndim,
Dedim oy, oy ilandı.

135
Aşıq, belə yaxşıdı,
Kəmər belə yaxşıdı.
Mən belə gözləməzdim,
Əlbət, belə, yaxşıdı.

136
Mən Aşıq, meh dumanı,
Dağların meh dumanı,
Hamının mehdisi* gəldi,
Bəs, mənim Mehdim hanı?!

137
Aşıq dərdə zalımı,
Düşsün dərdə zalımı,
Səndən dərman gəlməsə,
Məndən dərd azalımı?!

138
Mən Aşıq, qara qandı,
Yoşandı, qaraqandı,
Öldürmüsən Aşığı,
Əllərin qara qandı.

139
Mən Aşıq, mənə sarı,
Baxgilən mənə sarı,
Hər yerdə möhnət olsa,
Üz verər mənə sarı.

140
Mən Aşıq, gül məkanı,
Xar almış gülməkanı,
Yardan ayrı qalmışam,
Üzümdə gülmək hanı?!

141
Gözəllik soy iləndi,
Şəhmar da soy ilandı,
Nəsimi tək yolunda,
Bu Aşıq soyulandı.

142
Avladıq daşdıcanı,
Tərlanın daşdı canı,
Qoy dərdin Aşıq çəksin,
Desinlər daşdı canı.

143
Mən Aşıq, mehribandı,
Qaş gözə mehribandı,
Məndən yad olan gözün
Gör kimə mehribandı?

144
Mən Aşığam, hasarı,
Sınıq könlüm ha sarı,
Aşıq dərddən ev tikmiş,
Qəmdən çəkmiş hasarı.

145
Mən Aşıq, gül ənbarı,
Doludur gül ənbarı,
Dərd qoymaz gözüm açam,
Qəm qoymaz güləm barı.

146
Mən Aşıq, qar* altıdı,
Bu yerlər qar altıdı.
Can uçub cəsəd qalıb,
Baxırsan qaraltıdı.

147
Mən Aşığam, bağdadı,
Paşa gəzər Bağdadı,
Getməz bülbül sərindən,
Gül sevdası, bağ dadı.

148
Aşığa göz üm* sarı,
Tərlana gözüm sarı,
Baxmaqdan şevqi getdi,
Canana gözüm sarı.

149
Mən Aşıq, bu Səlmanı,
Bağban, sən bus almanı,
Zülfündən öyrənmişəm,
Ağ üzdən bus* almanı.

150
Aşıq, ellər ayrısı,
Şana tellər ayrısı,
Bir gününə dözməzdim,
Oldum illər ayrısı.

151
Mən Aşıq, Xub inandı,*
Mənimlən xub inandı,*
Rəqib yaman deyirmiş,
Get yarı xub inandı. *(yarı yaxşı inandır)*

152
Mən Aşıq, ay qabağı,
Buluddur Ay qabağı.
Üzü gülməz yetimin,
Açılmaz ay qabağı.

153
Mən Aşıq, qazançanı,
Doldur ver qazançanı.
Can qoydum, cəfa çəkdim,
Bir görün qazanc hanı?!

154
Mən Aşıq, qoyundadı,
Məməli qoyun dadı.
Ətsiz, sümüksüz, qansız,
Aşıqdır – qoyundadı.

155
Aşığam, göydə nalı, *(paslanmasın deyə nalı göydən asardılar)*
Köç getdi göy danalı. *(köçdə göy dana varıdı)*
Tülək tərlan avını
Endirməz – göydən alı.

156
Mən Aşıq, suda yandı,
Od gəldi, su dayandı.
Dərdimi suya dedim,
Od tutdu su da yandı.

157
Mən Aşıq, ya qeyb Alı, *(Əli)*
Xoş gördük, ya Qeybalı.
Qarı düşmən dost olmaz,
Yedirsən yağı, balı.

158
Mən Aşıq, yad apardı,
Uduzdum – yad apardı.
Cəfa çəkdim yar sevdim,
Səfasın yad apardı.

159
Mən Aşıq, başa qalı,
Bərgüşad, Başağalı.
Dünya Süleyman mülkü,
Bunda kim başa qalı?!

160
Mən Aşıq, ər şəbaşı, *(şabaş)*
Bərgüşad, Ərəşbaşı.
Namərddən kişi olmaz,
Yetişsə ərşə başı.

161
Mən Aşığam, dəm* arı,* *(təmiz qan)*
Çaldırma bir də marı.
Qarı düşmən dost olmaz,
Əyridir bir dəmarı.

162
Sevdim bir biniqabı,*
"Əlif"di "bey" niqabı, *(«əlif» hərfi «bey» hərfinin niqabıdır)*
Zənbur* evinə bənzər
Aşığın beyin qabı.

163
Geyinibsən, yar, sarı,
Gəl sığınım yar, sarı.
Kəbədə ölsə Aşıq,
Yuyun, qoyun, yar sarı.

164
Mən Aşıq, gül ənbarı,
Güllənmiş gül ənbarı.
Nə gülür, nə güldürür,
Özünüz gülün barı.

165
Mən Aşıq, didəm qanı,
Yaxanı didəm qanı.
Könlümü qəm çürütdü,
Sinəmi didəm qanı.

166
Mən Aşığam, ayranı,
İçmək olmaz ayranı.
Cənnət üzü görməsin,
Məni səndən ayranı.

167
Mən Aşıq, yüz azarı,
Loğman tanır yüz azarı.
Qəriblikdə qalan canım,
Tapıbdır yüz azarı.

168
Mən Aşığam, xal saldı,
Göy də yerə xal saldı.
İnsanları bəlayə
Zülfün ilən xal saldı.

169
Aşığam, yar xəyalı,
Bayqunun yar xəyalı.
Nə dağlardan qar gedir,
Nə məndən yar xəyalı.

170
Aşıq üzüldü qaldı,
Şanə düzüldü qaldı.
Mən gəldim həsrət ilən,
Canım üzüldü qaldı.

171
Mən Aşıq, kəs aranı,
Keçməsin – kəs aranı.
Olursan vəfalı ol,
Olmursan kəs aranı.

172
Mən Aşıq, yara yağı,
Yar əli, yar ayağı.
Astanan qurbanıyam,
Dəyibdir yar ayağı.

174
Mən Aşığam, nə qaldı,
Nə qovğadı, nə qaldı.
Fələk mənim başıma
Gətirməmiş nə qaldı?!

175
Mən Aşığam, yüz qandı,
Əlli qandı, yüz qandı.
Kəbə yıxmaq bir evdi,
Könül yıxmaq yüz qandı.

176
Mən Aşıq, sarı qaldı,
Gün getdi sarı qaldı.
Can çıxdı canan gəlməz,
Gözüm yol sarı qaldı.

177
Mən Aşıq, boz dağları,
Basıbdı toz dağları.
Bilsəm ki, yarım gəlir,
Aşaram tez dağları.

178
Mən Aşıq, yenə qaldı,
El getdi, binə qaldı.
Sənlə mənim görüşüm
Qiyamət günə qaldı.

179
Mən Aşıq, nə vəfası,
Nə əhdi, nə vəfası.
Vəfaliyə can qurban,
Namərdin nə vəfası.

180
Mən Aşıq, kəs ərayı,
Rəqibdən kəs ərayı.
Cəmalın bir zərrəsi
Almas tək kəsər Ayı.

181
Mən Aşıq, gül ənbarı,
Doludur gül ənbarı.
Dərd qoymaz gözüm açam,
Qəm qoymaz gələm barı.

182
Mən Aşıq, yar alması,
Şirindir yar alması.
Yaxşı olar yar könlün
Yar yıxıb, yar alması.

183
Aşıq, qucaqla şalı,
Xak ol* quc aqla şalı,
Qol məndən, gərdən səndən,
Gəl bir qucaqlaşalı.

184
Geydiyin don darayı,
Gey sallan döndirayı.
Zülmətdə qaldı Aşıq,
Bir bəri döndər Ayı.

185
Göz gördü Göran narı,
Şitildən gör an narı.
Cənnətdə görməz Aşıq
Qoynunda görən narı.

186
Aşığam, gül budağı,
Tutubdur gül bu dağı.
Məni dərdin əyibdir,
Necə ki, gül budağı.

187
Aşıq dərdə zalımı,
Düşsün dərdə zalımı.
Sən gendən baxmaq ilən
Məndən dərd azalımı?!

188
Mən Aşıq, üz qanadı,
Tərlanın öz qanadı.
Meh əsdi zülf dağıldı,
Tel dəydi, üz qanadı.

189
Mən Aşıq, suci* hanı,
Sujun* tək suci* hanı?!
Mən ləbin təşnəsiyəm,
Götürsə su cihanı.

190
Mən Aşıq, ayqır ağı,
Heç olmaz ay qırağı.
Açıldı bulud zülfün,
Göründü Ay qırağı.

191
Mən Aşıq, bizim Sarı,
Dolan gəl bizim sarı.
Dərdim var, dərmanım yox,
Dərman tap, gəl bizim sarı.

192
Mən Aşıq, üzmə barı,
Qoy zülfün üzmə barı.
Aşiqlik başarmadın,
Dostluğu üzmə barı.

193
Mən Aşıq, bu dağları,
Gül imiş budağları.
Çalın-çapraz sinəmə
Çəkibsən bu dağları.

194
Mən Aşığam, yar sarı, *(rəng)*
Bayqu meyli yar sarı.
Aləmi qibləsinə,
Məni qoyun yar sarı.

195
Mən Aşıq, nə bu dadı?!
Qəm məni nə budadı.
Ad mənim, yar özgənin,
Neylərəm mən bu dadı?!

196
Aşığam, o baxanı,
El xanı, oba xanı,
Öz baxanım sağ olsun,
Neylərəm o baxanı?!

197
Sarı-sarı kürən sarı,
Sınığımı görən sarı.
Tərlan yurdunda, Aşıq,
Nə deyər görən sarı?!

198
Mən Aşığam, müştaqı,
Ənbər dağı, müş dağı, *(müşg dağı)*
Üzüm üzün həsrəti,
Gözüm gözün müştağı.*

199
Mən Aşığam, dilmandı,
Xoy, Səlmas, Dilmandı,
Gözəllik bəhsi düşdü,
Səni çox dilim andı.

200
Aşıq yaxşıdı, yaxşı,
Xalı yaxşıdı, Yaxşı.
Sərraf baxdı bəyəndi,
Dedi yaxşıdı, Yaxşı.

201
Mən Aşıq, qaşıq aşı,
Bişirər qaşıq aşı.
Aşığı yoldan eylər,
Yaxşının qaşı, qaşı.

202
Qarşıda o İrandı,
O Rumdu, o İrandı.
Yamana qarğar Aşıq,
Yaxşıdan ayırandı.

203
Aşıq vətən yaxşıdı,
Köynək kətan yaxşıdı.
Qürbət cənnət olsa da,
Yenə, vətən yaxşıdı.

204
Göründü baldır ağı,
Ləblərin bal durağı.
Gəl, öldürmə, Aşığı,
Sənə babaldır axı.

205
Aşığı el saxladı,
Sazını tel saxladı.
Gördü Yaxşı camalın,
Qanlılar əl saxladı.

206
El gəldi qan bağladı, *(qannıçılıq aradan qalxdı)*
Yaralı can bağladı.
Aşıqdan küsdü zənbur,
Qayada şan bağladı.

207
Mən Aşıq, həya qaçdı,
Divana – haya qaçdı.
Zəmanə bəd gəlibdi,
Ar getdi, həya qaçdı.

208
Aşığın gülə baxdı,
Bülbüllər gülə baxdı.
Şeh doldu qızıl gülün
Camından gülab axdı.

209
Yaz yerə xalı saldı,
Butası xalis aldı.
Aşığı qara günə
Yaxşının xalı saldı.

210
Mən Aşıq, gülüstandı,
Aç, oxu, “Gülüstan”dı.
Bülbülün göz yaşından
Bağçada gül islandı.

211
Aşıq hey ağılandı,
Qara qoç ağ iləndi.
Gecəm qap-qara suca,
Gündüzüm ağ ilandı.

212
Mən Aşıq, oda yandı,
Od düşdü oda yandı.
Yar çəkdi mən yeridim,
Mən çəkdim o dayandı.

213
Aşıq qarabağlıdı,
Xalın qara bağlıdı.
Nə gələn var, nə gedən,
Dəyən, yollar bağlıdı.

214
Mən Aşıq, amanatdı,
Gəlməsin yaman atdı.
Keçirt məni bu çaydan,
Yar gözlər, aman, atlı!

215
Mən Aşıq, yara qanlı,
Yar qanlı, yara qanlı.
Öldürərsən mən yazığı,
Olursan, yara qanlı!

216
Aşıq, sözün su camı,
Yaxşı zülfü sucamı?! *(ilanmı)*
Gövhər içirtdi mənə,
Yar əlində su camı.

217
Aşıq min alacanı,
Yar geymiş alacanı.
Əzrayıla qıymaram,
Kaş gözün ala canı.

218
Qarşıda oba hanı,
El hanı, oba hanı?!
Yara can qıydım, Aşıq,
Kim verər o bahanı?!

219
Aşıq, yaradan hanı,
Bayqu yara dan hanı?!
Aləmi Haqq yaratdı,
Haqqı yaradan hanı?!

220
Gecələr qəm oyanı,
El yatır, qəm oyanı.
Dəryalar oya bilməz,
Bağrımda qəm oyanı.

221
Dərdim oldu ha carı,
Arxalığın acarı.*
Ləbin kimi bal olmaz,
Aşıq kimi ac arı.

222
Bazarın şah bazarı,
Qurulub şah bazarı.
Aşığın şan bağrına
Qonubdu şahbaz arı.

223
Aşığa Bayat yaxşı,
Kölgədə ha yat yaxşı.
Canım oxuna qurban,
Oyanıb ha at, Yaxşı.

224
Aşıq yaxşıdır, yaxşı,
Xalın yaxşıdır, yaxşı.
Sən günəşdən göyçəksən,
Adın Yaxşıdır, Yaxşı!

225
Evləri günə qarşı,
Tikilib günə qarşı.
Biz getdik ölkəmizə,
Sən qaldın günə qarşı.

226
Aşıqda qəm qalağı,
Doğra tök qəmqalağı.
Dağdan uca könlümü,
Tutubdur qəm qalağı.

227
Aşıq, dərd yada qaldı,
Xalın dəryada qaldı.
Öldüyümlə deyiləm,
Hayıf, yar yada qaldı.

228
Mən Aşıq, Savalandı,
Sultandı, Savalandı.
Nə halımı yar sorar,
Nə bir söz-sav alandı.

229
Əsillər əsil andı,
Əfilər asi ilandı.
Həllacındır bu Aşıq,
Telindən asılandır.

230
Bu gələn qaraltıdı,
Ağ sinən qar altıdı.
Can qalmayıb Aşıqdan,
Qərəz bir qaraltıdı.

231
Şirvanın o tağarı,*
Yay gircək ot ağarı.
Aşığın şan-şan bağrın
Eyləmiş otaq arı.

232
Aşıq tək, yar arxalı,
Döşənmiş yarar xalı.
Qəddinə babdır zülfün,
Üzünə yarar xalı.

233
Dolandıq Balakanı,
Şəkini, Balakanı.
Yarından ayrı Aşıq –
Dərd evi, bəla kanı.*

234
Qönçə tək aç dəhanı,
Təhəmmül* acda hanı?!
Doymaz şirin ləbindən,
Aşığın ac dəhanı.

235
Gətirin təzə narı,
Əsələ* təzən arı.
Bit arı olar, Aşıq,
Olmasa ta zən* arı.*

236
Su gəlir bəndə yaxşı,
Tanrıya bəndə yaxşı.
İmrandilli Aşığı *(gözəl nitq sahibi Musa peyğəmbərə işarədir.)*
Salıbdı bəndə Yaxşı.

237
Qurşandı bu sədağı,*
Ovçular busa dağı.
Bir ox bəsdir Aşığa,
Nə tökdün bu sədağı?!

238
Aşıqda qıyam dağı, *(qiyamət)*
Qarğışa qıyam dağı.
Bir maral itirmişəm,
Tutubdur qıyam dağı. *(qıyyam)*

239
Mən Aşıq, bu saqaldı,
Gözüm yolbusa qaldı.
Dəm-dəm sızlama, Aşıq,
Deyirlər busa qaldı.

239-1
Buxaq altı qənd ağı, *(rəng)*
Hicran günü qənd ağı. *(zəhər)*
Səndən ayrı Aşığa
Zəhrimardı qənd axı.

239-2
Aşığa köhnə dağı,
Gəzirəm köhnə dağı.
Təzədən bir dağ çəkdin,
Unutdum köhnə dağı.

239-3
Aşıq Qaramannıdı,
Xalın qara mannıdı.
Yaxşının tənəsindən,
Dağda qar amannıdı.

239-4
Dağları savuq aldı,
Qar yağdı, savuq aldı,
Gözəllər getdi, Aşıq,
Bizə söz-savı qaldı.

239-5
Qarşıda aran yaxşı,
Yaylaqdan aran yaxşı.
Bəxtəvər başın, Aşıq,
Yar ilə aran yaxşı.

239-6
Aranın dağ aranı,
Kəsibdir dağ aranı.
Yaxşıdan ötrü Aşıq
Ha gəzər dağ, aranı.

239-7
Dağların təzə qarı,
Ərimez təzə qarı.
Bivəfa yardan, Aşıq,
Muy* sərdə tez ağarı.

239-8
Kəklik o xəyallıdı,
Oxur o xəyallıdı.
Yaxşıdan dönməz Aşıq
Könlün o xəyallıdı.

239-9
Dağlarda qar qalandı, *(qalmaq)*
Yağdıqca qar qalandı. *(üst-üstə yığıldı)*
Qarğalar laçın oldu,
Laçınlar qarğalandı.

239-10
Aşığam, belə qandı, *(belə başa sal)*
Xan arxı belə qandı. *(arxı qazmaq belə qandı )*
Arasbar tərlanıyam,
Ovlağım Beləqandı.

239-11
Qarşıda nə yaradı,
Bayqular nə yaradı?!
Yarasız bilməz Aşıq,
Yaralar nə yaradı. *(yarsanız da Aşıq biən deyil yara nə yaradı)*

239-12
Aşığam, Alı dayı,
Mehmansan, Alı dayı.
Könlü bədov* istəyən
Vaxtında alı dayı.*

239-13
Aşığam, a zar qalı,
Dərd canda azar qalı. *(dərd canda azar olur)*
Qoca kəlbindir Aşıq
Səsləgil, azar qalı. *(itini səslə azıb qalmasın)*

239-14
Aşığam, ayağ alı,
Bərgüşad, ay Ağalı.
Sən çağır qulum diyə
Mən deyim, ay ağalı.

239-15
Aşığam, qarsalandı,
Savalan qar salandı.
Şəklin yadıma düşdü
Ürəyim qarsalandı.

239-16
Qarşıda Məməqandı,
Divarqan, Məməqandı.
Ləbə dən* dəymiş, Aşıq,
Sinə göy, məmə qandı.

239-17
Aşığam, aya qalı, *(zaman mənasında)*
Gün yeri Aya qalı. *(günəşin yeri Aya qalır)*
Dostun nöqsan işindən,
Düşmənlər ayaq alı.

239-18
Aşıq, Gəncədə yandı,
Xalın gəncə dəyandı.
Şamaxıya od düşdü
Vardı Gəncə də yandı.

239-19
Mən Aşıq, Gözəlcanı,
Tərlanın gözəl canı.
Bivəfa yar yolunda,
Çürütdün gözəl canı.

239-20
Aşığam, bu aranı,
Bu yaylaq, bu aranı,
Eyləcə gəlin, gedin,
Kəsməyin bu aranı.

239-21
Qarşıda sərin tanı,
Əsti də sərin tanı.*
Sərlər içində, Aşıq,
Yaxşının sərin tanı.

239-22
Aşıq, yaza nə qaldı,
Qələm yazana qaldı.
Ülkər yenə sallandı,
Görək yaza nə qaldı.

239-23
Əfsarın yol əfsarı,*
Yağ sarı, plov sarı,
Yara sarban ol, Aşıq,
Tez yetir yol əfsarı.

239-24
Mən Aşığam, sim sarı, *(sarı sim)*
Sətarına* sim sarı.
Yaxşıdan özgə yoxdur,
Nə yarı, nə simsarı.

239-25
Mən Aşığam, yüz lalı,
Sərraf tanır yüz lalı.
Namərddən kərəm olmaz,
Qapısında yüz lalı. *(yalvarmaq)*

239-26
Dəgirmanın ha daşı,
Çaqçaq* döyər ha daşı.
Bağbana dost ol, Aşıq,
Gülü bağdan ha daşı.

239-27
Aşığa yara mandı,
Dərdməndi, yara mandı.
Yüzünə gül demişəm,
İncimə, yar amandı.

239-28
Aşığam, alıb alı *(qırmızı parça alıb)*
Mehmansan, Alıbalı.
Zənburlar karvan salı,
Ləbindən alı balı.

239-29
Aşığam, nə zamandı,
Mehdiyə nə zamandı?!
Qəmzənə qurban canım,
Eyləmə, naz amandı.

239-30
Aşığam, yara yaxşı,
Təbibi ara yaxşı.
Canımın dərd yarasın
Nə olar yara Yaxşı.

239-31
Aşığam, gələ malı,
Gül əkən kələm alı.
Sən cənnət bağbanısan,
Kim səndən kələm alı?!

239-32
Qarşıda o bazardı,
El gedər o bazardı,
Ahu-zarından, Aşıq,
El zardı, oba zardı.

239-33
Aşıq, yara ayıbdı,
Dərd ayıb yarayıbdı.
Canıma minnət olsun,
Qurbana yara ayıbdı.

239-34
Aşığın dəm dəmahı,
Dəryada dəmdə mahı. *(balıq dəryada dəmdi)*
Şəklin yadıma düşdü
Çəkərəm dəm-dəm ahı.

239-35
Aşığam, yüz il qarı,
Dağların yüz il qarı.
Ya əhdinə vəfa qıl,
Ya aradan üz ilqarı.

239-36
Mən Aşığam, dəryanı,
Balıq ovlar dəryanı.
Qarqıyım kəlbin olum, *(qarğışım tutsun itin olum)*
Mənə qalsın dər yanı. *(qapı yanında durum)*

239-37
Mən Aşıq, Qısır dağı,
Köşbəyin Qısır dağı.
Dalda gəz, ay maralım,
Ovçular busur dağı.

**--İ--**

240
Aşığam, yara məni,
Bayqular yara məni,
Ağ günlü bəxtiyardır,
Yetirən yara məni.

241
Aşığam, yüz hasarı,
Qalanın yüz hasarı,
Mərdin bir əl kölgəsi,
Namərdin yüz hasarı.

242
Mən Aşıq, Ləngərudi,
Tutubdu ləng* ər udi.
Çox bilib az danışmaq,
İgitdə ləngər odi.

243
Mən Aşıq, yadə məni,
Xalını yad əməni,
Kimim var yar yanında,
Bir sala yadə məni.

244
Mən Aşıq, basma məni,*
Atlanıb basma məni,
Uşaq tək ağlar Aşıq,
Ağzına bas məməni.

245
Mən Aşıq, ayaz kəsdi,
Buz kəsdi, ayaz kəsdi,
Məni də al qoynuna,
Yazığam, ayaz kəsdi.

246
Mən Aşıq, ay incəli,
Sevgilim Ay incəli,
Səni görən gözlərim,
Nə yatar, nə dincəli.

247
Mən Aşıq, əlimindi,
Düldülü Əli mindi,
Könlüm səni çox istər,
Yetişməz əlim indi.

248
Mən Aşıq, yüz il məni,
Şanə tək yüz ilməni,
Vəfalı yar yad olmaz,
Görməsə yüz il məni.

249
Mən Aşıq, ağa gəldi,
Xan gəldi, ağa gəldi,
Xəstə düşmüş qapına
Dərmana ağa gəldi. *(xəstə düşən kəfənə gəldi)*
250
Mən Aşıq, xan duvani, *(divan)*
Xan eylər xan duvani.
Gümüşdən ev tikmişəm,
Qızıldan xan duvani. *(taxt)*

251
Aşıq, yar alar məni,
Zülfün yaralar məni,
Sənsiz yerə girmərəm,
Döşək yaralar məni.

252
Mən Aşığam, ya dəli,
Ya divanə, ya dəli,
Mən özümü öldürrəm,
Sənə dəysə yad əli.

253
Mən Aşıq, ömr əbəsdi,
Bir vəslə ömrə bəsdi,
Vəfasız yar yolunda
Sərf olan ömr əbəsdi.

254
Mən Aşığam, dərdəydi, *(qapıdaydı)*
Dərman əydi, dərd əydi,
Dərmana gedən təbib,
Gəl, xəstəni dərd əydi.

255
Başa qoymuş gah gahi,
Mujdan* gəlir gah-gahi,*
Unutmayın Aşığı,
Yada salın gah-gahi.*

256
Mən Aşıq, gələn dərdi,
Hər ay-gün gələn dərdi,
Candan əziz saxlaram,
Canandan gələn dərdi.

257
Atlandıq o Zəngini,
Sonalar üzən güni,
Ölsün Aşıq, görməsin,
Səndən əl üzən güni.

258
Aşığam, gül məməni,*
Şeh düşmüş gül məməni.
Məmən güldən nəzikdir,
İncidər gül məməni.

259
Aşığam, yara səni,
Bayqular yara səni.
İllər ayrısı, canım,
Yetirim yara səni.

260
Mən Aşıq, ozan yeri,
Mollanın əzan yeri,
İlan ollam öpərəm,
Ayağın gəzən yeri.

261
Mən Aşıq, birdə səni,
Dan yeri bir də səni,
O qədər ölməyəydim,
Görəydim bir də səni.

262
Mən Aşığam, yəməni, *(yəməndən olan adam)*
Sərraf tanır yəməni. *(yəmən parçası)*
Pərişanlıq halında,
Ya zülfün gör, ya məni.

263
Aşığam, yar dilini,
Rəqibin yar dilini.
Biganələr nə bilər,
Yar bilər yar dilini.

264
Aşığam, yara məni,
Bayqular yara məni.
Əlbəttə behişt tapar.
Yetirən yara məni.

265
Mən Aşıq, Gülüş idi,
Şeh düşdü gül üşüdü,
Güldün əqlim apardın,
Bu necə gülüş idi?!

266
Mən Aşıq, yedi məni,
Göz ilən yedi məni,
Bir yara sirrim verdim,
Aləmə dedi məni.

267
Mən Aşıq, kaşan* işi,
Hind işi, Kaşan işi,
Düşmən düşmənə etməz,
Sən mənə tutan işi.

268
Mən Aşıq, yüz ilməni,
Yaxandan yüz ilməni,
Vəfalı yar yad olmaz,
Gözləsə yüz il məni.

269
Aşığam, üzgün nəri,
Yoxlayın üzgünnəri, *(üzgünləri)*
Mayadan gözmü kəsər,
Bağlasan yüz gün nəri.

270
Mən Aşıq, dalda yeri, *(geridə)*
Mey* vurar dalda yeri,
İki ürək bir olsa,
Tez tapar dalda yeri.

271
Zülfün suda mar kimi,
Oynar su damar kimi.
Sızıldatdın Aşığı
Yağa su damar kimi.

272
Mən Aşıq, səni sali,*
Mən Məryəm, sən İsali,
Anar, ağlar gözlərim,
Yadına səni sali.

273
Gəldi bir üz məzəli,
Üz meyli, üz məzəli,
Umudu var Aşığın,
Dərgahdan üzməz əli.

274
Aşığın dərd evini,
Xəstənin dərd evini,
Belə hicran çəkənin
Yıxmazmı dərd evini?!

275
Aşığın xan* danişi, *(süfrə söhbəti)*
Qul ilən xan danişi,
Bülbülün bağrın yarar,
Qönçənin xəndan işi.

276
Aşıq yüz il müştəri,*
Sağ ol yüz il müştəri,
Dişin tək dürmü tapar,
Gəzsə yüz il müştəri?!

277
Aşığam, həm ay işi,
Zülflərin həmayişi,*
Həm xurşid* işin işlər,
Cəmalın, həm Ay işi.

278
Ay doğdu təzələndi,
Doğduqca təzələndi,
Cananı gördü Aşıq,
Bu könlü təzələndi.

279
Mən Aşıq, bilən bizi,
Tutubdur Bilən bizi,
Dardayıq unutmasın,
Tanıyan, bilən bizi.

280
Aşıq, göz görə səni,
Kabab, köz görə səni,
İstəməm öz gözümdən,
Başqa göz görə səni.

281
Aşıq dua göndərdi,
Zülfün dua göndərdi,
Özü gələ bilmədi,
Çox-çox dua göndərdi.

282
Aşığam, gələ mahi,*
Dəryadan gələ mahi,*
Könlüm səni çox istər,
Qoymurlar gələm ahi. *(axı)*

283
Əlində sevdigini,
Tutubdu sevdigini,
Çox zulumdu Aşığa,
Görməyə sevdigini.

284
Aşığın səndəlisi,*
Gözəllər sən dəlisi,
Sevdiyim, zülflərindən,
Gəlir səndəl* iyisi.

285
Mən Aşıq, el çəməni,
El yaylaq, el çəməni,
O qaş, o göz, o kiprik,
Salıbdır elçi məni.

286
Aşığa gələn dərdi,
Gül əkdim gələn dərdi.
Candan əziz saxlaram,
Canandan gələn dərdi.

287
Aşıq yadına məni,
Tərsaya, dinə məni,
Kimim var yar yanında,
Sala yadına məni.

288
Aşıq düşgünəm məni,
Oxur düşgün əmməni,*
Sən düşgün yoxlayansan,
Yoxla, düşgünəm məni.

289
Aşığam, gözdən məni,
Ver mürğə gözdən məni,
Mən ha sənə neylədim,
Salıbsan gözdən məni.

290
Aşıq bilirəm məni,
Oxur, bilir əmməni,
Əzzəl, axir aynıtmaz,
Bu dərd bilirəm məni.

291
Aşığam, yasəməni,
Gey, sallan yasəməni,
Özü toya, düyünə,
Göndərir yasə məni.

292
Mən Aşıq, o Pənahi,
Zülf üzdə öpə nahi, *(zülfə üz öpmək qadağandı)*
Sinən Kəbə sərayi,
Çəkməzdi öpən ahi.

293
Mən Aşıq, gözüm saqi,
Kababa közüm saqi,
Deyirlər canan gəlir,
Səyrişir gözüm, saqi.

294
Mən Aşıq, bağça pəri,
Bağbandı bağça pəri,
Çəpər bağ dolanmaqdan,
Dolandı bağ çəpəri,

295
Mən Aşıq, bağça Pəri,
Bağbandı bağça pəri,
Qaşın bağ, gözün bağban,
Kipriyin bağ çəpəri.

296
Gözüm gördü bu səydi,
Göz yolları busəydi,
Aşığın istədigi,
Canandan bir busəydi.

297
Aşıq yarı səməni,
Bayqu yarı səməni,
Duadan unutmasın,
Doğru yar isə məni.

298
Atlanan, düşən, yeri,
Oxu bil düşən yeri,
Aşığın səcdəgahı,
Zülfünün düşən yeri.

299
Aşıq yadına məni,
Bayqu yadına məni,
Kimim var yar yanında,
Sala yadına məni.

300
Axşamın gəldi dəmi,
Mey içdik gəldi dəmi,
Yar başına dönməgin,
Aşıq, dur gəldi dəmi.

301
Aşıq gül eylər səni,
Güldən gül eylər səni,
Gül iyləmə, sevdiyim,
Nagah gül iylər səni.

302
Geydiyin narıncidi,
Gey, sallan narıncidi,
Aşığın istədigi,
Qoynunun narıncidi.

303
Aşığa göz gözdümi?!
Kababa köz közdümi?!
Səni bu zibalıqda,*
Görməyən göz gözdümi?!

304
Aşıq qaramannıdı,
Xalın qara mannıdı,
Yarın soyuq üzündən,
Yenə qar amannıdı.

305
Mən Aşığam, üz bəri,
Sona, göldə üz bəri,
Can pəşkəş eylər Aşıq,
Canan gəlsə üz bəri.

306
Mən Aşıq, sər dağıdi,
Gül dağı sərd* ağıdi,
Bəd əsil gözəl olmaz,
Qayıdı sər dağıdi.

307
Mən Aşıq, de dəmğani,
Simnanı di Dəmğani,
Könlümü qəm çürütdü,
Sinəmi didəm qani.

308
Kəlbiniz dişdər məni,
Nə olar, diş, dər məni,
Aşıqda diş ağrısı,
Yaxşıda diş dərməni.

309
Mən Aşığam, dağ itdi, *(dağda it var)*
Duman gəldi, dağ itdi.
Biz də bir oymaq idik,
Fələk vurdu dağitdi.

310
Mən Aşıq, düzlər sini,
Sinçilər düzlər sini.
Aldı bağrına basdı,
Yovşanlı düzlər səni.

311
Gətir öldür keçini,
Can cəsəddən keçini.
Yaxşıdan sonra, Aşıq,
Günün necə keçini?!

312
Aşıq görməyiləndi,
Xalın görmə iləndi. *(ilandı)*
Könlümün təsəllisi,
Səni görmək iləndi.

313
Aşığın ha kimsəsi,
Ha kimi, ha kimsəsi.
Yaralarım qövr eylər,
Eşidib həkim səsi.

314
Alışdı dəm qamışı,
Xoş söhbət dəm qamışı.
Yaxşının quluyam mən,
Bir qalıb dəmğam işi.

315
Mən Aşıq, yüz sənəmi,
Səfyanın yüz sənəmi.
Yaxşıynan keçən günü,
Verərəm yüz sənəmi.

316
Dağda qar alar məni,
Xalın qaralar məni.
Aşığam, Yaxşı yarsız,
Basar qaralar məni.

317
Bağçanız gülə vərdi, *(bağçanızda gül vəri var)*
Gülümsər gülə vərdi. *(qızılgül gülümsəyir gülə)*
Sərviniz üryan aşiq,
Özünü günə vərdi.

318
Aşıqsan qan əzəli,
Nütfədir qan əzəli.
Gördü qanımda od var,
Gəlmədi qana zəli.

318-1
Qarşıda Bərdədimi,
Gəncədi, Bərdədimi?!
Həsrətin çəkər Aşıq
Xəyalın bərdədimi?! *(bəridə)*

318-2
Ahular gəzər Çini,
Kababın közər çini,
Olaydın milçə,* Aşıq,
Gəzəydin göz içini.

318-3
Mən Aşığam, ha səni,
Haqq saxlasın Hasəni.
Xəstə könlü nar deyər,
Mənim könlüm ha səni.

318-4
Aşığın dəm qəm işi,
Qəlyanın dəm qəmişi.
Yar məni qul alıbdır
Qalıbdır damğam işi.

318-5
Aşığam, busə kini,
Ovçular busə kini. *(kin ya yer adıdı, ya da ov heyvanı)*
Nə dağlardan qar gedər,
Nə məndən busə kini.

318-6
Bu dağlar qara zildi,
Buluddan qara zildi.
Yaxşısız hər il, Aşıq,
İllər də qara zildi.

318-7
Qarşıda ay incəli,
Gün gedər, Ay incəli.
Yüzünə həsrət Aşıq
Qaşın tək ay incəli.

## --K--

319
Mən Aşıq, əsdi fələk,
Səbrimi kəsdi fələk,
Gözəl güllü bağçamda,
Sumalım kəsdi fələk.

320
Aşıq, göz ala gərək,
Kabab köz ala gərək,
Qaş qara, kiprik qara,
Üz ağ, göz ala gərək.

321
Aşıq biriylən gərək,
Sədəf dürüylən gərək.
Dünyada gözəl çoxdu,
İlqar biriylən gərək.

322
Karvançıyam, atım tək,
Dərdə, qəmə batım tək.
Tapım möhnət ağacın,
Kölgəsində yatım tək.

**--Q--**

323
Yolundan azan Aşıq,
Sızıldar əzan, Aşıq.
Dünya Kəbədir eşqə,
Çıx, bir çək əzan, Aşıq.

324
Dərdü-qəm çəkər Aşıq,
Eşqinə çakər* Aşıq,
Tanrı baxdı bəyəndi,
–Var, – dedi – çək, ər Aşıq.

325
Bağdan nə dərdin, Aşıq,
Dərdsiz nedərdin, Aşıq?!
Səndə ki yar dərdi var,
Daha nə dərdin, Aşıq?!

326
Qəm çəkənə qəm, Aşıq,
Gözüm qəmdən qamaşıq.
Nə Həkəri tükənər,
Nə səndəki qəm, Aşıq.

## --L--

327
Mən Aşığam, gülə gül,
Rəqib gördün gülə gül,
Yar buxağa gül sancmış,
Peyvəst olmuş gülə gül.

328
Mən Aşığam, ağam, gəl,
Ölməmişəm, sağam gəl,
Boynumda qəm zənciri,
Yolunda dustağam gəl.

329
Mən Aşığam, Hasən gəl,
Sevgi bağın kəsən gəl.
Könlüm səni istəyir,
Ya mən gəlim, ya sən gəl.

330
Mən Aşıq, cəhanı gül, *(yer)*
Xoyu gül, cəhanı gül. *(cah-rütbə)*
Mən öz gülüm istərəm,
Götürsə cəhanı gül.

331
Qarşıda yerimiş al,
Xəstəyə yer-yemiş al.
Sağ aldım sayrı* çıxdı,
Aşıq der yerimiş al.

332
Aşıq yamanca deyil,
Xalın yamanca deyil.
Günümüz belə keçsə,
Yenə yamanca deyil.

333
Zülfün siyah yüz-yüz il,
Ömrün olsun yüz yüz il.
Aşıq səndən yüzülməz,
Sən Aşıqdan yüz yüzil. *(burada yüzil – üzül)*

334
Mən Aşığam, qanlı gül,
Qanlı seviş, qanlı gül,
Yemiş bülbül bağrını,
Çıxmış ağzı qanlı gül.

335
Aşığam, qarqamış gül,
Bülbülə qarğamış gül,
Dərə keçmək asandı,
Çətindir qar, qamış, gil.

336
Aşığam, yarımış gül,
Bayquya yarımış gül,
Nə bülbülün yarıtmış,
Nə özü yarımış gül.

337
Qarşıda yerimi sal,
Xəstəyəm yerimi sal,
Sağ aldım sayrı çıxdı,
Aşıq der yerimi sal.

338
Mən Aşığam, ha maral,
Avçı vurmuş ha maral,
Belə can almaq olmaz,
İnsaf eylə hamar al.

339
Aşığam, yaxşı deyil,
Bitibdir yaxşı deyil,
Aləm yaxşıya dönsə,
Yaxşı tək yaxşı deyil.

340
Aşığam, yaranda gül,
Bayquya yaranda gül, *(yaramaq)*
Bülbülün bağrın yaran,
Qönçəni yaran da gül.

341
Aşığam, bağlı dəgil,
Bitibdir bağlıdə gül, *(bağlı yerdə)*
Comərdə Haqq qapısı,
Açıqdır, bağlı dəgil.

342
Bu Aşıq zində* deyil,
Əqli özündə deyil,
Kim dedi Haqq camalı
Yaxşı üzündə deyil.

343
Aşığam, sayəndə* gül,
Dost bizi sayən dəgül,
Sən cənnəti-nəimasan,*
Bitibdir sayəndə gül.

344
Mən Aşığam, səndə gül,
Ver mürğümə* sən də gül,
Özü gülşən seyrində,
Deməz canan sən də gül.

345
Mən Aşığam, həmayıl,*
Həm bihuş ol, həm ayıl,
Fürsətdir al könlümü,
Həm gün keçər, həm ay, il.

346
Aşığam, deməmiş gül,
Həll oldu demə müşgül.
Ağzın açdı bülbülə,
Nə qaldı deməmiş gül?!

347
Aşıq, aşın bişdi gəl,
Bişib yerə düşdü gəl.
Sənlə keçən günkü söz,
İndi yada düşdü, gəl.

348
Mən Aşıq, bağçada gül,
Bağda gül, bağçada gül.
Aşığa gülən Yaxşı,
Əlimdə bax cada*, gül.

349
Qarşımızda qürbət el,
Qürbət ölkə, qürbət el.
Aşığı dərdə saldı,
Qarı düşmən, qürbət el.

350
Atlandıq düşəndə nal,
At büdrər düşəndə nal.
Aşıq, dərdinə dərman,
Var dərdə düşəndən al.

351
Göycə dərya, qara sal,
Ağ üstünə qara sal.
Aşıq pünhan dərd çəkər,
Kimsə bilməz qərəz hal.

352
Getsən get, qalsan da qal,
Hər vaxt bu ad-sanda qal!
Aşıqla şeş-beş atma,
O lal-dinməz, sən dağal.*

353
Aşığa yaz incə gül,
Açılıb yaz incə gül.
Bülbül yüz ayə oxur,
Bir əlif yazincə gül.

354
Bülbülə qarğamış gül,
Açarmı qarğa müşkül?!
Gülüstan həşəm oldu,
Gül mənə, qar-qamış, gül!

355
Aşıq deyər oyan, gül,
Bu yan bülbül, o yan gül.
Ayrılıq tikanıyam,
Qara bağrım oyan gül.

356
Gəl Aşığın, bəxti, gəl,
Yaman yatan vaxtı gəl.
Göz yaşım selə dönüb
Aramızdan axdı gəl.

356-1
Mən Aşığam, o yan gül,
Bu yan bülbül, o yan gül.
Mən üzünə üz qoyum,
Sən yuxudan oyan gül.

356-2
Mən Aşığam, dərd əngəl,
Dolayıdan dərdən gəl.
Dərmana gedən təbib,
Xəstə durdu dərdən gəl. *(xəstə tərdən ayıldı)*

356-3
Mən Aşığam, genə gül,
Genə bülbül, genə gül.
Dəryaca dərdin olsa,
Düşmən görsən genə gül.

356-4
Mən Aşığam, Dərdəğıl,
Başda qoymaz dərd ağıl.
Mehman razı olmasa,
Xana, yıxıl, dər, dağıl.

## --M--

357
Mən Aşıq, o yar mənim,
Qəm bağrım oyar mənim,
Məkkəmdir, Mədinəmdir,
Qibləmdir o yar mənim.

358
Mən Aşıq, üzə mərdüm, *(göz)*
Dəryada üzə mərdüm,
Mən də qara geysəydim,
Zülfün tək üz əmərdüm.

359
Mən Aşıq, ögülənəm,
Şeh salmış o gülə nəm.
Quran gətir əl basım,
Səninlə o gülənəm.

360
Mən Aşıq, özüm neylim,
Bu dərdə dözüm neylim?!
Ah çəksəm aləm yanar,
Çəkməsəm özüm neylim?!

361
Mən Aşıq, sənə gözüm,
Səyriyir sənə gözüm,
Birdən ayrılıq olar,
Qoy baxsın sənə gözüm.

362
Aşığam, neylən alım,
Əlifi beylən alım,
Küsdürüb yola saldım,
Könlünü neylən alım.

363
Mən Aşıq, yaza dərdim,
Katib yox yaza dərdim,
Fəqir bülbüllər kimi,
Qalıbdır yaza dərdim.

364
Mən Aşığam, baxtı kəm,
Bağbanım yox, bağ tikəm.
Fələyə nə etmişdim,
Fələk mənə baxdı kəm.

365
Mən Aşıq, çətənə dərdim, *(çox)*
Gül əkdim çətənə dərdim. *(bitki)*
Oturram yol üstə mən,
Deyərəm çatənə dərdim.

366
Aşıqlıq mənim dərdim,
Yazılmaz mənim dərdim.
Dəryalar mürəkkəb olsa,
Yazılmaz mənim dərdim.

367
Mən Aşıq, yenə gəlləm,
Dolanıb yenə gəlləm.
Üzüm üzünü görsə,
İmana, dinə gəlləm.

368
Mən Aşıq, gülə bəndəm,
Bülbüləm gülə bəndəm.
Ölkənizdə qəribəm,
Bir şirin dilə bəndəm.

369
Aşığam, mən dəgəldim,*
Gözəlsən mən də gəldim.
Hüsnün tamaşasına
El gəldi, mən də gəldim.

370
Mən Aşıq, necə sayım,
Əməgin necə sayım?!
Yarsız keçən günləri,
Ömrümə necə sayım?!

371
Aşığam, gül istərəm,
Bülbüləm gül istərəm,
Səndən mən, ey vəfasız,
Bir şirin dil istərəm.

372
Aşığam, dolan gözüm,
Kababa dolan közüm,
Bəlkə yarı görəsən,
Hər yanı dolan, gözüm.

373
Aşığam, qalan gözüm,
Kababa qalan közüm.
Sürəyya tək yolunda,
Səhərə qalan gözüm.

374
Aşıq, yamanı görüm,
Ölsün yamanı görüm.
Nə yaman məni görsün,
Nə mən yamanı görüm.

375
Mən Aşığam, düşmənəm,
Atlanmışam düşmənəm.
Gör necə yad olmuşam,
Yar yadına düşmənəm.

376
Mən Aşıq, ay kağızım,
Dili yox zay kağızım.
Gedirsən yar yanına,
Dil aç, ay vay kağızım.

377
Mən Aşıq, uymamışam,
Baş yerə qoymamışam,
Yar məndən doyubdursa,
Mən yardan doymamışam.

378
Mən Aşığam, mən şadam,
Rəqib qəmgin, mən şadam,
Yara deyin şad olsun,
Xəyalilə mən şadam.

379
Mən Aşığam, düşə nəm,
Atlanuban düşənəm,
Nə sən gözdən salansan,
Nə mən gözdən düşənəm.

380
Aşıq, yarə qanmaram,
Bayqu yarə qanmaram,
Sərasər görə dönsəm,
Baxsam yarə qanmaram. *(yara baxarkən ölməyi də qanmaram )*

381
Mən Aşıq, hində gözüm,
Kabilə, Hində gözüm,
Baxıb yarın görməsə,
Yaş tökər gündə gözüm.

382
Mən Aşıq, qara baxtım,
Ağ baxtım, qara baxtım,
Sinən yadıma düşdü,
Dağlarda qara baxtım.

383
Aşıq göz dimən gözüm,
Kabab köz dimən gözüm,
Baxıb yarın görməsə,
Ona göz dimən, gözüm.

384
Mən Aşıq, düşdü gözüm,
Gördüyün düşdü, gözüm.
Baxdı yarı görmədi,
Gözümdən düşdü gözüm.

385
Aşıq deyir vay dərdim,
Vay dərmanım, vay dərdim.
Xalq gül əkdi, gül dərdi,
Mən gül əkdim, vay dərdim.

386
Mən Aşıq, sayrı canım,
Canandan ayrı canım.
Yüzün də sana verrəm,
Olsa yüz ayrı canım.

387
Mən Aşıq, Təklədənəm,
Tək evi təklədənəm.
Tərlanın cürəsiyəm *(tərlana ov nişan verən)*
Sonalar təklədənəm.

388
Atlanmışam, düşmənəm,
Yamanlığa düşmənəm.
Aşığam, Yaxşı yarın,
Heç yadına düşmənəm.

389
Dolandım dağı gəldim,
Dilimdə ağı gəldim.
Yaxşı Yaman əlindən,
Dad çəkən çağı gəldim.

390
Mən Aşığam, ha kərim,
Dada yetiş, ha Kərim!
Sizə sizin gen dünya,
Mənə mənim Həkərim.

391
Aşığam dəyə mənim,
Qoyunum dəyə mənim.
Yaylaqda yar obası,
Çaylaqda dəyə mənim.

392
Mən Aşıq, ağ zindəyəm,
Aləmin ağzindəyəm.
Yurdum Qaradağlıdır,
Məzməzək ağzındəyəm.

393
Nə qış, nə yazdı bəxtim,
Müdərris* yazdı bəxtim.
Haqqın min qələmi var,
Hansıyla yazdı bəxtim?!

394
Aşığam, nəsin deyim?!
Nə "Əlif", nə "Sin" deyim.
Qomalamış dərd məni, *(qomarmış)*
Halımın nəsin deyim?!

394-1
Mən Aşıq, gəzinmənəm,
Əhdim var bəzənmənəm.
Yuvasız quşlar kimi,
Sərgərdan gəzən mənəm.

394-2
Aşıq, yaralı mənəm,
Yara yaralı mənəm.
Yaralılar səfində
Yaxşı yaralı mənəm.

394-3
Aşıq, elə düşənəm,
Şehdən gülə düşə nəm.
Zülfün tək dağılqanam,
Üzdən-gözdən düşənəm.

394-4
Aşığam, kec gələnəm,
Binaya kəc gələnəm.
Ya yarın səbri yoxdu,
Ya da mən gec gələnəm.

394-5
Aşığam, elə gəlləm,
El deyər elə gəlləm.
Desələr canan gəlir
Qalmaram, elə gəlləm.

394-6
Mən aşıq, zarı canım,
Saralıb sarı canım.
Səndən ayrı düşəli
Qalmayıb yarı canım.

## --N--

395
Mən Aşıq, av almasın,
Çaxmağın qav almasın.
Səni vuran avçının,
Leyləri av almasın.

396
Aşıq görənə qurban,
Zülfün hörənə qurban.
Mən ki, səni görmürəm,
Səni görənə qurban.

397
Mən Aşığam, yaxandan,
Ya sultandan, ya xandan.
Məmələr şuxluq edər,
Gah-gah çıxar yaxandan.

398
Aşığın yadındə sən,
Tərsamı, ya dindəsən?!
Aləm yadına düşməz,
Sən elə yadindəsən.

399
Aşığam, dönmə məndən,
Ver tiflə dön məməndən.
Durub sallanmaq səndən,
Boyuna dönmə məndən.

400
Aşığam, yad ində* mən,
Tərsa mən, ya dində mən?!
Yarəb, o yad olmuşun,
Varammı yadində mən?!

401
Dərman səndən dərddən mən,
Xali olmam dərddən mən.
Aşıq der o gün olmaz,
Adın alıb dərddən mən.

402
Su gələr axmaq ilən,
Qayalar yıxmaq ilən.
Aşıq murada yetməz,
İraqdan baxmaq ilən.

403
Mən Aşığam, dərd olsun,
Gözlərimə dər dolsun. *(tər)*
Eşitdim rəqib ölmüş,
O da mənə dərd olsun?!

404
Mən Aşığam, lələ mən,
Qəflətdəyəm hələ mən.
Dərddən, qəmdən, hicrandan
Bağlamışam şələ mən.

405
Mən Aşıq, oyanasən,
Hərdəm bax o yana sən.
Yardan mənə bir xəbər,
Sən məndən o yanasən.

406
Mən Aşıq, keçdi məndən,
Su gəldi keçdi məndən. *(bağlı yerdən)*
Mərdlərə körpü oldum,
Namərdlər keçdi məndən.

407
Mən Aşığam, yan dursun,
At oxunu yan dursun.
Zülfünə qadağan et,
Ağ üzündən yan dursun.

408
Mən Aşığam, balasın,
Laçın verməz balasın.
Mən balamı istərəm,
Balam istər balasın.

409
Aşıq, gör nə gündəsən,
Kölgədə yar, gündə sən.
Can alan bir gün olar,
Canım aldın gündə sən.

410
Mən Aşığam, tənimsən,*
Həm canım, həm tənimsən.
Yatdım yuxuda gördüm,
Mənə dersən mənimsən.

411
Mən Aşıq, Qara gəlsin,
Zülf üzə qara gəlsin.
Sənsiz bayram eləsəm,
Bayramım qara gəlsin.

412
Mən Aşıq, bir danə* sən,
Bir gülsən, bir danəsən,
Mən ölsəm sənə qurban,
Sən ölmə, bir danəsən.

413
Mən Aşıq, yar iç əridən,
Kəs bağrım, yar içəridən.
Getdi gözüm qarası,
Çıxmadı yar içəridən.

414
Mən Aşıq, mina gərdən
Mina boy, mina gərdən.
Altdan sal, üstdən topraq,
Qorxuram sına gərdən.

415
Mən Aşıq, Mirav səndən, *(Murov)*
Heç getməz qırav səndən.
Yüz il avçılıq etdim,
Vurmadım bir av səndən.

416
Mən Aşığam, yarasan,
Bayqu meyli yarasan.
Nə tükənməz dərd oldun,
Nə sağalmaz yarasan.

417
Aşıq naşı əlindən,
Ağlar naşı əlindən.
Yasdıq şikayət eylər,
Gözüm yaşı əlindən.

418
Aşığam, oda yansın, *(otaq)*
Pərvanə oda yansın.
Səni məndən eyləyən,
Od tutsun, o da yansın.

419
Mən Aşığam, o xandan,*
O sultandan, o xandan,
Bir dəstə gül oləydim,
Asıləydim yaxandan.

420
Mən Aşığam, köşgə sən,
Körpü saldın köş, gə, sən. *(köç gəl sən)*
Gəldin dərdim artırdın,
Gəlməyəydin kəşgə, sən.

421
Mən Aşığam, qoymazsan,
Xalın üzə qoymazsan.
Can gedib, cəsəd qalıb,
Yenə yardan doymazsan.

422
Aşığam, gözümüzdən,
Kababa közümüzdən,
Xaldan, zülfdən, buxaqdan,
Doymadı gözüm üzdən.

423
Xan köçdü həyadindən, *(eşikdən)*
Artıqdı həya dindən,
Ölənəcən Aşığın,
Çıxmazsan ha, yadindən.

424
Mən Aşığam, Hasən sən,
Rəqib qoyma ha sənsən.
Aləm gözələ dönsə,
Mənim məylim ha sənsən.

425
Aşığam, oyanıncan,
Mən yanım o yanıncan.
Kəsib yasdığın dibin,
Yalvarım oyanıncan.

426
Mən Aşıq, gözəl üzün,
Gözəl qaş, göz, əl, üzün.
Göz tərpətmə, sevdiyim,
Dağılar gözəl üzün.

427
Aşıq yaxşı, Yəmən* dən,*
Xalın yaxşı yəməndən.
Gedirsən salam, dua,
Apar Yaxşıya məndən.

428
Aşıq, yara de məndən,
Bayqu yara demən dən.
Gedirsən salam, dua,
Yetir yara, de məndən.

429
Yenə düşdüm dilə mən,
Bikəs* səndən diləmən,
Xətərə düşər, Aşıq,
Ləb dişləyib, dil əmən.

430
Aşıq, yüz il başadən,
Şanə, düzil başadən,
Bu dövlət, bu təntənə
Getsin yüz il başadən.

431
Mən Aşıq, üzəsən can,
Zülfünü üzə səncan.
Biləsən yar olduğun,
Yolunda üzəsən can.

432
Mən Aşığam, dərd əysin,
Gül üzünə dər dəysin.
Sən anda şeydayi gəz, *(sən orda)*
Məni bunda dərd əysin. *(məni burda)*

433
Aşıq, canana məndən,
Zülfü canan əməndən.
Gedirsən salam, dua,
Yetir canana məndən.

434
Gəlişindi, gedişin?!
Haqqa varsın get işin.
Gəlişin istər Aşıq,
Heç istəməz gedişin.

435
Aşıq, səyyad iraqdan,
Zülfün səyyad iraqdan. *(zülf uzaqdan ov edir)*
Tülək tərlan avına
Gəlir səyyad İraqdan.

436
Mən Aşığam, düş dügün,
Atlandı gün, düşdü gün.
Yarəb, canan bilirmi
Canım oda düşdügün?!

437
Mən Aşıq, iki yüzdən,
Dərdim çox iki yüzdən.
Eşqində ağlamaxdan,
Qan keçdi iki yüzdən. *(iki üzdən)*

438
Mən Aşığam, ya xaqan,
Ya sultansan, ya xaqan,
Belə hənəgmi* olur,
Əl qan, üz qan, yaxa qan.

439
Kəklik uçdu kəmərdən,
Qucmaq öyrən kəmərdən.
Var mərdə qul ol, Aşıq,
Kərəm umma kəm ərdən.

440
Mən Aşıq, heyran çəmən,
Sonalar heyran çəmən.
Məmələrin cəng elər,
Olmuşam heyrançə mən. *(heyranlıqla seyr edən)*

441
Aşıq budur qulaman,
Qulluq deyil qula man.*
Ağa dara düşəndə
Ağlar deyər – qul, aman!

442
Mən Aşıq, oda giryan,
Çöl giryan, oda giryan.
Dedim qıraqdan isin,
Demədim oda gir, yan.

443
Aşıq deyər yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Qolların sal boynuma,
Ayaqların üz yerdən.

444
Mən Aşığam, yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Camalın bayram Ayı,
Baxışarlar yüz yerdən.

445
Üz göstər, üz görəsən,
Dərdimi düz görəsən.
Aşığın kümәsini *(evini)*
Yıxırsan göz görə sən.

446
Almaçısan, nəçisən,
Nə satırsan, nəçisən?!
Dolu döymüş Aşığı,
Nə bulud var, nə çisən.

447
Dərdin məni yandırsın,
Baxsın rəqib yan dursun.
Gəlsin yanar dağ ilə,
Aşıq yanbayan dursun.

448
Xoş gəldin, səfa gəldin,
Dürsən, sərrafa gəldin.
Nə mən öldüm qurtardım,
Nə sən insafa gəldin.

449
Aşıq, tut yaxşı yasın,
Oxunar yaxşı "Yasin".
Dırnaq çalıb sinəmdə,
Qazaram Yaxşıya sin.

450
Mən Aşıq, oda sənin,
Mehrin var oda sənin.
Yetimin bir canı var,
Dilərsən o da sənin.

451
Aşıq deyir, ay Dursun,
Ülkər yansın, Ay dursun.
Qəbrim üstən keçəndə,
Gün əylənsin, Ay dursun.

452
Quranın hərf işindən,
Oxurlar hərf işindən.
Ovsunçu vəhmə yetər,
Əfinin hər fişindən.

453
Aşıq deyər əsli qan,
Xəncər beldən asılqan.
Üç yüz altmış damarın
Birindədir əsli qan.

454
Ayrıldım, ölkə, səndən,
Qorxuram yolkəsəndən.
Dağlar quzeyli könlüm,
Heç getməz kölgə səndən.

455
Mən Aşığam, mən dildən,
Xəbər verin Məndildən.
Yarnan cınaq çəkmişik,
O dodaqdan, mən dildən.

456
Aşığıyam dürüstün,
Dürüst iman, dürüst din.
Ya məclisdə lal otur,
Ya dinirsən dürüst din.

457
Mən Aşıq, gülə zardan,
El gedər Güləzardan.
Xarın ölsün, ay bülbül,
Qurtarsın gül azardan.

458
Mən Aşıq, İsfəhandan,
Səs gəldi İsfəhandan.
Üç aylıq yolu gəldim,
Göz yumub İsfəhandan.

458-1
Mən Aşıq, bu dağ ilən,
Gül sınmış budağ ilən.
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağ ilən.

458-2
Bayquş mənəm, bayquş mən,
Hamı quşdan sayquş mən.
Nə bəlalı quş oldum,
Sızıldaram yay, qış mən.

458-3
Aşıq, gedər atdı gün, *(atlı gün)*
Dağdan dağa çatdı gün.
Yaxşının ay üzünü
Görən kimi batdı gün.

458-4
Aşıq, hanı şahadın,
Şahlar alar şah adın.
Dəyirmandır bu dünya,
Fələk yığar şahadın.*

458-5
Tərlanın baxışından,
Bağbanın bağ işindən
Bir nəzər umdun, Aşıq,
Yaxşının baxışından.

458-6
Aşığın dediyi qan,
Mürğünün dimdiyi qan,
Bəy desə qan bağlanar,
Yoxsulun dindiyi qan.

458-7
Aşığam, qovqa bağdan,
Qal bağdan, qovqa bağdan.
Bülbül öldü, gül soldu
Kəsildi qovqa bağdan.

458-8
Arazbar oda yansın,
Od düşsün, oda yansın.
Yar üçün yanı Aşıq, *(Aşıq yar üçün yanır)*
Barı, bir o da yansın.

458-9
El köçdü ot ağından, *(ot ağardı el köçdü)*
Damından, otağından.
Aşıq sən görən degil,
Düşübdür o, tağından.

458-10
Aşığam, Ələmdardan,
Oxurlar ələmdardan.*
Sən yetiş, şahlar şahı,
Qurtar aləmi dardan.

458-11
Aşığam o yağ ilən,
Şam yanar o yağ ilən.
Qəflətdə ömür keçdi,
Olmadın oyaq ilən.

458-12
Qarşıda qızıl ilan
Əbləqdi* qızıl ilan,
Tapaydım bir dərd bilən
Çəkəydim bir qız ilən.

458-13
Mən Aşığam gələn dən,
Dəyirmana gələn dən.
Demə yaddan çıxmısan,
Xəbər allam gələndən.

## --R--

459
Mən Aşığam, üz üşür,
Sona göldə üzüşür.
Milçək, qanad tərpətmə,
Tel tərpənər, üz üşür.

460
Aşıq, yara kimin var, *(yara yaxın)*
Yanğı yara kimin var?!
Belə dərd, belə düyün,
Belə yara kimin var?!

461
Aşığam, oyan, dağlar,
Al qana boyan, dağlar.
Bu yan zülmətxanadır,
Necədir o yan, dağlar?!

462
Aşıq deyər bu diyar,
Xalın deyər budu yar.
Qoydun kəmana məni,
Atdın diyarbədiyar.

463
Mən Aşıq, aynədəndir,
Aynalanmış Ay nədəndir?!
İnsan əsli topraxdır,
Toprax əsli nədəndir?!

464
Mən Aşığam, yaxşı dür,
Yaxşı sədəf, yaxşı dür.
Aşıq ki, rəy danışmaz
Yaxşısından yaxşıdür.

465
Mən Aşıq, yasdı dağlar,
Qar gəldi basdı dağlar.
Üç ay toylu, bayramlı,
Doqquz ay yasdı dağlar.

466
Aşıq, qar daşa düşər,
Yağar qar daşa düşər.
Qardaşın müşkül işi,
Yenə qardaşa düşər.

467
Mən Aşığam, üzəllər,
Sona göldə üzəllər.
Sağ əlin qaydasıdır,
Boyun qucar, üz əllər.

468
Mən Aşıq, gözümüz var,
Kababa közümüz var.
Biz də gözəl görmüşük,
Bizim də gözümüz var.

469
Mən Aşıq, nə qaradır,
Geydiyin nə qaradır.
Bivəfa yar əlindən
Gör günüm nə qaradır.

470
Mən Aşığam, şan* bağlar,
Gülü pərişan bağlar.
Elə yıxıxdı könlüm,
Arı gəlsə şan bağlar.

471
Mən Aşıq, gülən dəmlər,
Şeh düşmüş – güldə nəmlər.
Gülsün indi gülənlər,
Getdi biz gülən dəmlər.

472
Aşıq, çən gəli dağlar,
Gülü pəncəli dağlar.
Yarından ayrı düşən,
Necə dincəli dağlar?

473
Mən Aşıq, bir-bir düşər,
Atlanan bir-bir düşər.
Sənlən keçən günlərim,
Yadıma bir-bir düşər.

474
Aşıq minayə dəyər,
Xalın minaya dəyər.
İl var bir günə dəyməz,
Gün var min ayə dəyər.

475
Mən Aşığam, gül əllər,
Ağ biləklər, gül əllər.
Bir igid zəlil* olsa,
Əl çalıban güləllər.

476
Mən Aşığam, arxa var,
Götür, belin arxa var.
Qəm çəkmə, dəli könlüm,
Əli kimi arxa var.

477
Aşığam, yara baxar,
Bayqular yara baxar,
Bir göz ki, kiprik çala,
O necə yara baxar?

478
Aşığam, mərdüm azar,
Olmasın mərdümazar.
Kiprik çalma, gözlərim,
Canandan mərdüm* azar.

479
Aşıq hərayə çatar,
Müşkül hər ayə çatar.
Can çıxdı, canan gəlməz,
Həray hərayə çatar?!

480
Mən Aşıq, gözdə nə var,
Kababa közdə nə var?!
Cəmal görmək səvabdır,
Qoy baxsın gözdə nə var?!

481
Mən Aşığam, çil avlar,
Çil kəkliklər, çil avlar,
Yarın nəzik əllərin
İncitməyin, çilavlar. *(cilov)*

482
Mən Aşığam, ay nələr,
Ələ almış aynələr.
Beş gün fani dünyada,
Nələr çəkdim, ay nələr.

483
Mən Aşığam, ay gözlər,
Ülkər gözlər, Ay gözlər.
Yornux maral baxışlı,
Baxa qalmış, ay gözlər.

484
Mən Aşığam, göy bağlar,
Göy otlaqlar, göy bağlar.
Gözəlin qaydasıdır,
Ağ buxağa göy bağlar.

485
Mən Aşığam, üzüşür,
Sona göldə üzüşür.
Meh əsər, tel tərpənər,
Sayə düşər, üz üşür.

486
Mən Aşıq, qara tellər,
Ağ üstə qara tellər,
Bir namərd bir namərdin
Ömrünü qarət eylər.

487
Mən Aşığam, dər, divar,
Yetməz elə dərdi var.
Sayıl misallı könlüm,
Çox dolanır, dərdi var.

488
Mən Aşıq, maral azdır,
Avçı çox, maral azdır.
Qəm çəkmə, mənim yarım,
Ölmərəm mar alazdır.*

489
Mən Aşığam, ləkə var,
Belin götür ləkə var.
Aydan gözəl zad olmaz,
Bax, üzündə ləkə var.

490
Mən Aşıq, çəkənə ver,
Doldurub çəkənə ver. *(qəlyana işarədir)*
Bu dərdi çəkənmərəm,
Aparıb çəkənə ver.

491
Mən Aşıq, qara bağlar,
Ətlasdan* qara bağlar.
Mən ölsəm yar ağlasın,
El gəlib qarab ağlar. *(xarab)*

492
Aşığam, belə bağlar,
Kəmərin belə bağlar,
Üzmədim gül qönçəsin,
Qurusun belə bağlar.

493
Aşıq yüz ilə dəyər,
Şanə yüz telə dəyər,
İl var bir günə dəyməz,
Gün var yüz ilə dəyər.

494
Mən Aşıq, o gün eylər,
O quzey, o güneylər.
Yar yara qovuşanda,
Bayramın o gün eylər.

495
Mən Aşıq, altın avlar,
Gəncənin altı navlar.
Bəxtəvər gül başına,
Tər buxaq altın avlar.

496
Aşıq yadı nab* ağlar,
Xalın yadına bağlar.
Yenə qoca bülbülün
Düşüb yadına bağlar.

497
Mən Aşıq, göra nə var,
Horandan Göranə var.
Bir vəfalı yar ilən
Getməyə gora nə var.

498
Mən Aşıq, kim düşürər,
Kim düzər, kim düşürər?!
Qürbətdə ölən kəsi
Qəbirə kim düşürər?!

499
Mən Aşıq, qana dişlər,
Quş uçar, qanad işlər.
Bir öpüm ağ buxaqdan,
Qoy batsın qana dişlər.

500
Aşıq, mənəm qalalar,
Bürcsüz olmaz qalalar.
Çünkü gedərgi olduq,
Sağlıq ilən qalalar.

501
Mən Aşığam, yaz göndər,
Payız göndər, yaz göndər.
Kağız əgər tapmasan
Yarpaq üstə yaz göndər.

502
Mən Aşıq, sənə dağlar,
Şeh düşmüş sənə, dağlar.
Yar əlindən tutaydım,
Çıxaydım sənə, dağlar.

503
Aşıq so* deyib ağlar,
Sünbül su deyib ağlar.
Dəryada bir gül bitib,
O da su deyib ağlar.

504
Aşıq yaramı bağlar,
Təbib yaramı bağlar.
Könül istər, əl çatmaz,
Kəsib yaramı bağlar.

505
Mən Aşıq, gözəl oxlar,
Tutubdu gözəl oxlar.
Çirkin oxlaya bilməz,
Oxlasa gözəl oxlar.

506
Mən Aşığam, yüz yıl var,
Əlli il var, yüz yıl var.
Fələk bildigin eylər,
Sən istərsən yüz yalvar.

507
Mən Aşıq, üzəngilər,
Tutubdur üzəngilər. *(üzəngini tutmaq)*
Yarın nəzik ayağın,
Əzməyin, üzəngilər.

508
Aşıq gecədən gedər,
Mürğün gecə dən gedər,
Yarın fikri, xəyalı
Məni gecə dəng edər.

509
Bağban olan gül əllər, *(əlliyər)*
Sona gözlüm, gül əllər,
Aşıq deyər qanmaza
Qah-qah çəkib güləllər.

510
Aşıq başına bağlar,
Zülfün başına bağlar.
Bülbül öldü, gül soldu,
Qaldı başına bağlar.

511
Mən Aşıq, necə gözlər,
Ox atan necə gözlər?!
Bir göz ki, kiprik çala
Yar yolun necə gözlər?!

512
Mən Aşığam, dəryalar,
Keçdik, gəldik dəryalar.
Bəxtəvər zülfün ucu
Ağ buxaqdan dər yalar.

513
Mən Aşığam, güli tər,
Bağban saxlar güli tər.
Yar yara yetişəndə,
Dodaq titrər, dil itər.

514
Dur atlan Xaldana var,
Mürğ üçün xaldana var,
Əmməli ləbdir, Aşıq,
Buxaqda, xalda nə var?!

515
Mən Aşıq, yara sızlar,
Bayqular yara sızlar,
Yaralının dərdini
Nə bilər yarasızlar?!

516
Mən Aşıq, yara yetər,
Bayqular yara yetər.
Nə burda dərd bilən var,
Nə əlim yara yetər.

517
Mən Aşıq, şirin eylər,
Pustanın* şiri* neylər.
Yar özü şirin olsa,
Hər işin şirin eylər.

518
Mən Aşıq, göz izi var,
Kababda köz izi var.
Sənə yadlar baxıbdır,
Üzündə göz izi var.

519
Aşıq, yana-yana dur,
Xalın yana-yanadur.
Baxdın məni görmədin,
Ah çək, yana-yana dur.

520
Aşıq xalqa nayıbdır,
Əmir xalqa nayıbdır.
Zənəxdan qırmızıdır,
Məgər xal qanayıbdır?!

521
Mən Aşığam, mərdə var,
Köçsən təzə yurda var.
Tox tülküyə varınca,
Ac da olsa, qurda var.

522
Aşıq çırağı neylər,
Yanan çırağı neylər?! *(özü yanan çırağı neylər)*
Bir çıraq Haqdan yana,
O çıraq yağı neylər?!

523
Mən Aşıq, gözüm işlər,
Kababa közüm işlər.
Baxaram yar yoluna,
Nə qədər gözüm işlər.

524
Qarşıda yay işin gör,
Yaz ötər, yay işin gör.
Kamil ustanın, Aşıq,
Ya özün, ya işin gör.

525
Aşıq yaxşıdan gözlər,
Mürğün yaxşı dən gözlər,
Baxdıqca şirin düşər,
Doymaz Yaxşıdan gözlər.

526
Aşıq, yaradanə var,
Bayqu yara da nə var.
Yaradanım yar olsa,
Belə yarada nə var.

527
Mən Aşığam, yay bağlar, *(yayda bağ)*
Nar giləsin yay bağlar. *(nar yayda gilə tutar)*
Qaşın gözün təhrində,
Usta gəlib yay bağlar. *(yay düzəldər)*

528
Aşığam, yarə çapar,
Atlanan yarə çapar.
Canım yaralanıbdır,
Yetişsin yarə çapar.

529
Mən Aşıq, qərar eylər,
Oxuyan qərar eylər.
Canansız can saxlamaq,
O necə qərar eylər?!

530
Aşıq birinci gözlər,
Sərraf, bir inci gözlər.
Dost yoluna baxmaqdan,
Sən də bir inci, gözlər.

531
Mən Aşıq, xara* bağlar,
Bayqular xara bağlar.
Mən ölüm yar ağlasın,
Özgələr xarab ağlar.

532
Aşıq yad olar, gedər,
Xalın yad olar, gedər,
Göz görməyə-görməyə,
Könül yad olar gedər.

533
Mən Aşıq, ay dərdə yar, *(ay dərdə şərik)*
Xəstə könül dərdə* yar,
Getmə gözüm önündən,
Məni salma dərdə, yar.

534
Mən Aşıq, gül səd* ağlar,
Gül peykan,* gül sədağlar.*
Səndən ayrı gözlərim,
İnan, gülsə də ağlar.

535
Mən Aşığam, belə yar,
Çənbər* salmış belə yar.
Çək cəbrin,* götür qəhrin,*
Ələ düşməz belə yar.

536
Mən Aşığam, gül əllər,
Bağban bağdan gül əllər.
Dəryacan əqlin olsa,
Yoxsul olsan güləllər.

537
Mən Aşıq, qara gözdür,
Oxuyan Qaragözdür.
Məni fələk əyməzdi,
Sən əydin, qara gözdür. *(günahkar gözdür)*

538
Aşıq, haramı dağlar,
Təbib yaramı bağlar.
Vurulan qıfılbənddir,
Kiliddar haramı bağlar?!

539
Mən Aşıq, yara bağlar,
Yar meylin yara bağlar.
Yaramı yar bağlasın,
Yar yaxşı yara bağlar.

540
Aşığam, qəribü-zar,
Tikilmiş qərib azar.
Zülfünün tünlügünə
Düşməsin qərib, azar. *(saçın tünlüyündə adam aza bilər)*

541
Budu gəldi a çapar,
Qəmzən məni ha çapar.
Bağlı gördün Aşığı,
Tut qolundan aç, apar.

542
Aşıqda yox nədən var,
Mürğ ağzında nə dən var.
Dəyirman hey dən deyir,
Nə ulaq var, nə dən var.

543
Gətir öldür çəpişlər,
Xeyrə dönsün çəp işlər.
Gözüm yaşından, Yaxşı,
Dərya dolar çəp işlər.

544
Aşıq gecə dəng edər,
Karvan gecədən gedər,
Gecə uzun, həmdəm yox,
Zəhləm gecədən gedər.

545
Aşıq yamana dönər,
Qəddim kamana dönər.
Ondan üz döndərmənəm,
Ay ata, zamana dönər.

546
Qarşıda yaxşı dağlar,
Keçməyə yaxşı dağlar.
Hər kəsin bir dağı var,
Aşığı Yaxşı dağlar.

547
Xoş gördük, ay qonaqlar,
Gün qonaq, Ay qonaqlar.
Demən yoxsuldu Aşıq,
Sizi bir ay qonaqlar.

548
Aşıq qaraman çəkər,
Xalın qara man çəkər.
Yarın soyuq üzündən,
Dağda qar aman çəkər.

549
Qarşıda yaxşı bağlar,
Meyvəli, yaxşı bağlar.
Aşığın sınıq könlün,
Bağlasa, Yaxşı bağlar.

550
Aşıq kaşana gedər, *(saraya)*
Aşar Kaşana gedər.
Sinəmdəki nisgilin,
Gora nişana gedər.

551
Aşığın dağ gücü var,
Körpünün tağ gücü var.
Yaxşı dərdi çəkirəm,
Dizimdə Haqq gücü var.

552
Gəl, Aşıq, yaxa suvar,
Ya qəlpi, ya xası var.
Fələk əlin dəyməmiş
Gör kimin yaxası var.

553
Mən Aşıq, qəməridir,
Camalın qəməridir.
Atı məhmiz öldürür,
İgidi qəm əridir.

554
Aşıq dərdi varaqlar,
Sızlar, dər-divar ağlar.
Ağlamaz bica yerə,
Hicran dərdi var, ağlar.

555
Qəriblik yaman olur,
Savrulur, saman olur.
Nə bir haraya çatan,
Nə də bir aman olur.

556
Aşıq deyər yüz yal var,
Bir gədik var, yüz yal var.
Fələk bildiyin eylər,
Yüz ətəklə, yüz yalvar.

557
Budur gəldi ha çapar,
Qəmzən məni ha çapar.
Boynumda qəm zənciri,
Kəlbim deyə aç apar.

558
Mən Aşıq, ayaq açar,
Buluddan Ay a qaçar.
Yaxşının sorağında,
Xəyalım Aya qaçar.

559
Mən Aşıq, badamcalar,
Bağında badam calar.
Zülfün Yazı şahmarı,
Qayıdar adam çalar.

560
Görünən minarələr,
Məscidlər, minarələr.
Əbcədi* bilməyənlər,
Quranı min aralar.

561
Ev tikən dayaq alar,
Tifilə dayə qalar.
Yaxşısız ölər Aşıq,
Bir uçuq dəyə qalar.

562
Buxarı qurum saxlar,
Od yanar qurum saxlar.
Deyirəm ar libasın
Geyməsin qurumsaxlar.

563
Aşığa oda dağlar,
Düşməsin oda dağlar.
Yaxşı yar fərağında,
Eyləyər o dad ağlar.

564
Qarşımızda ya dağlar,
Ya düyünlər, ya dağlar.
Aşıq, Yaxşı ölübdü,
Dost inildər, yad ağlar.

565
Aşıq dərdə nə bağlar,
Xalın dərdə nə bağlar?!
Gedək dərdli yanına,
Görək dərdə nə bağlar.

566
Aşıq qaz binə bağlar,
Meylin Qəzvinə bağlar.
Gözüm yaşı göl olar,
Ördək, qaz binə bağlar.

567
Xan dağlar, paşa dağlar,
Tək dağlar, qoşa dağlar.
Yaxşı Aşıq bağrını,
Qızdırar maşa dağlar.

568
Bu yollar, yaxşı yollar,
Getməyə yaxşı yollar.
Aşığa can dərmanı
Yollasa, Yaxşı yollar.

569
Əqlimi dağıdanlar,
Məni bir dəxi danlar.
Şikar qaçırdar Aşıq,
Qayıdar dağı danlar.

570
Çay üstə cəm quzular,
Tükləri nəm quzular.
Mən Aşıq, qəm çobanı,
Dəyəmdə qəm quzular.

571
Aşıq, ha yara qanar,
Səg rəqib yaraq anar.
Əl vurma, naşı təbib,
Sinəmdə yara qanar.

572
Aşığındır o davar,
O da dövlət, o da var.
Görünür yar obası,
Yetim könlüm, oda var.

573
Aşığam, az arım var,
Dərdim var, azarım var.
Səni görsəm sağallam,
Görməsəm ha zarım var.

574
Nə dağım, nə Yazım var,
Nə lələk, nə yazım var.
Könlü yetim Aşığam,
Nə qışım, nə yazım var.

575
Bir Tər-tər, bir İncə var,
Karvan çək birincə* var.
Aşığın gizli dərdi
Dağların birincə var.

576
Şirvanda Qəbələ var,
Şəki var, Qəbələ var.
Hicran düşkünü Aşıq,
Əlində qəbalə* var.

577
Mən Aşığam, bir ay var,
Bir ülkər var, bir Ay var.
Gündə gördüyüm yarı,
Görməmişəm bir ay var.

578
Canımın azarı var,
Ağrıyır, azarı var.
Aşığın şan bağrına
Qonmamış az arı var.

579
Mən Aşıq, qəmə suvar,
Qanımla qəmə suvar.
Yaxşının kəlbi qanıq,
Ağzında qəməsi var.

580
Sirrini anladan yar,
Üzünü danladan yar.
Aşığa daş atdırıb,
Başını qanladan yar.

581
Aşıq, yarın yaxşı yar,
Cərrah, yaram yaxşı yar.
Tanrım ürcah* eyləsin
Yaxşı yara yaxşı yar.

582
Ya Gorandı, ya Dəllər,
Aşıq tutmaz yad əllər.
Belə sərxoş gəzənin,
Şamamasın yad əllər.

583
Mən Aşığam, ay mələr,
Bulud altdan Ay mələr.
Dəryada bir gül bitib,
Su deyibən ay mələr.

584
Mən Aşıq, sağı dilər,
Qədəhi saqi dilər.
Gözəl anam, mərd atam,
Bir zaman sağıdılar.

585
Aşıq, düşər sərinlər,
Gün batar yer sərinlər.
Gözəl maya dalınca
Ovsarladıb sərin nər.

586
Gözlərin yol gözləyər,
Gözlərinə göz dəyər.
Dili laldır Aşığın,
Hər nə desə göz deyər.

587
Səməndim yeriyəndir,
Qamçısız yeriyəndir.
Dərdin Aşıq qəlbində,
Qoy qalsın, yeri gendir.

588
Yaram var sızağandır,
Sızıldar sızaq andır.
Yar adı çəkmə, Aşıq,
Duysalar, sizə qandır.

589
Aşıq, hikmət qərib sirr,
Aça bilməz qərib sirr.
Xəyalın gəlməyən gün,
Aşıq ağlar, qəribsir.

590
Aşıq üzü zərd* olar,
Sərraf meyli zərdə olar.
Rəqibi əfi çalsın,
Canın alsın zərdablar.

591
Aşığın çardağı var,
Bərşadın çar* dağı var.
Çərxi dönmüş fələyin
Sinəmdə çar dağı var. *(çalın-çarpaz dağ)*

592
Başından börük düşər, *(börk)*
Torpağa hörük düşər.
Bir üz göstər aşığa,
Qapından perik düşər.

593
Aşıq düyünü neylər,
Zülfün düyünü neylər?!
Qərəz* səni görməkdi,
Yağı, düyünü neylər?!

594
Mən Aşıq, gəzindilər,
Ox yayın gəzin* dilər.
Canım bir dərdə düşüb,
Dərmanı gəz indilər.

595
Dağların vay qarıdır,
Fərhada vay qarıdır.* *(mağara)*
Aşıq tez qarımazdı,
Onu bu vay qarıdır.

595-1
Aşıq da ayin dilər,
Bədr oldu Ay indilər.
Yaxşıynan keçən günlər
Olaydı ay indilər.

595-2
Gəldi bu yaxşı suvar,
Gir bağa yaxşı suvar.
Aləmin malı, mülkü,
Aşığın Yaxşısı var.

595-3
Qarşımızda ya dağlar,
Ya dügünlər, ya dağlar.
Aşıq, Yaxşın ölübdü,
Qohum gülər, yad ağlar.

595-4
Mən Aşığam, səravlar,
Sər dəhnələr, səravlar,
Heyf sənə, a tərlan,
Ovlağında sar avlar.

595-5
Aşığam abı dağlar,*
Göy geymiş abı dağlar.
Sailə cavab verməz
Oturmuş abid ağlar.

595-6
Qarşımızda bir dağlar,
Bir dügünlər, bir dağlar.
Keykidər* evli Aşıq,
Bir sən qaldın, bir dağlar.

595-7
Qarşımızda Başhasar,
Qara zülfün başa sar,
Tərlanı bəslə, Aşıq,
Ov çıxarmaz başa sar.

595-8
Mən Aşığam, Hata var,
Dəşthaşdan Hata var.
Cürə avın itirmiş
Özün yetir, ha tavar.

595-9
Mən Aşığam, gül də var,
Aran da var, gül də var.
Yaxşının iyi, Aşıq,
Varsa, yenə güldə var.

595-10
Qarşımızda Birün var,
Gey donunu, bürün var.
Dəmdəm sızıldar Aşıq
Görən desin bir ün var.

595-11
Aşıq yaramı gedər,
Bayqu yaramı gedər?!
Səndən dərman gəlməsə,
Məndən yaramı gedər?!

595-12
Mən Aşığam, birə var,
Biri deyib birə var.
Rüstəm Zal olsan axır
Fələk səni bir ovar.

595-13
Aşıq, eldə bir dindir,
Al sazını bir dindir.
Yaxşı, bir səvab eylə,
Al könlümü, bir dindir.

595-14
Aşıq bu dalı gəzər,
Bülbül bu dalı* gəzər.
Çirkin özün aldadar,
Gözəl budala* gəzər.

595-15
Aşığam,necə dağlar,
Culfalar* necə ağlar. *(ağartmaq)*
Can, çıxma canan gəlsin,
Gör, səni necə ağlar.

595-16
Aşığam, bir ün var,
Gey xirqəni* bürün var.
Gah-gah sızıldar Aşıq,
Görən desin bir ün var.

595-17
Aşığam, düz edən var,
Əyrini düz edən var.
Kəkliyə xəbər olsun
Yensinlər düzə, dən var.

595-18
Görükən Şahdağıdır,
Dağlarda şah dağıdır.
Aşığın qəm ləşkərin
Dağıtsa, şah dağıdır.

595-19
Qarşıda zənginə var,
Ər bağrın zəngin əvar.
Yükü nər çəkər, Aşıq,
Sızıldar zəngə nə var.

595-20
Dağ başı dolu gözlər,
Qar yağar, dolu gözlər.
Aşığı candan eylər
Səndəki dolu gözlər.

595-21
Əldə əsa dəm eylər,
Tutmuş əsa qəm eylər.
Həmdəmin xas olsa, Aşıq,
Səni xas adam eylər.

595-22
Aşığam, yarqan eylər,
Su axar, yarqan eylər.
Mənim məlul olduğum
Eşitsə, yar qan eylər.

595-23
Gəzbili gəznisidir,
Ox yayın gəznisidir,
Bir dərdə düşmüş Aşıq
Dərmana gəznisidir.

595-24
Mən Aşığam, dan dilər,
Axşam dilər, dan dilər.
Öldürdülər aşığı,
Hamılıqla dandilər.

## --S--

596
Mən Aşıq, oda salmas,
O Xoydu, o da Salmas.
Heç pərvanə mənim tək,
Özünü oda salmas.

## --Ş--

597
Mən Aşıq, o da yanmış,
Od düşmüş oda yanmış.
Əlim dost ətəyindən
Üzdü bir oda yanmış.

598
Mən Aşığam, həmağuş,
Həm bihuş ol, həm bahuş.*
Yarəb, haçan olurmu,
Yarnan olaq həmağuş?!

599
Mən Aşığam, bularmış,
Əcəb çəşmə sularmış.
Əzrayıl yalan imiş,
Canlar alan bularmış.

600
Yamansan, yaman, a qış,
Qaraynan yaman, a qış.
Kəsdin Aşıq yolunu,
Açmısan yaman ağuş.

600-1
Mən Aşıq, gödək imiş,
Gün gündən gödək imiş.
Boyun bir sərv ağacı,
Ömrün nə gödək imiş.

## --T--

601
Mən Aşığam, ya qismət,
Ya nəsib və ya qismət.
Sənlə keçən günləri,
Bir də görüm, ya qismət.

602
Dur atdan, a qız Nabat,
Dəyməyib ağza nabat.
Bir busə ver Aşığa,
Dili qənd, ağzı nabat.

602-1
Aşığam, səksən ayat,
Oxurlar səksən ayat.
Əzrayıl qonaxlıq canım,
Səksənə-səksənə yat.

## --U--

603
Mən Aşıq, bəla budu,
Bal budu, bəla budu,
Bəlalar çəkən başım,
Çək, indi, bəla budu.

604
Aşıq, qara zil oldu,
Xalın qara zil oldu.
Səndən ayrı bir günüm
Mənə qərəz il oldu.

605
Piyalə dolu xubdu,
İçməyə dolu xubdu.
Aşıq yar gəzən yeri,
Görübdü, doluxubdu.

606
O yar mənim yarumdu,
Yamanlar da yar umdu.
Aşığın qaçaq yeri,
Ya İrandı, ya Rumdu.

607
Bu gələn ağ Hasıdı, *(Həsidi)*
Dağ dağın arxasıdı.
Yar bağı yanır, Aşıq,
Göz yaşın arxa sudu.

608
Bağların aramı su,
Aşığa haramı su.
Yamandan betər kəsib,
Yaxşıynan aramı su.

609
Aşığın yüzdür işi,
Sərrafın yüz dür işi.
Ayın bulud yarası,
Yaxşının üz duruşu.

609-1
Aşığam, vay da olu,
Şadlıq da, vay da olu.
Dost zülfünün quzamında
Məni döydü vay dolu!

609-2
Aşığam, közüm yoxdu,
Kababa közüm yoxdu.
Rəqibin nəhs yüzünə
Baxmağa gözüm yoxdu.

609-3
Açığam, tət-tək onu,
Yeməyə tək-tək onu.
Qəmdən sızıldar Aşıq
Qoy gəlsin tək-tək onu.

## --Ü--

610
Gözümdə nəm üşüdü,
Həm yandı, həm üşüdü.
Yarımı qəmli gördüm,
Könlümdə qəm üşüdü.

611
Ay Hasan gördü günü,
Gör dərdi, gör dügünü.
Cənnətdə görməz Aşıq,
Qoynunda gördügünü.

612
Mən Aşıq, naçaq düşdü,
Zülf üzə nə çağ düşdü?!
Könül yar sorağında,
Dərd çəkdi, naçağ düşdü.

612-1
Aşıq bir buğda gördü,
Buğdanı dağda gördü.
Gözəli Çanaqlıda,
İgidi Tuğda gördü.

612-2
Ördək göldə xub üzdü,
Xub çalxandı, xub üzdü.
Gözəldə gözəl, Aşıq,
Xub surət və xub üzdü.

612-3
Aşığam, o güzgünü,
İstəməz o güzgünü.
Yara mehman ol, Aşıq,
Qış gecəsi, güz* günü.

## --Y--

613
Aşığa gecədən vay,
Oxuram gecədən vay,
Gecə məndən gileyli,
Mən sənsiz gecədən, vay.

614
Mən Aşığam, gül, ey-vay,
Bülbül, ey-vay, gül, ey-vay.
Bir bağa bağban oldum,
Heç dərmədim gül, ey-vay.

615
Mən Aşıq, bu dağ haray,
Dumandı bu dağ hər ay.
Bülbül yuva qurunca,
Qurudu budağ haray.

615-1
Qarşımızda Nobatay,
Şəki, Şirvan, Nobatay.
Gələn gedərmiş, Aşıq,
Bizə gələr nobat ay.

615-2
Aşığam, arxa haray,
Dəhnədən arxa haray.
Qərib igid, yad ölkə
Bağırır arxa haray.

## --Z--

616
Mən Aşıq, qara Niyaz,
Ağ üzdə qaranı yaz.
Hər kağızın başında,
Mən bəxti qaranı yaz.

617
Mən Aşığam, gülə naz,
Bülbül eylər gülə naz.
Dünya yaman dünyadır,
Ağlayan çox, gülən az.

618
Mən Aşıq, lalə yalqız,
Gül yalqız, lalə yalqız.
Qorxuram qərib öləm,
Cənazəm qalə yalqız.

619
Mən Aşıq, xilas olmaz,
Gül xardan xilas olmaz.
Nə bəlalı quş oldum,
Dərd məndən xilas olmaz.

620
Mən Aşıq, gözəl ayaz,
Meh əsər, gözəl ayaz.
Qələm, qurbanın olum,
Gözəli gözələ yaz.

621
Mən Aşığam, qalasız,
Şəhər olmaz qalasız.
Mən ki, getməli oldum,
Sağlıq ilən qalasız.

622
Mən Aşıq, sərin əyaz,
Meh əsər sərin əyaz.
Dosta gələn qadanı,
Düşmənin sərinə yaz.

623
Mən Aşığam, sarı qız,
Sarı köynək, sarı qız.
Sinən tabutum olsun,
Saçın ilən sarı, qız.

624
Mən Aşığam, Xan Araz,
Sultan Araz, xan Araz.
Çayın, çeşmən qurusun,
Mənim kimi yan, Araz.

625
Mən Aşığam, yüz il gəz,
Sevdalısan üzül gəz,
Vəfalı həmdəm üçün
Heç gəzməsən yüz il gəz.

626
Mən Aşığam, ala gəz,*
Ala yaylaq, Ala gəz.
Getmə gözüm önündən,
Canım ala-ala gəz.

627
Mən Aşıq, üz yerdən üz,
Sonalar üz yerdən üz,
Kipriklər kölgə salmış,
Yarılmış yüz yerdən üz.

628
Mən Aşıq, mənəm sənsiz,
Məcnuna tənəm sənsiz
Dağda keyik* mələsə,
Bilgilən mənəm sənsiz.

629
Mən Aşığam, möhür üz, *( möhür üz – öpülməmiş üz)*
Gülü bağdan möhür üz,
Sinəndir caynamazım,
Zülfün təsbeh, möhür üz.

630
Aşığam, üz yerdən üz,
Sonalar üz yerdən üz.
Bilsəm canan gəldigin,
Döşərəm yüz yerdən üz.

631
Mən Aşığam, dərdin üz,
Gülü bağdan dərdin – üz.
Ya məni candan elə,
Ya canımdan dərdin üz.

632
Mən Aşığam, yana üz,
Ördək, göldə yana üz.
Necəsən bir ah çəkim,
Yaş tökülə, yana üz.

633
Mən Aşıq, yaza niyaz,*
Al qələm yaz, a Niyaz!
Bülbül gülün yaprağın
Saxlamış yaza niyaz.*

634
Aşığam, quranı yaz,
Ağ üstə qaranı yaz.
Al ələ qələm-dəvat,*
Mən günü qaranı yaz.

635
Axıb gedən qəm Araz,
Məni aldı qəm Araz.
Yaxşıdan sonra Aşıq,
Dərd, möhnət, qəm, Araz.

636
Mən Aşıq, gəlməsin yaz,
Xəstənin kəlməsin yaz.
Bülbül öldü, gül soldu,
Gəlməyir gəlməsin yaz.

637
Mən Aşığam, güvəngəz,
Dağda bitər güvəngəz.
Nə mala etibar et,
Nə qardaşa güvən gəz.

638
Ala gözün altı yüz *(üz)*
Dərd altı min altı yüz.
Aşıq, biz hicran qulu,
Qəm ayağı altıyız.

639
Aylı gecə, süd ayaz,
At kişnədir suda yaz.
Aşığın gözlərində
Dağlar təpə, su dayaz.

640
Düzlər duman, Kirs ayaz,
Aşıq, dərdin Kirsə yaz.
Həkəridə gül açmaz,
Yetişincə Kirsə yaz.

641
Aşığam, yasəmən siz,
Ya sərv, ya səmənsiz.
Ərşdə bir mələk ölsə,
Getməzlər yasa mənsiz.

642
Aşıqdan söz umarsız,
Kababa köz umarsız.
Baxdın yarı görmədin,
Arsızsan, gözüm, arsız.

642-1
Aşıq yay işin bilməz,
Kaman yay işin bilməz.
Yapalaq tərlan olmaz,
Süzüşün, yayışın bilməz. *(qanad süzüb yaymaq)*

642-2
Mən Aşığam, vərdin* üz,
Gülü bağdan dərdin üz.
Ya məni candan eylə,
Ya canımdan dərdin üz!

642-3
Mən Aşığam, saf ayaz,
Bulud yoxdur, saf ayaz.
Aləm səf-səf olanda
Məni sizin səfə yaz.

642-4
Ülkərin Ayı batmaz,
Tək qurdun Ayı batmaz.
Özündə ayıb bilən
Özgəyə ayıb atmaz.

642-5
Mən Aşığam, başa düz,
Dara zülfün, başa düz,
Mən hicran dəlisiyəm,
Ağlım gəlməz başa düz.

642-6
Mən aşıq kasad olmaz,
Mərd əli kasad olmaz.
Yüz namərdin çörəyin
Doğrasan kasa dolmaz.

# SALMAZ MÜMTAZIN ƏLDƏ ETDİYİ CÜNGLƏR



Bu şəkil XVIII əsrin əvvəllərinə aiddir



Bu şəkil XVIII əsrin əvvəllərinə aiddir



Bu şəkil XVIII əsrin ikinci yarısına aiddir

# *TƏXƏLLÜSSÜZ BAYATILAR*

## --A--

1
Əlində yarım alma,
Tutubdu yarım alma.
Alırsan canımı al,
Əlimdən yarım alma.

2
Dağların başı qara,
Dibi göy, başı qara.
Bir qız mənə ox vurdu,
Gözü göy, qaşı qara.

3
Gün çıxdı dağ başına,
Örtübdü ağ başına.
Könlü şamama sevən
Dolansın tağ başına.

4
Boyuna kim sədağa,
Kim qurban, kim sədağa.
Mən Məcnun varisiyəm,
Qoymanam kimsə dağa.

5
Dan yeri qızaranda,
Qızıl tək qızaranda.
Qalsa da oğlan qalsın,
Qalmasın qız Aranda.

6
Qalanız iraq qala,
Tikilmiş iraq qala.
Qorxuram ayrı düşəm,
Yar məndən iraq qala.

7
Çırağın gizlin yana,
Alışa gizlin yana.
Canım bir bivəfanın,
Oduna gizlin yana.

8
Bir də gəldik Qazana,
Haqq ver qəbrim qazana.
Gələr insan başına
Hər nə etsə qazana.

9
Piyalan dolan yara,
Doldur ver, dolan yara.
Könül nə bulanırsan,
Sənsən yad olan yara.

10
Dişin bənzər ya sına, *(sin hərfi)*
Hərf içində yasına.
Aç zülfünün tumarın,
Bax könlümün yasına.

11
Qarşıda əli yara,
Yol düşdü Əliyara.
Məni yardan ayranın
Yetməsin əli yara.

12
Yol düşdü di Mişada, *(Məşhəd)*
Sən də gəl, de mişada. *(məşədiyə)*
Yaxşının vay xəbərin
Yazıqdır demə, Şada.

13
Başmaq qoyun, didara, *(burada: didar- görüş, ziyarət etmə)*
Yu, zülfünü did, ara.
Qan olmadı, sevdiyim,
Dəydi didar didara. *(burada: üz, camal)*

14
Gəncənin ocağında,
Şam yanar bucağında,
Baş qoyum dizin üstə,
Can verim qucağında.

15
Ərzəm yetməz ox, ona, *(ey vay)*
Qulluğunda oxuna.
Dilbər nişanə dikmiş
Məni müjgan oxuna.

16
Ziyadam başdan yara,
Artıbdı başdan yara.
Məni həsrət yaratdı,
Yaradan başdan yara.

## --C--

16-1
Girsən o yana mac,
Gav* çəkər o yana mac.*
Xəyalınla yatmışdım,
Qorxuram oyanam ac.

## --Ə--

17
Bağında üzüm gilə,
Yeməyə üzüm gilə.
Evi yıxılsın fələyin
Qoymadı üzüm gülə.

18
Kəklik, daşda səksənə,
Yaş yetirmiş səksənə.
Nə ola canan gələ,
Yıxıq könlüm səksənə.

19
Qarşıda yüz il belə,
Sonalar düzil belə,
Vəfalı yar yad olmaz,
Dolansa yüz il belə.

20
Dan yeri sökülәndә,
Saç üzә tökülәndә.
Şeh düşmüş gülә bәnzәr
Gül üzü öpülәndә.

21
Qәribәm bu vәtәndә,
Gözüm yoldan ötәndә.
Qәriblik yaman olur,
Baş yastığa yetәndә.

22
Bu dağın o yüzündә,
Ceyran otlar düzündә.
Mәn yarımı tanıram,
Qoşa xal var üzündә.

23
El gәlibdi Tәrtәrә,
Xaçın üstә tәrtәrә.
Üz qoyum üzün üstә,
Qoy qarışsın tәr tәrә.

24
Evlәr düşdü yad üzә,
Tök zülfünü yad üzә.
Sәn ömrüm qönçәsisәn,
Qoyarammı yad üzә.

25
Yol düşdü bu diyarə,
Təbibsən – budi yarə.
Çor desə, can deyərəm,
Sözüm tək budi yarə.

26
Reyhanı əkdim düzə,
Göyərdi qalxdı dizə.
Allah, sənə çox şükür,
Yar çevirdi üz bizə.

27
Tanrı, məni quş eylə,
Qanadım gümüş eylə.
Dar doqqazda, dar yolda
Yarı mənə tuş eylə.

28
At məni gün dağinə,
Rəqib, gündə ağinə.
Leyli gəlsə, Məcnunun
Doğardı gün dağinə.

29
Ay getdi batan yerə,
Mələklər yatan yerə.
Sinəmi nişan qoyaram
Yar oxun atan yerə.

29-1
Mən aşıq gülə bir də, (*gülmək*)
Şeh düşmüş gülə bir də.
Bir quş olub uçaydım,
Qonaydım Güləbirdə.

**--X--**

30
Göydən gedən quşa bax,
Qanadları muşa* bax.
Aləmə yaz gələndə
Bizə gələn qışa bax.

31
Göydən gedən quşa bax,
Caynağında muşa bax.
Aləmə yağış yağdı,
Bizə yağan daşa bax.

32
Ay doğdu bircə barmax,
Doğduqca bircə barmax.
Mən sevdim sən apardın,
Pis dilə keçsin qarmax.

**--I--**

33
Əldə təzə nevbarı,
Tutmuş təzə nevbarı.
Cənnət kimi qoynunun
Çıxmış təzə nevbarı.

34
Ağcabədi duz dağı,
Ceyran otlar düz dağı.
Yaxşı çəkdin sinəmə
Əlif təki düz dağı.

35
Qızıl iynənin sapı,
Görünür sizin qapı.
Səni məndən eyləyən
Dilənsin qapı-qapı.

36
Bağında tut nevbarı,
Yeməyə tut nevbarı.
Yığışanda bağçaya
Adımı tutun barı.

37
Ağacın əzəl barı,
Yeməyə əzəl barı.
Aşnalığın beləymiş,
Kəsəydin əzəl barı.

38
Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq bulaq, göy çəmən,
O da marala qaldı.

39
Şəkinin ağ alması,
Ağ olur ağ alması.
Yarım gələnə qaldı
Yaramın sağalması.

40
Arazı buz bağladı,
Yanı yarpız bağladı.
Məni gəlin oxladı,
Yaramı qız bağladı.

41
Görükən yar dağıdı,
Sinəmdə yar dağıdı.
Qəm ləşkərin üstümdən
Dağıtsa, yar dağıdı.

42
Kabilin bu dağları,
Gül əkmiş budağları.
Lalə tək getməz candan,
Cananın bu dağları.

43
Gedirəm yolum dağdı,
Gör nə nəşəli bağdı.
Çəkərəm yar qəhrini
Nə qədər canım sağdı.

44
Otağında o xalı,
Döşənibdir o xalı.
Haray zülfün əlindən,
Qoymaz görəm o xalı.

45
Gəldi bir ay ağ atdı,
Kəmandar* ay oq atdı.
Doğdu günəş camalın
Şöləsin Aya qatdı.

46
Bir yer var Eləqalı,
Əkməyən elə qalı. *(burada: elə möhtac qalar)*
Dərdimi dərd bilməzə
Demənəm, elə qalı.

47
Görükən Korandımı,
Yox şitil karandımı?!
Sinən məshəfim* olsun,
Əl basım gör andımı.

48
Gəmim dəryada qaldı,
Gözüm dəryada qaldı.
Ölməyimdən qorxmuram,
Nazlı yar yada qaldı.

49
Geyibsən alacanı,*
Tər saxla alacanı.
Yarın ala gözləri
İstər ki, ala canı.

50
Minmisən ağca dayı,*
Sür, getsin, ağca dayı.
Xəyalım dost yoluna
Salıbdır ax cidayı.

51
Bağında gül anbarı,
Şeh düşmüş gül anbarı.
Evi yıxılsın fələyin,
Qoymadı güləm barı.

52
Geydiyin saf aldı,
Gey, sallan, saf aldı.
Yardan xəbər gəlməsə,
Qəm məni saf aldı.

53
Qarşıda gözəl Dadı,
Xub olu gözəl dadı.
Elə sən ilən getdi,
Ağzımın gözəl dadı.

54
Qarşıda oda damı,
O cənnət, o da damı.*
Elə ki, yar yandırar,
Yandırmaz od adamı.

55
Geydiyin bəsdərayı,
Katiblər bəsdər ayı.
Fələk hansı bürcündə
Sənin tək bəsdər Ayı.

56
Bu gələn taləbayı,
Yoxsula taləb ayı.
Qoyub yarın camalın
Eləmə taləb Ayı.

57
Əlində yar alması,
Tutubdur yar alması.
Yaxşı olur yar könlün
Yar yıxıb yar alması.

58
Bülbül hanı, gül hanı,
Bülbül gülün mehmanı.
Gəldim səni görməyə,
Danışmağa dil hanı?!

59
Gəldi bir ay ağ aydı,
Kəmandar ay ağaydı.
Doğdu günəş camalın,
Şöləsindən Ay ağdı.

60
Qarşıda didəm xalı,
Döşənmiş didəm xalı.
İstərəm tərlan olum,
Ağ üzdən didəm xalı.

## --İ--

61
Burdan bir atdı getdi,
Atın nallatdı getdi.
Ay kimi şəfəqləndi,
Gün kimi batdı getdi.

62
Haray bir həkim dərdi,
Doğruyum töküm dərdi,
Nər kimi maya çəkməz,
Kim ilən çəkim dərdi.

63
Bu dağlar olmayaydı,
Saralıb solmayaydı.
Ölüm Allah əmridir,
Ayrılıq olmayaydı.

64
Gözlərin xumar indi,
Yaş tökər yumar indi.
Gözüm bir göz görübdür,
Aşnalıq umar indi.

65
Dərya, səndən kim keçdi,
Kim qərq oldu, kim keçdi,
Yadıma kimlər düşdü,
Xəyalımdan kim keçdi.

66
Bu dağlar kömürdəndi,
Keçən gün ömürdəndi.
Gözündən vəfa umma,
Ürəyi dəmirdəndi.

67
Mən gələndə yaz idi,
Çaylar dolu qaz idi.
İstədim nama yazım,
Mürəkkəbim az idi.

68
Çağıraram, a Səfi,
Süleymanı, Asəfi.
Keçdi sınıq sinədən,
Müjganının a səfi.

69
Ay doğdu qəlbiləndi,
Doğduqca qəlbiləndi. *(yerini dəyişdi)*
Quran gətir and içim,
Bu qəlb o qəlb iləndi.

70
Bu gələn yar olaydı,
Əldəki nar olaydı.
İkimiz bir köynəkdə,
Köynək də dar olaydı.

71
Bağçada bar şirindi,
Heyvadan nar şirindi.
Qohum, qəbilə özüyçün,
Hamıdan yar şirindi.

72
Görükən qala yeri,
Top yeri, qala yeri.
Qiyamət o gün qopar
Yar gedə, qala yeri.

73
Bu gələn kim? – Sənəmdi,
Kimim yox, kimsənəmdi.
Nə kimin kimsəsiyəm,
Nə kimsə kimsənəmdi.

74
Əlində xiyar indi,
Xiyarı soyar indi.
Qaş altdan göz eləmə,
Ariflər duyar indi.

75
Haray məni dərd əydi,
Gül üzünə dər dəydi.
Könlümün şişəsinə
Çərx dolandı, pər dəydi.

76
Gəldi bir Səyyad Əli,
Say əli, səyyad Əli.
Sərt yerin tərlanısan.
Yetişməz səyyad əli.

77
Gəncədən bir az bəri,
Tut meylin bir az bəri.
Könlümün virdi* budur,
Dilimin də əzbəri.

78
Gözüm, göz görə səni,
Kabab, köz görə səni.
İstəməm öz gözümdən,
Ayrı göz görə səni.
.

79
Gəldi bir ay, il işi,
Məst olan ayilişi.
Zülfün üzə düşəndə,
Sanasan Ay ilişi.

80
Ələ almışdı məsi, *(məs-çust, ayaqqabı)*
Katib çəkərdi məsi. *(məs çəkmək)*
Yenə yadıma düşdü
Yarın qoy-qoy deməsi.

81
Əlində gül məməni,
Tutubdur gül məməni.
Məmən güldən nazikdi,
İncidər gül məməni.

82
Əlində budaməni,
Çək tiyğin* buda məni.
Elə gözdən düşmüşəm,
Tanımaz bu da məni.

83
Sədaqi gör, sədaqi,
Sinəmdə gör sədaqi. *(ox qabı)*
Yad olduq dost kuyundan,
Tanımaz görsə daqi.

84
Ay doğdu girdələndi, *(yumrulandı)*
Doğduqca girdələndi. *(gəzdi, dolandı)*
Odur qəmə yandı canım,
Küllərdə gərdələndi.*

85
Gəldi bir qənim atdı,
Mən yayağ,* qənim atdı.
Zərrəcə üzün görsəm,
O da bir qənimətdi.

86
Bağlarda qora dəydi, *(üzüm)*
Yeməyə qora dəydi.
Kəsərəm, dilim, səni.
Nə dedin yara dəydi?!

87
Seyr elədik fərzəndi,
Haqdan bizə fərz endi.
Məzlum der: qoç igidin
Qoçaq gərək fərzəndi.*

## --K--

88
Qərənfil abı gərək,
Yar yarın babı gərək.
Zərrəcən eşqi olanın.
Dəryacən tabı gərək.

## --L--

89
Qarşımızda de səqal,
Desə get, get! Desə, qal!
İllər xəstəsi könlüm,
Yarı gördün, de sağal.

90
Bağında yara müşkül,
Sağalır yara müşkül.
Ərzə yazmaq hasandır,
Yetirmək yara muşkül.

91
Qarşıda səndə sən bil,
Sən oxu səndə sən bil.
Gedər oldum, sevdiyim,
Can qaldı səndə, sən bil.

92
Evdə gül, Yazıda gül,
Gəlməzsən yazı dəgül.
Bu hicranın ilidir,
Bülbülün yazı dəgül.

93
Qara dərya, qara sal,
İt rəqibi qara sal.
Bivəfasan, ay canan,
Soruşmazsan qərəz hal.

## --M--

94
Arazın başı mənəm,
Dibinin daşı mənəm.
Harada qərib ölsə,
Onun yoldaşı mənəm.

95
Dağlarda keyik mənəm,
Buynuzu əyik mənəm.
Bu dərd ki, mən çəkirəm,
Yaxşı ki, keyikmənəm.

96
Araz deyiləm – daşam,
Kür deyiləm qaynaşam.
Apar sərraf yanına
Gör nə qiymətli daşam.

97
Qərənfil oyum-oyum,
Dərim qoynuma qoyum.
Yağış yağsa yer doymaz,
Mən səndən necə doyum.

98
Başına dolanmaram,
Dönmərəm, dolanmaram.
Aləm sənsiz dolansa,
Mən sənsiz dolanmaram.

99
Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Tanrı səni saxlasın,
Könlündə mən dolanım.

100
Dağlar dağımdır mənim,
Qəm avlağımdır mənim.
Dindirməyin, ağlaram,
Yaman çağımdır mənim.

101
Səhər tezdən oyandım,
Dərdə, qəmə boyandım.
Daş olsaydım ərirdim,
Topraq idim dayandım.

102
Ağzım aça bilmənəm,
Açsam saça bilmənəm.
Dalımda qəm yükü var,
Salıb qaça bilmənəm.

103
Bu yan Zəngan, o yan Qum,
Su bağrını oyan qum,
Əmeydim ləblərindən,
Kəsileydi o yanqum.

104
Gəldi bir az, az alım,
Tərtərdən azaz alım.
Qorxuram tez qurtara,
Dərdini az-az alım.

105
Gəl de bir az, a zalım,
Tərtərdən azaz alım.
Qorxuram tez qurtaram,
Dərdini az-az alım.

106
Çağırsalar gələnəm,
Ağla, didəm, gələ nəm.
Yüz dərdin dərmanıyam,
Dost kuyundan gələnəm.

107
Qarşıda sənə gözüm,
Səməndir sənə gözüm. *(od)*
Nagah ayrılıq düşər,
Qoy, baxsın, sənə gözüm.

108
Kəşkəm bir quş olaydım,
Budağa qonmuş olaydım.
Sən can verən vaxtda,
Yanında olmuş olaydım.

## --N--

109
Bağında ye zoğaldan,
Gir bağa ye zoğaldan.
Zimistan çəkən bülbül
Gəleydi yaz oğaldan. *(yaz oğalqan)*

110
Gəlişin Alıncadan, *(Əlincə)*
Xəbər ver alıncadan.
Bir quş yüz bəla çəkər,
Sərgidən alınca dən.

111
Gözümün tikənisən,
At yoldan tikəni sən.
Nə gedirsən könlümdən,
Nə dildən tükənisən.

112
Gecə keçdi Çaxmaxdan,
Su yorulmaz axmaxdan.
Gözlərimə qan damdı,
Yollarına baxmaxdan.

113
Qəlyanın közü gəlsin,
Başında gözü gəlsin.
Neylərəm özgələri,
Cananın özü gəlsin.

114
Arazın başı sənsən,
Dibinin daşı sənsən.
Aləm gözələ dönsə,
Hamıdan başı sənsən.

115
Mənzurumuz* yenə sən,
Səfa gəldin yenə sən.
Fikrim, zikrim, xəyalım
Sənsən, sənsən, yenə sən.

116
Köynəyin tikən ölsün,
Qatlayıb bükən ölsün.
Mən sənə göz dikmişəm,
Özgə göz dikən ölsün.

117
Gəzirəm qıraq ilən,
Ot biçdim oraq ilən.
İtibdi gül yanaqlım,
Soruram soraq ilən.

118
Əlində aynə bunun,
Tutubdur ay nə bunun.
Dilin, dişin, dodağın
Yeyəsən, ay, nə bunun.

119
Gözüm, nə dolanırsan,
Nə dönüb, nə dolanırsan?!
Nə vətənin quşusan,
Burda nə dolanırsan?!

120
Gözlərin şuxdu sənin,
Kipriyin oxdu sənin,
Dərdin məni öldürür,
Xəbərin yoxdu sənin.

121
Başında var şal bunun,
Üzündə var xal bunun,
Şeytan vəsvəsə* eylər,
Dur, qadasın al, bunun.

122
Yenə düşdüm dilə mən,
Namərddən nan dilə mən,
Kevsərə* meyl eyləməz,
Ləb dişləyib, dil əmən.

123
Sevdim bir zər, inci mən,
Səndənəm zarıncı mən.
Düşdüm dəvasız dərdə,
Qalmışam zarıncı mən.

124
Qəlyanı al, çək, ərdən,
Ver mürğünə, çakər,* dən.
Namərddə kərəm olmaz,
Hər nə çəksən, çək ərdən.

125
Köksindəyəm bir də mən,
Qafil düşdüm dərdə mən.
Öyrətmisən sinənə,
Necə yatım yerdə mən.

126
Gəldimi çini Çindən,
Maçindən, çin içindən.
Zülfün tüccar* yetirmiş,
Keçirmiş çini çindən.

127
Gəlişin Gülügildən,
Xəbər ver gülü güldən.
Canan güllə qarışmış,
Seçmərəm gülü güldən.

128
Aşnadansan, yaddansan,
Aşna tutdun yaddan sən.
Nə ahın candan gedər,
Nə çıxarsan yaddan sən.

129
Gəlişin Yəmən səndən,
Dürlügə Yəmən səndən.
İncimək nədir demək,
Sən məndən, ya mən səndən.

130
Dəyirmandan gələn dən,
Mürğün üçün gələn dən.
Dərdə saldın canımı,
Dərman göndər gələndən.

131
Gəlişin üzüm dildən,
Xəbər ver üzüm dildən.
Sənin şirin adını
Mən necə üzüm dildən.

132
Gəlişin o diyardan,
Xəbər ver o diyardan.
Fələkdə nə qaydadır
Gətirir odu yardan?!

## --R--

133
Göy üzü damar-damar,
Havasından qan damar.
Qəlbim çini kasadır,
Sən sındırsan kim yamar?!

134
Su gələr axar gedər,
Qayalar yıxar gedər.
Dünya bir pəncərədir,
Hər gələn baxar gedər.

135
Su axar mələr gələr,
Dağları dələr gələr.
Yarı yar çox istəsə,
Gecəni bölər gələr.

136
Boz at bağçada otlar,
Çulun qəcərlər qatlar.
Gündə gördügüm yarı
Görməsəm bağrım çatlar.

137
Bağdadda xurmalıqlar,
Şətdə* oynar balıqlar.
Nə belə vəsl olaydı,
Nə belə ayrılıqlar.

138
Qapıdan huri gəlir,
Gözümün nuri gəlir.
Bu arxı kim arıdıb,
Su belə duri gəlir.

139
Can çıxdı, Salıb ağlar,
Dəryadan salı bağlar.
Xəyalım hərdən səni
Yadına salıb ağlar.

140
Arazın altı navlar,
Xan gələr altın avlar.
Qurbanam o zülfə kim,
Ağ buxaq altın avlar.

141
Dərdin məni cəng eylər,
Vurar başa dəng eylər.
Sevgi adam öldürməz,
Saraldıb bədrəng eylər.

142
Bu qala bir qaladır,
Torpağı Kərbəladır.
Aşna olmaq hasandır,
Ayrılmaq bir bəladır.

143
Dəryada dəryalıqlar,
Suda oynar balıqlar.
Nə belə dostluq ola,
Nə belə ayrılıqlar.

144
Çayda balıq yan gedər,
Açma, yaram qan gedər.
Təbib gəlib neyləsin,
Əcəl gəlib can gedər.

145
Dağlar, mənə qar göndər,
Əsirgəmə var göndər.
Ya dərdimə şərik ol,
Ya dərmanın var, göndər.

146
Başı pəlməli* dağlar,
Dibi kölgəli dağlar.
Oturub yol gözlərəm,
Haçan el gəli, dağlar.

147
Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar.
Yarım səndə gəzibdir,
Səni min yaşa, dağlar.

148
Bağçalar barın istər,
Heyvasın, narın istər.
Mənim bu xəstə könlüm
Sevdiyi yarın istər.

149
Göydə qara buludlar,
Para-para buludlar.
Mənim ərzi-halımı
Yetir yara, buludlar.

150
Çağırıram, Yarəsər,*
Bayqu meylin yarə sər.
Üzün görməyə könlüm
Kəpənək tək, yar, əsər.

151
Qarşımızda yaraxlar,
Belim kəsdi yaraxlar.
Ayrılıq təyin oldu,
Mən ağlaram, yar ağlar.

152
Qəriblik yaman olur,
Savrulur saman olur.
Mən düşdüm yaman elə,
Sən düşmə yaman olur.

153
Səməndin* oynağandır,
Sür gəlsin oynağandır.
Qaşların qurbanıyam,
Gözlərin oynağandır.

154
Bu bağın alması var,
Tiğinin* alması var.
Gözlərin bəzənibdir,
Yenə can alması var.

155
Gözlərin kimi gözlər,
Duruxub kimi gözlər?!
Nə qaşın kimi qaş var,
Nə gözün kimi gözlər.

156
Əldə qəlyan kimi zər,
Kimi zərbaf,* kimi zər.
Bir yar vəfalı olsa,
Ondan əlin kim üzər?!

157
Alçalar, ay alçalar,
Çiçəklənən alçalar.
Əlin əlimdən üzmə,
Düşmən gülüb əl çalar.

158
Qara at nalı neylər,
Qara qaş xalı neylər?!
Sən kimi yarı olan
Dövləti, malı neylər?!

159
Bu yol Cavada gedir,
Aşıb cavad* a gedir.
Uçubdu könlüm quşu,
Gör nə havada gedir.

160
Yeri-yeri, dur, dağlar,
Sənə yağsın nur, dağlar.
Getdim canan görməyə,
Oba köçmüş, yurd ağlar.

161
Bu bağın bax isi* var,
Qönçəsi, nərkisi var.
Gül dəftərin tökübdür,
Bülbülün baqisi* var.

162
Əldə tutmuş bu meylər,
Bu mütriblər,* bu meylər.
Bülbül öləndən sonra,
Gülün seyrin bum* eylər.

163
Bu dağlar qanlı dağlar,
Laləli, qanlı dağlar.
Öləndə qəbrim üstə
El ağlar, qanlı da ağlar.

164
Sədaqi tər, oxu tər,
Sədaq saxlar oxu tər.
Atma müjgan oxunu,
Qəm tünlükdür ox itər.

165
Atlanan bir-bir düşər,
Zülf üzə bir-bir düşər.
Yarın keçən günləri
Yadıma bir-bir düşər.

166
Əlində qırğı neylər,
Tutubdur qırğı neylər?!
Cəllad gözlü gözəlim
Aləmi qırğın eylər.

167
Könlüm bir tam arzılar,
Yeməyə tam arzılar.
Dur sallan, sərvi boylum,
Qoy baxsın tamarzılar.

168
Oxun qalxanə dəyir,
Atma qalxanə dəyir. *(ayağa durana)*
Dərdin mənim canımda
Görüm xalxa nə dəyir.

168-1
Qarşımızda çəlpolar,
Çil kəkliklər, çəlpolar.
Tərlan avın qaçırmaz
Doğru söz çəlp olar.

## --T--

169
Tüfəngini yaxşı at,
Yaxşı doldur, yaxşı at.
Kişini qoymaz qocala,
Yaxşı arvat, yaxşı at.

## --U--

170
Gülümü şaxta vurdu,
Nə yaman vaxta vurdu.
Allah məni vurmuşdu,
Utanmaz xalx da vurdu.

171
Güllərim vağam oldu,
Dərmədim vağam oldu.
Evin yıxılsın, fələk,
Nökərim ağam oldu.

172
Mənzilim Meşad oldu,
Didəm qan-yaşa doldu.
Mənim bu miskin könlüm
Nə güldü, nə şad oldu.

173
Qızıl gül xəndan oldu,
Açıldı dən-dən oldu.
İndi sənə neyləyim
Ayrılıq səndən oldu?!

174
Dağlar qara zil* oldu,
Yağdı qara zil oldu.
Səndən ayrı bir günüm
Mənə qərəz il oldu.

175
Qızıl gül həşəm oldu,
Dərmədim həşəm oldu.
Sən gedəndən sonra
Ağlamaq peşəm oldu.

## --Ü--

176
Əlində gör düyünü,
Sinəmdə gör düyünü.
Könül sevdiyin istər,
Göz isə gördüyünü.

177
Gəncənin talx üzümü,
Yeməyə talx üzümü.
Səndən mən əl götürməm,
Danlasa xalx üzümü.

178
Ay doğdu düzə düşdü,
Qara zülf üzə düşdü.
Fələyin çarxı dönsün,
Ayrılıq bizə düşdü.

179
Ördək göldə bir üzdü,
Bir çalxandı, bir üzdü.
Üzün qoy üzüm üstə,
Görən desin bir üzdü.

## --Y--

180
Ucu hərfin qanə tay,
Tərlan çalar qanad ay.
Ağ üzündə xalların,
Hər biri bir qanə tay.

181
Haray, ellilər, haray,
Şana tellilər, haray.
Bərəmi su apardı,
Əli bellilər, haray.

## --Z--

182
Gecə uzun Ay batmaz,
Dərdlilər gecə yatmaz.
Sənin kimi gözəli
Tanrı bir də yaratmaz.

183
Əldə qəlyan kimi gəz, *(əl ağacına işarədir)*
Göydə tərlan kimi gəz.
Xəyalın mənlə olsun,
Özün ceyran kimi gəz.

184
Ördək, göldə narın üz,
Narın çalxan, narın üz.
Girgilən yar bağına,
Gülünü dər, narın üz.

185
Zülflərin ələ yetməz,
Dərdin canımdan getməz.
Səni görən gözlərim,
Özgəni qəbul etməz.

186
Axıb gedən şah Araz,
Yaxan tutub şeh Araz.
Yaxşı kimi yaxşı yar,
Qəlbim kimi şəhər az.

187
Kiprik yaz, qaş yaz, üz yaz, *(yazmaq)*
Sonalar, göldə üz yaz. *(bahar)*
Sinən kimi gül bitməz,
Fələk gətirsə yüz yaz.

188
Alazdı, canım alaz,
Qara zülf, canım al az.
Ayrılığın üzündən
Tapıbdı canım alaz.

189
Göy üzü gözəl ayaz,
Bulud yox, gözəl ayaz.
Al əlinə qələmi,
Gözəli gözələ yaz.

190
Qəbirdən qani qalmaz,
Təqsirə qane qalmaz.
Gözlərim gözlər səni,
Görməsə qane qalmaz.



Bu şəkil XIX əsrin əvvəllərinə aiddir



Bu şəkil XIX əsrin ikinci yarısına aiddir



# *TAPMACALAR*

## CAVABIYLA

1
Mən Aşıq, qan ayağı,
Qan əli, qan ayağı.
Aşıq bir zad görübdü
Üç başı, on ayağı.
***(İnək, buzov, sağıcı)***

2
Mən Aşığam, bir ata,
Bir oğuldu, bir ata.
Qırx dəvə, səksən qatır
Yüklənibdi bir ata.
***(Atın belindəki çulda şəkillər)***

3
Mən Aşıq, içi dəri,
İçinin içi dəri.
Bu gün bir loxma yedim
Üzü ət, içi dəri.
***(Pötənə)***

4
Aşığam, bayı keçdim,
Kasıbı, bayı keçdim.
Altı camış, yüz keçi, *(yüz- burada üst (üz) mənasında)*
Qucaqda çayı keçdim.
***(Çaydan keçənin əlindəki camış gönündən çarıq və keçi dərisindən köşəsi nəzərdə tutulur)***

5
Mən Aşığam, əmər hey,
İncə beldə kəmər hey.
Göydə bir madyan gördüm,
Altda qulun əmər hey.
***(Göy qurşağı, şimşək, yağış və torpaq)***

6
Anam aşı bişirir,
Həm bozbaşı bişirir.
Aşıq bir hikmət görüb,
Ayaq başı bişirir.
***(Saman və buğda)***

7
Mən Aşığam, nədəndi,
Nə sünbüldü, nə dəndi.
Ağzı yox, adam tutur,
Tapın görüm nədəndi?
***(Gicitkən)***

8
Dağlar, mənə qar göndər,
Əsirgəmə, var göndər.
Toxunmamış yaylıqda,
Dərilməmiş nar göndər.

9
Dəryada qulun eylər,
Qul olan qulu neylər?!
Ot görməz, ayqır görməz,
İldə bir qulun eylər.

10
Qarşımızda səksənin,
Tanrınızdan səksənin.
Dəhan arzısın çəkər,
Bir qırx, iki səksənin.

11
Mən Aşıq, müşkül açar,
Müşkülü müşkül açar.
İldə bir, ayda iki,
Bir ağac üç gül açar.

12
Mən Aşıq, ikisinə,
İki dal, iki sinə.
Bir ağacda beş alma,
Gün düşmüş ikisinə.

13
Qarşımızda usta kar,
Çəkic çalar, usta kar.
Bir hikmət görmüş Aşıq,
Şagirdi lal, usta kar.

14
Mən Aşığam buz bağlar,
Əyri bağlar, düz bağlar.
Aşıq bir hikmət görüb,
Od içində buz bağlar.

# *BAĞLAMALAR*

Bağlama:
*Zülfün ucu gümüşdür,*
*Sal boynuma gəmişdir.*
*Yemişlərdə yarpaqsız,*
*Tap, gör necə yemişdir?*

Cavabı:
*Zülfün ucu ilandır,*
*Sal boynuma dolandır,*
*Tapmacanı tapmışam,*
*Yarpaqsız dombalandır.*

Bağlama:
*Heçədi,ay heçədi,*
*Başındakı keçədi.*
*Səndən soruşum, aşıq, –*
*Göydə ulduz neçədi?*

Cavabı:
*Heçədi, ay heçədi,*
*Başındakı keçədi.*
*Sən göyə nərdivan qoy*
*Çıxım sayım neçədi.*

Bağlama:
*Xalın bənək-bənəkdi,*
*Telin bənək-bənəkdi.*
*Səndən soruşum , aşıq,*
*Araz neçə sənəkdi?*

Cavab:
*Aşıq bənək-bənəkdi,*
*Telin bənək-bənəkdi.*
*Sən Arazı dayandır*
*Deyim neçə sənəkdir.*

Bağlama:
*Mənim adım Yaşardı,*
*Nə xeyirdi, nə şərdi.*
*Səndən xəbər alıram,*
*Bu daş neçə yaşardı?*

Cavab:
*Aşıq, aşın bişibdi,*
*Bişib yerə düşübdü,*
*Dünya bina olandan,*
*Bu daş yerə düşübdü.*

Bağlama:
*Bu dağların diki var,*
*Dərəsi var, diki var.*
*Səndən soruşum , Aşıq,*
*Başda neçə tük olar?!*

Cavabı:
*Bu dağların diki var,*
*Dərəsi var, diki var.*
*Kəs başını ver mənə*
*Diyim neçə tükü var.*

# *SARI AŞIQ HAQQINDA RƏVAYƏTLƏR*

## MƏTN 1

Belə danışırlar ki, Maqsudlu kəndində bir ailə varımış. Tərəkəmələr Arandan gəlib dağa gedəndə, o evə düşərmişlər. Bu ailənin uşağı olmurmuş. Bir gün tərəkəmələr bu evdə yenə qonağımış. Tərəkəmələrdən biri ev sahibinə deyir ki, uşağınız olmasa, bir də bu evə ayaq basmayacağıq. Ev sahibi bu sözdən çox pərt olur. Vaxt keçir, tərəkəmələrin dağa qalxmaq vaxtı yaxınlaşır. Ev sahibinin arvadı qarnına əskidən-zaddan bağlayır. Əri baxır sevinir ki, arvadı hamilədir, qonaqlarının əhdi hasil olacaq. Arvad çıxır uca bir yerə, görür ki, budur tərəkəmələr gəlməkdədirlər. Götürür həyətdəki bitili bir ağacdan yüyrük asır. Yüyrüyün içinə çəltik dibəyi* qoyur, üstünü örtür. Tərəkəmələr gəlir evə, qapıda ağacdan asılan yüyrüyü görürlər, sevinirlər ki, ev sahibinin uşağı olub. Ev sahibinə göz aydınlığı verib, keçirlər evə. Bir az keçəndən sonra görürlər uşaq səsi gəlir. Ev sahibinin arvadına deyirlər ki, uşaq ağlayır, niyə gedib götümürsən? Arvad azca ağır tərpənəndə qonaqlar özləri çıxırlar çölə. Arvad da onlarınan bir yerdə çıxır. Baxıb görürlər ki, beşikdə sarı bir uşaq var, ağlayır. Demə, İlahi tərəkəmələrin, ev sahibinin əhdini eşidib, çəltik dibəyini uşaq eləyib. Çəltik dibəyi sarı, çil-çil olduğu üçün uşaq da sarı, çil-çil olub. Bu uşağa Sarı adı qoyurlar. Bu uşaq Haqdan yarandığına görə Haqq aşığı olur. Ona Sarı Aşıq deyirlər.

## MƏTN 2

Bir gün Lələ adlı bir adam haca gedirmiş. Gəlib bir evə qonaq olur. Görür ki, bu evdə uşaq yoxdur. Deyir mən, haca gedirəm. Mən gəlincə uşağız olmasa, sizin evə ayaq qoymayacağam. Kişi hacdan qayıdır. Arvad görür ki, kişi gəldi. Tez götürüb beşiyə daş qoyur. Daş başlayır ağlamağa. Arvad görür

ki, daş döndü uşaq oldu. Uşaq elə hey ağlayır. Bir bilici gəlir, deyir ki, adamlar gəlsin görüşə. Axırda qucağında uşaq olan bir arvad gəlir. Arvad içəri girən kimi uşaq sakit olur. Arvad uşağın yanında qalmağa razılıq verir. Uşağı göndərir evə. Bu uşaq yenə başlayır ağlamağa. Onda bilirlər ki, daşdan yaranmış uşağın sakit olmağı bu uşağa görədir. Bu uşaq burda qalır.

Bunlar bir yerdə məktəbə gedirlər. Bir-birin sevirlər. Bu məhəbbətə mane olurlar. Qızın atasını başqa bir dağ kəndinə köçürdürlər. Bu ayrılığa onlar dözmürlər. Qızı nə qədər oğlan istəyirsə, qız getmir.

## MƏTN 3

Bir gün qız aş bişirirmiş. Qış vaxtı imiş, qar-boran imiş. Qıza deyirlər ki, Aşığı çağır gəlsin. O, Haqq aşığıdırsa, gələcək. Qız deyir:

*Sarı, aşın bişdi gəl,*
*Bişdi, yerə düşdü gəl.*
*Yaxşı günün aşnası,*
*Yaman günə düşdü, gəl.*

Deyilənlərə görə, Aşıq az vaxta ayaq yalın qarı yara-yara gəlir.

*Mən Aşığam, başa çıx,*
*Oxu dərsin, başa çıx.*
*Lələ gəl, yeyin gedim,*
*Ayaq yalın, baş açıq.*

## MƏTN 4

Əlyandıda Sarı Aşıqgilin mal-heyvanı varımış. Sarı Aşıq da ordaymış. Bir gün Sarı Aşıq yatır yuxuda Yaxşı ona buta verilir. Görürlər ki, Sarı Aşıq özündə-sözündə deyil. Gedib atası Qara İbrahıma xəbər verirlər ki, oğlun xəstələnib. Sarı Aşığa buta verildiyi kimi, yuxuda Yaxşıya da Sarı Aşıq buta verilir. Qara İbrahım xəbər tutur ki, oğlu Salman bəyin qızı Yaxşıya aşiq olub. Qara İbrahım Maqsudlu kəndinə, Salman bəyin evinə elçiliyə gedir. Yaxşını oğlu Sarı Aşığa istəyir. Qızın ata-anası razı olur. Amma qızın qardaşları razı olmurlar. Aradan bir müddət keçir, Qara İbrahım Maqsudluya ikinci dəfə Yaxşıya elçi düşür. Qızın qardaşları yenə, Yaxşının Sarı Aşığa getməsinə razı olmurlar. Bu Sarı Aşığa çox pis təsir eləyir. Sarı Aşıq düşür çöllərə.

Sarı Aşıqla Yaxşı xəlvəti görüşürlər. Amma Yaxşının qardaşları onunla qoymurlar görüşməyə. Bir dəfə onlar görüşəndə Yaxşının qardaşları Sarı Aşığı tutub verirlər Gorusda bir murova ki, onun başını əksin. Amma murov aparanda Gorusda camaat Sarı Aşığı tanıyıb deyirlər, o, Haqq aşığıdı, onu öldürmək olmaz. Murov görür ki, öldürə bilməyəcək, onu İrana sürgün eləyir. Bir müddət sürgündə qalandan sonra Sarı Aşıq gəlir Maqsudluya, gizlincə Yaxşıyla görüşür. Yaxşının qardaşları Sarı Aşığı öldürmək istəyirlər, anaları Zeynəb xanım qoymur.

## MƏTN 5

Sarı Aşıq Mehri kəndində imiş. Yatır, yuxuda görür ki, xan onu çağırır Şuşaya. Başlayır Şuşaya tərəf getməyə. Xan da adam göndərir ki, get Sarı Aşığı gətir. O adam gəlib Suarası kəndində Sarı Aşıqla rastlaşır. Sarı Aşıqdan soruşur ki, Sarı Aşıq harda olur, necə tapmaq olar onu? Sarı Aşıq deyir:

-Tanı mənəm, bil mənəm.

Xanın göndərdiyi adam Sarı Aşığın bu cavabından hirslənir, onu qamçıyla vurur. Sarı Aşıq deyir:

*Mən Aşıq, sadağa ver,*
*Hirsinə qadağa ver.*
*Məndən salamat keçsən,*
*Bir ye, beş sadağa ver.*

O, Sarı Aşıqdan uzaqlaşıb, on-on beş metr getməmiş atdan yıxılır. Sarı Aşıq gedib onu yerdən qaldırır deyir ki, bəs Sarı Aşıq mənəm. Atlı Sarı Aşığa deyir ki, bağışla məni, tanımadım səni. Onlar birlikdə Şuşaya xanın hüzuruna gəlirlər. Xan deyir ki, Sarı Aşığı sınayım görüm o, həqiqəta Haqq aşığıdımı? Boğaz bir inək gətirdir, soruşur ki, inəyin balası erkəkdi, ya dişidi, deyir ki, əvvəlcə şagirdim cavab versin, sonra mən cavab verərəm. Şagirdi deyir ki, inəyin balası dişi, qaşqa buzovdur. Sarı Aşıq deyir ki, buzov dişi olmağına dişidir, amma qaşqa deyil, quyruğu cağalıdı, quyruğunun uc tərəfi aladı. Quyruğu gəlib alnında düyünlənib, odur ki, şagirdim elə bildi ki, buzov qaşqadı. Xan Sarı Aşığa deyir:

-Sən doğrudan da Haqq aşığısan. Qal burda, burada Aşıqlıq elə.

Aşıq deyir:

*Mən Aşığam, Həkərim,*
*Yağım, balım, şəkərim.*
*Gen dünya sənin olsun,*
*Mənə bəsdi Həkərim.*

## MƏTN 6

Deyir, bir gün yasavul Sarı Aşığı tutub aparır, yolda bunu şallaqla vurur. Sarı Aşıq deyir:

*Dalını o dağa ver,*
*Bu dağdan o dağa ver.*
*Aşıqdan sağ qurtarsan,*
*Bir möhkəm sadağa ver.*

Deyir Sarı Aşığın bu sözündən sonra yasavul partlamaya düşüb ölür.

## MƏTN 7

Bir gün bir neçə adam Sarı Aşığı sınamaq istəyirlər. Deyirlər, sınayaq, görək Haqq aşığıdı, ya yox. Haqq aşığı olmasa, yalançı olsa, tonqalda yandıraq. Gəlirlər yolda Sarı Aşıqla rastlaşırlar. Soruşurlar ki, Sarı Aşığı görmüsənmi? Sarı Aşıq cavab verir ki, "gör mənəm", "tanı mənəm", "bil mənəm". Adamlar bu sözlərdən bir şey anlamırlar. Görürlər ki, Sarı Aşığın qoltuğunda quru tikan, kol-kos var. Soruşurlar ki, bunu neyləyirsən? Cavab verir ki, bunları belə götürmüşəm ki, məni yandıranda qoy tonqal gur yansın. Bu sözlərdən başa düşürlər ki, bu adam elə Sarı Aşığın özüdür. Tonqalda yandırmaq məsələsini bilməyinə də lap mat-məəttəl qalırlar. Amma istəyirlər bir də sınasınlar onu. Odur ki, bir inəyi göstərirlər, deyirlər, bax gör inəyin qarnındakı buzov dişidi, ya erkək? Sarı Aşığın qardaşı oğlu onun yanında şagirdlik eləyirmiş. Sarı Aşıq deyir:

- Qoy əvvəl mənim şagirdim cavab versin. Qardaşı oğlu inəyə baxır deyir:

-İnəyin balası sarı, qaşqa, erkək buzovdu.

Sarı Aşıq əlavə eləyir ki, buzov sarı, erkək buzovdu, amma qaşqa deyil. Quyruğu cağaldı, düyünlənib alnının ortasında, qardaşım oğlu elə bilir qaşqadı.

İnəyi kəsirlər. Sarı Aşığın dedikləri düz çıxır. Görürlər, inəyin balası sarı, erkək buzovdu. Quyruğu isə cağaladı, yanı quyruğunun ucu aladı. Adamlar inanırlar ki, Sarı Aşıq, doğrudan da Haqq aşığıdı.

## MƏTN 8

Sarı Aşıq yuxuda görür ki, murov onu çağırıb sürgün eləyir İrana. Səhər durur, özü başlayır İrana sarı getməyə. Murov Gorusdan adam göndərir ki, gedib Sarı Aşığı gətirsinlər onun yanına. O adam gəlib Məmmədbəyli kəndində Sarı Aşığı tapır. Soruşur ki, hara gedirsən, murov səni çağırır yanına. Sarı Aşıq deyir:

- Bilirəm niyə çağırır. İrana sürgün eləmək istəyir. Özüm gedirəm. O adam Gorusa qayıdıb murova xəbər verir ki, Sarı Aşıq özü gedir sürgünə. Murov bu işə məhəttəl qalır.

Sarı Aşıq bir müddət İranda qalır, qayıdıb gəlir. Zeynəb xanım oğlanlarından gizli bir aşırımda Sarı Aşıqla Yaxşını görüşdürür. Qardaşlar bu görüşdən də xəbər tuturlar. Yaxşıyla Sarı Aşığın görüşünə imkan vermirlər. Yaxşı xəstələnib ölür. Onu Maqsudluda bakirələr qəbirstanlığında basdırırlar. O qəbirstanlıqda ancaq Yaxşı kimi bakirə ölənlər, uşaqlar, bakirə qızlar basdırılır.

Sarı Aşıq iki-üç gün Yaxşının qəbri üstündə qalır. Xəstələnir. Vəsiyyət eləyir ki:

*Mən Aşıq, tərsinə qoy,*
*Tər təni tər sinə qoy.*
*Yaxşını qibləsinə,*
*Aşığı tərsinə qoy.*

Aşığı Güləbird kəndində basdırırlar. Vəsiyyət elədiyi kimi onun üzünü qibləyə tərəf yox, Yaxşının qəbrinə tərəf basdırırlar.

## MƏTN 9

Qarlı-boranlı bir gündə Yaxşının qardaşına toy eləyirlər. Sarı Aşığı da toya çağırırlar. Sarı Aşıq toya gələndə qar-boran kəsir, gün çıxır. Bir ağzı göyçək lağ eləyir ki, buna bax, toya əli boş gəlib. Sarı Aşıq cibindən yeddi dənə düyü çıxardıb, hər qazana bir düyü atır. Toyun aşpazları qazanların düyüsünü yığıb-yığışdıra bilmirlər.

## MƏTN 10

Yaxşını Yaman adlı bir bəyə verirlər. Qohum-qardaş Yaman bəyin qulağını doldururlar: "Nə olsun ki, Sarı Aşıq göz aşığıdı, sənin arvadınla adı çıxıbsa, başını batırmalısan".

Yaman bəy qapının ağzında bir quyu qazdırır, quyunun üstünü xalçayla örtdürür, Sarı Aşığı qonaq çağırır. Sarı Aşıq gəlir, qapının ağzına çatanda ona əyan olur ki, quyu qazıblar, deyir:

*Aşığam, yazmamışam,*
*Yolumu azmamışam.*

Quyunun yanından ötüb keçir içəri. Qonaqlıq qızışır. Yaman bəy eşiyə çıxanda gupbultuyla düşür quyuya. Sarı Aşıq bayaqkı bayatını belə tamamlayır:

*Quyu qazan özü düşər,*
*Mən ki, quyu qazmamışam.*

## MƏTN 11

Bir gün Aşıq çay qırağında durmuşmuş. Görür ki, qoca kişi çayı o taya keçmək istəyir, amma keçə bilmir. Gəlir kişini alır dalına, çayı keçirir o taya. Kişi də bunun dalında, kürəyində çayın ortasında kişiyə deyir ki, sənə bir tapmaca verəcəyəm, tap görüm. Deyir:

*Mən Aşığam, nədəndi,*
*Mürğ ağzında nə dəndi?*
*Basılmamış maydandan,*
*Mindigin day nədəndi?*

Kişi bunu tapa bilmir. Özü deyir ki:

*Lələyəm, başdan mən,*
*Yemərəm hər aşdan mən.*
*Nə atam var, nə anam,*
*Yaranmışam daşdan mən.*

## MƏTN 12

Bir gün Aşıq nə təhər olursa, Yaxşıya qarğıyır. Yaxşı dağa getmiş imiş, bu da aranda qalmış imiş. İndi nə təhər olursa, bilmirəm, qarğıyır. Deyir:

*Evləri taşı qayda,*
*Tikilib taşı qayda.*
*Bu səhər, bu sabahda,*
*Yaxşının başı qayda.*

Aşığın qarğışından sonra Yaxşı bərk xəstələnir. Bu da bilir ki, Yaxşının başında nəsə var. Durur düşür yola, gəlir çıxır Yaxşının yanına. Görür ki, Yaxşının vəziyyəti ağırdı. Bilir ki, bunun qarğışı tutub. Qayıdır deyir ki:

*Mən Aşıq, Kür mələdi,*
*Dost zülfün bürmələdi.*
*Ağzın qurusun, Aşıq,*
*Dilin nə kür mələdi?!*

## MƏTN13

Yay olanda Yaxşı qardaşıgillə dağa gedir. Aşıq da deyir ki, gedim arana gələn yolun qırağında bir bostan əkim, yemiş-qarpız əkim, Yaxşı arana gələndə, bu yoldan keçəndə yemiş-qarpızdan yesin. Aşıq bostanı əkir. Vədə gəlib yetişəndə Yaxşı öz yoldaşlarıyla – başının qızlarıyla arana qayıdır. Gəlib həmən yerə çatırlar. Görürlər ki, yolun qırağında yaxşı bostan var. Qızları göndərir ki, gedin o bostandan yemiş-qarpız gətirin yeyək, bir az susuzluğumuz yatsın. Qızdar gəlir bu vaxt Aşıq yatmışdı, qızların bostana girmələrindən xəbəri olmur. Səsə oyananda görür ki, bir dəstə qızdı bostanı dağıdırlar, nə təhər gəldi qırırlar, tağları üzürlər. Bunları tanımır, soruşur ki, siz kimsiz, bu bostanı niyə dağıdırsız qoyun kimi? Qızlar deyir ki:

*Qoyun biz,*
*Qurd siz olun, qoyun biz,*
*Allah vermiş bostandı,*
*Doldurmuşuq qoyun biz.(qoyun-qoltuq)*

Aşıq da deyir ki:

*Mən Aşığam, qoyun siz,*
*Qurd biz olaq, qoyun siz.*
*Aşıq əkmiş bostandı,*
*Doldurmusuz qoyun siz.*

Qızlar gedir Yaxşıya deyirlər ki, bəs bu bostanı Aşıq əkib, özü də burdadır.

## MƏTN 14

Bir arvad çayın qırağında paltar yuyur. Birdən balıq görür. Əlindəki sabunla balığı vurub öldürür. Bu hadisəni Sarı Aşıq görür. Belə bir bayatı-tapmaca deyir:

*Atdım – tutdum daş deyil,*
*Qanadlıdı, quş deyil.*
*Onu vuran ər deyil,*
*Bişirib yesək ar deyil.*

Heyvanı kişi kəsməlidi. Qadın kəsən heyvan haram sayılır. Ancaq balıq kəsilmir. Ona görə də qadının öldürdüyü balığı yemək olar.

## MƏTN 15

Deyirlər bir gün Sarı Aşıq taxıl zəmisindən keçirmiş. Görür ki, bir neçə adam sümbül topalarının gövdəsindən tutub, sümbül olan hissəsini (baş hissəsini) küləşin alovunda ütür, sonra da yeyirlər. Bunu görən Sarı Aşıq belə bir bayatı deyir:

*Aşıq aşı bişirir,*
*Bilməz naşı bişirir.*
*Aşıq bir hikmət görüb,*
*Ayaq başı bişirir.*

## MƏTN 16

Aşıq aydın gecələrin birində yol gedirmiş. Su yığılmış çalada həşəratların boğulduğunu görüb deyir:

*Aşağıdan ay doğdu,*
*Cansız canlını boğdu.*

Səhərisi, günəşli gündə arıların beçə verdiyini görəndə bayatını belə tamamlayır:

*Anası beşikdə ikən,*
*Qızı bir oğlan doğdu.*

## MƏTN 17

Deyirlər ki, Sarı Aşıq yenə də səfərdə imiş. Həkəri çayının kənarından keçəndə uşaq çığırtısı eşidir. Yaxınlaşanda görür ki, bir körpə uşağı gicitkən dalayır. Uşağı oradan çıxarıb deyir:

*Mən Aşığam, nədəndi,*
*Nə sünbüldü, nə dəndi.*
*Ağzı yox, adam tutur,*
*Tapın görüm nədəndi?*

## MƏTN 18

Sarı Aşıq meşədən keçəndə ovçuların nəsə ovlayıb, kabab bişirdiklərini görür. Yaxınlaşıb soruşur. Deyirlər ki, kirpi əti xəstəyə dərmandı, onun üçün də bişiririk. Aşıq bu barədə bayatını belə deyir:

*Mən Aşıq, oxun atdı,*
*Ətin dərmana qatdı.*
*Aşıq qovun yeyibdi,*
*Saplağı dəmir qatdı.*

## MƏTN 19

Bir dəfə yolda Aşıq bir atlıya rast gəlir. Atlı oğlunu da tərkinə almış imiş. Atın üstündə xeyli şəkilli gəbə, kilim var imiş. Bunları görən Sarı Aşıq bayatı deyir:

*Mən Aşığam, bir ata,*
*Bir oğuldu, bir ata.*
*Qırx dəvə, səksən qatır,*
*Yüklənibdi bir ata.*

## MƏTN 20

Ərəşdə yas olur. Camaat Aşığa deyir ki, sən getməsən, biz də getməyəcəyik. Aşıq burda deyir:

*Mən Aşıq, yasa mənsiz,*
*Gül bitməz yasəmənsiz.*

*Ərəşdə bir meyit düşüb,*
*Getməzlər yasa mənsiz.*

## MƏTN 21

Bir gün Aşıq gəlirmiş. Görür ki, bir oğlanla bir qız çəkiliblər daldaya. Bunlar Aşığı görürlər. Oğlan tez keçir qızın arxasına. Aşıq burda deyir:

*Mən Aşığam, nər gizlər,*
*Bənövşələr, nərgizlər.*
*Əsrəmiş maya gördüm,*
*Daldasında nər gizlər.*

Sən demə, qız da söz bilən imiş. Qayıdır ki,

*Mən Aşıq, gördü günü,*
*Ay doğdu, gördü günü.*
*Namərddə söz əylənməz,*
*Mərd deməz gördüyünü.*

Aşıq da onları arxayın eləmək üçün deyir:

*Mən Aşıq, ləngər idi,*
*Sinidi, ləngəridi.*
*Çox bilib az danışmaq,*
*İgidin ləngəridi.*

## MƏTN 22

Bir gün Aşıq Yaxşının əri Yamanı qarğayır:

*Aşıq, yamanı görüm,*
*Ölsün Yamanı görüm.*
*Nə yaman məni görsün,*
*Nə mən yamanı görüm.*

Bu söz Yaxşının qəlbinə dəyir. Aşıq onun ürəgini ələ almaq üçün deyir:

*Aşıq, Yaman yaxşıdı,*
*Xalın yaman yaxşıdı.*
*Yaxşının xətrəsi üçün,*
*Yenə Yaman yaxşıdı.*

## MƏTN23

Birinin malı itmiş imiş. Gedir Aşığa deyir ki, mənim malımı tap. Sən demə malı kəsib, üstünə də göy parça çəkmiş imişlər. Aşıq deyir:

*Mən Aşıq, göyçəkdilər,*
*Gördülər, göyçəkdilər.*
*Öldürdülər aşığı,*
*Üstünə göy çəkdilər.*

## MƏTN 24

Şamlığa od düşmüş imiş. Şamlığın hər iki yanı da su imiş. Maral da şamlıqda qalmış imiş. Burda deyir:

*Mən Aşıq, maral yana,*
*Yol gedə Maralyana.*
*Araz axar, Kür quruyar,*
*İçində maral yana.*

## MƏTN 25

Aşıq arazqırağı gedirmiş. Bağ-bağçanı görüb həvəslənib, deyir:

*Mən Aşıq, bağ salam,*
*Bostan əkəm, bağ salam.*
*Mən də bir bağban olam,*
*Bir gözəl bağ salam.*

Qayıdanda görür ki, bağlar solub. Deyir:

*Mən Aşıq, bağ salam,*
*Bostan əkəm, bağ salam.*
*Verana bağlar gördüm,*
*Dəli deyiləm bağ salam.*



Sarı Aşığın Həkəri çayının sağ sahilində Güləbird
kəndindəki qəbrinin 1933-cü ildə çəkilmiş şəkli

## SÖZLÜK

**A**
Arı – təmiz, burada təmizkar
Alaz – karsız, vecsiz
Alaca – parça növü
Acarı – təzə geyilmiş və yuyulmamış parça
Abı dağlar – sulu dağlar

**B**
Bar – yük
Bus – öpüş
Biniqab – üz örtüsüz, yaşmaqsız
Basma məni – bir batman basma
Bikəs – adamsız, kimsəsiz
Birinc – düyü
Ba – ilə(qoşma), burada: bahuş-ayıq
Baqi – kəsir, əskik
Bum – bayquş
Bədov – bədəvi ərəb atı
Budala – abdalcasına, laubalı

**C**
Cəbr – zor
Cavad – yaxşı yerişli at
Cad – qarğıdalı çörəyi
Cürə – ov quşunun zəifi
Culfa – toxucu

**Ç**
Çakər – nökər, qulluqçu, kölə
Çənbər – doğanaq
Çar – dörd
Çaqçaq – dəyirman daşı işlədikcə buğdanı daşın üstünə tökür
Çəpgən – qabağı açıq qolsuz qadın geyimi, nimtənə də deyirlər

**D**
Didar – üz, camal
Dal – ərəb əlifbasında hərf

Das – oraq, çin
Dər – qapı
Düldül – İmam Əlinin atının adı
Dəm – qan
Dəgəl – keçici yaşlarında oğlan, gənc
Danə – bilikli, alim
Dən – alçaq, rəzil
Day – cavan erkək at
Damı – cəhənnəm
Dibəy – keçmişdə çəltik döymək üçün daşdan hazırlanmış alət
Dən – burada diş
Dal – gülün budağı
Darayı – İran padşahı Daranın şərəfinə adlndırılan parça
Dağal – cığal

**Ə**
Əyyar – hiyləgər, dolandırıcı
Əsəl – bal
Əmmə – bibi
Ətlas – ulduzsuz göy
Əbcəd – hesab
Əsən – sağ-salamat
Ələmdar – bayraqçı, bayraqdar
Əfsar – ovsar, dəvəni yedəkləmək üçün kəndir
Əbləq – ala

**F**
Fərzənd – oğul, övlad

**G**
Gəyən – yarıqaranlıq, aydınlıq olmayan gecə
Gəncə – xəzinə, dəfinə
Gər – cır tut
Gah – avaz
Gah-gahi – hərdən bir
Gəz – ağac
Gəz – yayda ox atılan yer, ağacın haçasına da gəz deyilir
Gərd – toz, torpaq

Güz – payız
Gav – öküz

**H**
Həmayiş – bir yerdə səs-səsə vermək
Həmayıl – boyunbağı
Hənəg – zarafat

**X**
Xak ol – əyil
Xan – süfrə, xonça
Xurşid – günəş
Xandan (xəndan) – tamam açılmış gül
Xara – ipək parça növü
Xan – oxuyan, oxuyucu
Xirqə – dərvişlərin geyindiyi üst paltarı

**İ**
İnd – yanında
İsi – yiyə, sahib
İnan – hakimiyyət, idarə, ixtiyar sahibi
İnan – cilov

**K**
Kəlb – it
Kan – mədən, bir şeyin bol olan yeri
Kaşan – saray, imarət
Keyik – ceyran, dağ keçisi
Kəmandar – mahir oxatan
Kevsər – 1-dini əfsanəyə görə, cənnətdə bulaq adı, 2-şirin, dadlı, ləzzətli içki mənasında
Keykidər – yalqız yaşayan durna növü

**Q**
Qənadilə – burada: dara
Qar – mağara
Qəhr – qəzəb, hirs, hiddət
Qəbalə – qəbz

Qərəz – məqsəd
Qələm-dəvat – qələm və mürəkkəbqabı

**L**
Ləng – topal
Liqa – üz, camal, sima

**M**
Maya – dişi dəvə
Masə – narın qum
Mar – ilan
Muj – tük, saç teli
Mehdi – doğru yola gəlmiş
Məmən – qorxusuz yer, sığınacaq yer
Mey – meh, nəsim, səhər yeli,
Müştəri – ulduz, səadət ulduzu
Mahi – Ay
Mahi – balıq
Mürğ – quş, könül quşu, ürək
Müdərris – dərs verən, müəllim, mədrəsədə dərs verən din alimi
Mərdüm – göz
Müştaq – arzulayan, həsrət çəkən
Mütrib – çalğıçı, sazanda, xanəndə
Muş – siçan
Man – ayıb, qəbahət
Mənzur – nəzərdə tutulan, baxılan, məqsəd, niyyət
Məshəf – kitab; burada quran
Maza – Qədimdə Diri dağın başında pir adı olub
Milçə – gözə sürmə çəkmək üçün çubuq
Müshəf – Qurani-Kərimin əlyazma nüsxəsi
Mac – əkin xışının dəstəyi
Muy – saç

**N**
Nər – erkək dəvə
Narın – cəhənnəm
Narın – od, atəş
Niqab – üz örtüsü, yaşmaq

Nəim – nemət, bolluq
Nab – təmiz, ürəkdən
Niyaz – burada: ehtiyac, möhtaclıq
Niyaz – dua etmə
Niyaz – hədiyyə

**P**
Pustan – məmə
Peykan – oxa bənzədilən kiprik
Pəlmə – duman, çən, sis… toran
Peykan – oxun ucundakı dəmir

**R**
Rayə(ray, rəy) – arzu, meyl, istək, çarə

**S**
Səməndər xoyli – səməndər (əsatirə görə odda yaşayan heyvan) xasiyyətli
Suci – şərab
Suj – cins, irq mənasındadır
Suci – burada şirin mənasında
Sədaq – oxqabı, oxdan
Sali – salim, sağ
Səndəli – stul, kətil
Səndəl – Hindistanda bitən gözəl ətirli ağac
Sərd – ürək sıxan, xoşa gəlməyən
Sayrı – xəstə
Sayə – kölgə
So – söz-sov
Səd – yüz; burada: çox ağlar,
Səmənd – qırmızı kəhər at
Sətar – simli musiqi aləti

**Ş**
Şütür – dəvə
Şir – süd
Şan(şanə) – daraq
Şam – çaykənarı meşə
Şahad – dəyirmanda üyüdülən dənə görə alınan haqq

**T**
Təhəmmül – dözüm, səbr
Tən – bərabər
Tiyğ(tiğ) – qılınc, xəncər
Tüccar – tacir
Tiğ – ülgüc
Tən – bədən, əndam
Tən – baş qaxıncı
Tağar – Şirvanda köhnədən qalma ölçü vahidi, 25 batman 1 tağardı
Tavar – tərlanın dişisi
Tana – sırğa

**Ü**
Ümm – ana
Ürcah – qismət olma, rast gəlmə

**V**
Vird – dua, daima təkrar edib söyləmə
Vəsvəsə – şübhə, tərəddüd
Vayə – pay
Vərd – qızılgül

**Y**
Yəmən – Yaman-Yaxşının qardaşı
Yayağ – piyada
Yarəsər – adam adı: məs. Güləsər

**Z**
Zal – ərəb əlifbasında hərf
Zağ – quş adı
Zəng – zınqırov
Zənbur – arı
Zad – yemək
Ziba – yaraşıqlı, gözəl
Zində – diri, yaşayan
Zəlil – həqir, yazıq
Zərbaf – qızıl ilə toxunmuş parça
Zil – kölgə
Zən – qadın, arvad
Zərd – sarı

## KİTABDAKI YER ADLARI

***Kəbə*** – Məkkə şəhərində müsəlmanların ibadətgahı olan binanın adı
***Xütən*** – Şərqi Türküstan
***Xeybər*** – Ərəbistanda qala
***Bağdad*** – İraqın paytaxtı
***Kaşan*** – İranda şəhər
***Rum*** – Anadolu, kiçik asiya
***Maralyan*** – Cəbrayılda kənd
***Məməqan*** – Cənubi Azərbaycanda şəhər
***Salyan*** – Azərbaycanda şəhər
***Kür*** – Azərbaycanda çay
***Xalxal*** – Cənubi Azərbaycanda şəhər
***Xoy*** – Cənubi Azərbaycanda şəhər
***Salmas*** – Cənubi Azərbaycanda şəhər
***Qızılcıq*** – Sisianda kənd
***Şəki*** – Sisianda kənd
***Mina*** – Ərəbistanda dağ
***Bərdə*** – Azərbaycanda şəhər
***Gəncə*** – Azərbaycanda şəhər
***Duyran*** – Qarabağda kənd
***Dızağ*** – Qarabağda kənd
***Ləngərud*** – İranda yaşayış məntəqəsi
***İncə*** – Qazaxda yer adı
***Zəngi*** – İrəvan mahalında çay
***Simnan*** – İranda şəhər
***Dəmğan*** (Damğan) – İranda şəhər
***Məkkə*** – Ərəbistanda şəhər
***Mədinə*** – Ərəbistanda şəhər
***Kabil*** – Əfqanıstanın paytaxtı
***Hindistan*** – ölkə
***Mirav*** (Murov) –Azərbaycanda (Kəlbəcər) dağ
***İraq*** – ölkə

***Həkəri*** – Azərbaycanda (Laçın) çay
***Horan*** (Horand) – Cənubi Azərbaycanda yaşayış məntəqəsi
***Göran***, ***Köran*** (Goran) – Goranboyda qəsəbə
***Xaldan*** – Azərbaycanda qəsəbə
***Araz*** – Azərbaycanda çay
***Ala yaylaq*** – yer adı
***Alagəz*** (Alagöz) – Sisianda yaylaq adı
***Bərgüşad*** – Qubadlıda kənd və çay
***Başağalı*** – Zəngilanda kənd
***Ərəşbaşı*** – Qubadlıda kənd
***Dilman*** (Dilməqan) – Cənubi Azərbaycanda şəhər
***Aran*** – Azərbaycanın düzənlik yeri
***Qazan*** – Zəngilanda kənd
***Əliyar*** – Qubadlıda kənd
***Mişad***, Meşad – (Məşhəd) İranda şəhər
***Xaçın*** – Qarabağda çay
***Tərtər*** – Azərbaycanda şəhər və çay
***Yazı*** – Yazı düzü (Qubadlıda yer adı)
***Zəngan*** – Cənubi Azərbaycanda şəhər
***Qum*** – İranda şəhər
***Alınca*** – (Əlincə) Naxçıvanda qala
***Çin*** – ölkə
***Şətt*** – İraqda çay
***Kərbala*** – İraqda şəhər
***Cavad*** – Salyan mahalının qabaqkı adı
***Şəki*** – Azərbaycanda şəhər
***Elaqalı*** – Zəngilanda kənd
***Gəndəbil*** – İranda şəhər (İndiki adı Şümşad)
***Tehran*** – İranın paytaxtı
***Savalan*** – Cənubi Azərbaycanda dağ
***Şirvan*** – Azərbaycanda yer adı
***Balakan*** – (Balakən) Azərbaycanda rayon
***Məndil*** – Kərkükdə (İraq) yer adı

***Qəzvin*** – Cənubi Azərbaycanda şəhər
***Qəbələ*** – Azərbaycanda rayon
***Dəllər*** – Goranboyda qəsəbə
***Bərşad*** – Qubadlıda kənd
***Maqsudlu*** – Laçında kənd
***Əlyandı*** (Əlyanlı) – Qubadlıda kənd
***Gorus*** – Zəngəzurda şəhər
***Mehri*** – Zəngəzurda kənd
***Suarası*** – Laçında kənd
***Məmmədbəyli*** – Zəngilanda kənd
***Keçibel*** – yaylaq adı
***Bürün*** – Murovun yanlış adı
***Şahdağ*** – Azərbaycanda dağ
***Diri*** – Xudafərin körpüsü yanında kiçik dağ
***Muqan*** – (Muğan) Azərbaycanda yer adı
***Üçtəpə*** – Gorusun 15 km.-də üç böyük təpə
***Barınca*** – Təbriz yaxınlığında qəsəbə
***Bağban*** – yer adı
***Təbriz*** – Cənubi Azərbaycanda şəhər
***Qarqucaq*** – Cəbrayıl rayonunun Gəyən düzündə yer adı
***Çaxma*** – Cəbrayılın Gəyən düzündə yer adı
***Mincivan*** – Zəngilanda kənd
***Tək ağac*** – Cicimli ilə Xinzirək kəndi (Ermənistan) arasında olub
***Dəhnə, Suçiminə*** – Şəki vilayətində kəndlər
***Nəva*** – yəni Nəvahi, Şirvanda kənd
***Arasbar*** – 1. Araz çayının iki sahilinə deyilir 2.Qaradağ mahalının farsca adı
***Beyləqan*** – Azərbaycanda şəhər
***Divarqan*** (Tufarqan) – Cənubi Azərbaycanda kənd (indiki adı Azərşəhr)
***Şamaxı*** – Azərbaycanda şəhər
***Gözəlcə*** – yaylaq yeri
***Dərdəqıl*** – Qafan rayonunda yer adı

***Ələmdar*** – Cənubi Azərbaycanda şəhər
***Başhasar*** – yaylaq yeridir
***Hat*** – Qubadlıda kənd
***Dəşthaş*** – Qubadlıda kənd
***Birün*** – Zəngilanda kənd
***Nobatay*** – Şirvan kəndlərindən biri
***Girsən*** – Qubadlıda dağ
***Mac*** – Qubadlıda kənd
***Köşbəy*** – Dərələyəzdə (Ermənistan) kənd
***Qısır dağı*** – Dərələyəzdə (Ermənistan) dağ

# QAYNAQLAR

**Mürəbbə və təcnislər**

1. “Sarı Aşıq və boyatıları” Bakı, “Azərnəşr”, 1935, Tərtibçi S.Mümtaz (“A Yaxşı”; “Gəlmədin”; “Görsəydim”; “Gözlərin”; “Var”; “Yetişdi”; “Yetər”;)

2. “Azərbaycan ədəbiyyatı” (El şairləri) 2 cilddə, Bakı, “Nurlan” 2005, Tərtibçi S.Mümtaz, “Əyandı qərəz”

**Bayatılar:**

3. “Sarı Aşıq və boyatıları” Bakı, “Azərnəşr”, 1935 Tərtibçi S.Mümtaz, N: 1; 2; 3; 4; 5; 6; 7; 8; 9; 10; 11; 12; 13; 14; 15; 16; 17; 18; 19; 20; 21; 22; 23; 24; 25; 26; 27; 28; 29; 30; 31; 32; 33; 34; 35; 36; 37; 62; 63; 64; 66; 67; 68; 69; 70; 71; 72; 73; 74; 75; 76; 77; 78; 79; 80; 81; 82; 83; 84; 85; 86; 87; 88; 89; 90; 91; 92; 93; 94; 95; 96; 97; 98; 99; 100; 101; 102; 103; 125; 126; 127; 130; 134; 135; 136; 137; 138; 139; 140; 141; 142; 143; 144; 145; 146; 147; 148; 149; 150; 151; 152; 153; 154; 155; 156; 157; 158; 159; 160; 161; 162; 163; 164; 165; 166; 167; 168; 169; 170; 171; 172; 173; 174; 175; 176; 177; 178; 179; 180; 181; 182; 183; 184; 185; 186; 187; 188; 189; 190; 191; 192; 193; 194; 195; 196; 197; 198; 199; 240; 241; 242; 243; 244; 245; 246; 247; 248; 249; 250; 251; 252; 253; 254; 255; 256; 257; 258; 259; 260; 261; 262; 263; 264; 265; 266; 267; 268; 269; 270; 272; 273; 274; 275; 276; 277; 278; 279; 280; 281; 282; 283; 284; 285; 286; 287; 288; 289; 290; 291; 292; 293; 294; 295; 296; 297; 298; 299; 300; 301; 302; 303; 304; 305; 306; 307; 308; 319; 320; 327; 328; 329; 330; 331; 332; 333; 334; 335; 336; 337; 338; 339; 340; 341; 342; 343; 344; 345; 346; 357; 358; 359; 360; 361; 362; 363; 364; 365; 366; 367; 368; 369; 370; 371; 372; 373; 374; 375; 376; 377; 378; 379; 380; 381; 382; 383; 395; 396; 397; 398; 399; 400; 401; 402; 403; 404; 405; 406; 407; 408; 410; 411; 412; 413; 414;

415; 416; 417; 418; 419; 420; 421; 422; 423; 424; 425; 426; 427; 428; 429; 430; 431; 432; 433; 434; 435; 436; 437; 438; 439; 440; 441; 459; 460; 461; 462; 463; 464; 465; 466; 467; 468; 469; 470; 471; 472; 473; 474; 475; 476; 477; 478; 479; 480; 481; 482; 483; 484; 485; 486; 487; 488; 489; 490; 491; 492; 493; 494; 495; 496; 497; 498; 499; 500; 501; 502; 503; 504; 505; 506; 507; 508; 509; 510; 511; 512; 513; 514; 515; 516; 517; 518; 519; 520; 521; 522; 523; 524; 525; 526; 527; 528; 529; 530; 531; 532; 533; 534; 535; 536; 537; 538; 539; 540; 541; 542; 543; 544; 596; 597; 598; 599; 600; 601; 602; 603; 604; 613; 616; 617; 618; 619; 620; 621; 622; 623; 624; 625; 626; 627; 628; 629; 630; 631; 632; 633; 634; 635; 636;

4. “Sarı Aşıq”. Toplayan Məhəmməd İbadi Qaraxanlı (Alışıq), Təbriz, “Əxtər” nəşriyyatı, 1386 (2007) N:44; 45; 46; 47; 48; 49; 50; 51; 52; 53; 54; 55; 56; 57; 58; 59; 60; 61; 65; 107; 108; 109; 110; 111; 112; 113; 114; 115; 116; 117; 118; 119; 120; 121; 122; 123; 124; 128; 129; 133; 204; 205; 206; 207; 208; 209; 210; 211; 212; 213; 214; 215; 216; 217; 218; 219; 220; 221; 222; 223; 224; 225; 226; 227; 228; 229; 230; 231; 232; 233; 234; 235; 236; 237; 238; 239; 239-37; 312; 313; 314; 315; 316; 317; 318; 322; 323; 324; 325; 350; 351; 352; 353; 354; 355; 356; 384; 385; 386; 387; 388; 389; 390; 391; 392; 393; 394; 409; 442; 443; 444; 445; 446; 447; 448; 449; 450; 451; 452; 453; 454; 455; 456; 457; 557; 558; 559; 560; 561; 562; 563; 564; 565; 566; 567; 568; 569; 570; 571; 572; 573; 574; 575; 576; 577; 578; 579; 580; 581; 582; 583; 584; 585; 586; 587; 588; 589; 590; 591; 592; 593; 594; 595; 595-24; 600; 605; 606; 607; 608; 609; 610 611 612 615 639 640; 641; 642; Çevirən İlham Qəhrəman,

5. “Zəngəzur”, müəllifi Musa Urud, Bakı, “Nurlar” nəşriyyatı, 2005 N: 43; 132; 326; 551; 552; 553; 554; 555; 556; 638;

6. “Azərbaycan xalq dastanları”, Bakı, Yazıçı, 1983, “Yaxşı və Aşıq” dastanı N:38; 39; 40; 41; 42; 104; 105; 106; 131; 200; 201; 202; 203; 310; 311; 321; 347; 348; 349; 458; 545; 546; 547; 548; 549; 550; 614;

7. “Azərbaycan ədəbiyyatı tarixi”, Bakı, 1960, səh. 195 N: 271;

8. S.Mümtaz, “Azərbaycan ədəbiyyatının qaynaqları”, Bakı, Yazıçı, 1986, N: 394-1; 458-1; 458-2; 600-1;

9. “Azərbaycan Aşıq şeirindən seçmələr”, “Şərq-Qərb” Bakı, 2005, N: 61-1; 61-2; 61-3; 239-1; 239-3; 458-3; 458-4; 595-1; 595-2;

10. “Azərbaycan klassik ədəbiyyatından seçmələr”, “Şərq-Qərb”, Bakı, 2005, N: 595-3; 612-1;

11. “Azərbaycan klassik ədəbiyyatı kitabxanası”, 20 cilddə, Altıncı cild, Bakı, “Elm”, 1988, N: 239-2;

12. “Sarı Aşığın bayatıları”, Bakı, “Səda”, 2006, Tərtibçi Bəhlul Bəhcət N: 61-4; 61-5; 61-6; 61-7; 61-8; 61-9; 61-10; 61-11; 61-12; 61-13; 61-14; 61-15; 61-16; 61-17; 61-18; 61-19; 61-20; 61-21; 61-22; 61-23; 62-1; 124-1; 124-2; 124-3; 124-4; 124-5; 124-6; 124-7; 124-8; 124-9; 124-10; 124-11; 124-12; 124-13; 124-14; 124-15; 239-4; 239-5; 239-6; 239-7; 239-8; 239-9; 239-10; 239-11; 239-12; 239-13; 239-14; 239-15; 239-16; 239-17; 239-18; 239-19; 239-20; 239-21; 239-22; 239-23; 239-24; 239-25; 239-26; 239-27; 239-28; 239-29; 239-30; 239-31; 239-32; 239-33; 239-34; 239-35; 239-36; 318-1; 318-2; 318-3; 318-4; 318-5; 318-6; 318-7; 356-1; 356-2; 356-3; 356-4; 394-2; 394-3; 394-4; 394-5; 458-5; 458-6; 458-7; 458-8; 458-9; 458-10; 458-11; 458-12; 458-13; 595-4; 595-5; 595-6; 595-7; 595-8; 595-9; 595-10; 595-11; 595-12; 595-13; 595-14; 595-15; 595-16; 595-17; 595-18; 595-19; 595-20; 595-21; 595-22; 595-23; 602-1; 609-1; 609-2; 609-3; 612-2; 612-3; 615-1; 615-2; 642-1; 642-2; 642-3; 642-4; 642-5;

13. Xalq arasından: 29-1; 309; 394-6; 637; 642-6;

**Təxəllüssüz bayatılar:**

14. “Sarı Aşıq və boyatıları”, Bakı, 1935, Tərtibçi S.Mümtaz N:1; 2; 3; 4; 5; 6; 7; 8; 9; 10; 11; 12; 13; 14; 15; 17; 18; 19; 20; 21; 22; 23; 24; 25; 26; 27; 28; 29; 30; 31; 32; 33; 34; 35; 36; 37; 38; 39; 40; 41; 42; 43; 44; 45; 46; 47; 48; 49; 50; 51; 52; 53; 54; 55; 56; 57; 58; 59; 60; 61; 62; 63; 64; 65; 66; 67; 68; 69; 70; 71; 72; 73; 74; 75; 76; 77; 78; 79; 80; 81; 82; 83; 84; 85; 86; 88; 89; 90; 91; 92; 93; 94; 95; 96; 97; 98; 99; 100; 101; 102; 104; 105; 106; 107; 108; 109; 110; 111; 112; 113; 114; 115; 116; 117; 118; 119; 120; 121; 122; 123; 124; 125; 127; 128; 129; 130; 131; 132; 133; 134; 135; 136; 137; 138; 139; 140; 141; 142; 143; 144; 145; 146; 147; 148; 149; 150; 151; 152; 153; 154; 155; 156; 157; 158; 159; 160; 161; 162; 163; 164; 165; 166; 167; 168; 169; 170; 171; 172; 173; 174; 175; 176; 177; 178; 179; 180; 182; 183; 184; 185; 186; 187; 188;189; 190;

15. “Azərbaycan xalq dastanları” Bakı, Yazıçı, 1983, “Yaxşı və Aşıq” dastanı, N:181;

16.“Sarı Aşıq”, Toplayan: Məhəmməd İbadi Qaraxanlı (Alışıq), Təbriz, “Əxtər” nəşriyyatı, 1386 (2007) N: 16; 87; 103; 126; Çevirən: İlham Qəhrəman

17. “Sarı Aşığın bayatıları”, Bakı, “Səda”, 2006, Tərtibçi Bəhlul Bəhcət N:16-1; 168-1;

**Rəvayətlər:**

18. “Sarı Aşıq”, Toplayan: Məhəmməd İbadi Qaraxanlı (Alışıq), Təbriz, “Əxtər” nəşriyyatı, 1386 (2007), Mətn N: 1; 2; 3; 4; 5; 6; 7; 8; 9; 10; 11; 12; 13; 14; 15; 16; 17; 18; 19; 20; 21; 22; 23; 24; 25; Çevirən: İlham Qəhrəman

## KİTABIN İÇİNDƏKİLƏR

ÜRƏK QOYULAN KİTAB............................................. 7

MÜRƏBBƏ VƏ TƏCNİSLƏR ....................................... 21

BAYATILAR................................................................... 33

TƏXƏLLÜSSÜZ BAYATILAR ...................................... 195

TAPMACALAR .............................................................. 237

BAĞLAMALAR ............................................................. 243

SARI AŞIQ HAQQINDA RƏVAYƏTLƏR .................... 247

SÖZLÜK......................................................................... 265

KİTABDAKI YER ADLARI........................................... 271

QAYNAQLAR................................................................ 275